RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 51 (8930) BAZAR, 6 mart 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Vətən anamızın laylasından başlayır





# Adın şərəflidir

“Adın şərəflidir sənin, ey qadın!” deyib şair. Şərəf, ləyaqət, qeyrət, nəzakət, mərhəmət... Bir-birinə halqa kimi bağlanan bu sözlərin arxasında dayanan ali keyfiyyətlərin hamısı Azərbaycan qadınının simasında cəm olub. Tarix boyu təsdiqlənib bunlar. Onun səhifələrindən Bərdə hökmdarı Nüşabə xanımın, böyük şairələr Məhsəti Gəncəvinin, Xan qızı Xurşidbanu Natəvanın, qoç Koroğlunun igid ömür-gün yoldaşı Nigarın və yüzlərlə digər Azərbaycan qadınının sönməz xatirəsi boylanır. Bu salnamə, bu nümunə günümüzədək davam edir.

Qadınlar müstəqil Azərbaycanın sosial-iqtisadi həyatının bütün sahələrində fəal iştirak edirlər, onların məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi 48,3 faizdir. Bu gün Azərbaycan qadınları kişilərlə bərabər idarəçilikdə, ictimai təşkilatlarda, dövlət qurumlarında təmsil olunur, rəhbər vəzifələr tuturlar. Cəmiyyətin aparıcı hissəsinə çevrilən qadınlar ölkəmizdə gedən ictimai, siyasi, iqtisadi, mədəni proseslərdə fəal iştirak edirlər. Qadınlarımız Azərbaycanın müstəqilliyinin möhkəmlənməsində, ərazi bütövlüyünün qorunmasında, hüquqi demokratik dövlət quruculuğunda, iqtisadi yüksəlişin təmin edilməsində misilsiz xidmətlər göstərirlər. Onların cəmiyyətin həyatında rolu getdikcə daha da artır .

Bütün bunlar ölkəmizdə qadınlara yüksək səviyyədə diqqət və qayğı göstərilməsindən qaynaqlanır . Azərbaycanda qadınların hüquqlarının qorunması, onların ictimai fəallığının təşkili Ulu Öndər Heydər Əliyevin hər zaman diqqət mərkəzində saxladığı məsələlərdən olub. Belə ki, Azərbaycan 1995-ci ildən “Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında” Konvensiyanın üzvüdür və bu Konvensiyanın həyata keçirilməsi haqqında öhdəlikləri öz üzərinə götürərək bərabərlik və demokratiya ideyalarına tərəfdar olduğunu təsdiq edib. Ümummilli Lider 1998-ci ildə Azərbaycanda qadınların hüquqlarını müdafiə etmək və bu sistemi mərkəzləşdirmək məqsədilə Qadın Problemləri üzrə Dövlət Komitəsi (hazırda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi adlanır) yaradıb. Bünövrəsi Ulu Öndər tərəfindən qoyulan həmin siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Odur ki, qadınlar cəmiyyətin inkişafında fəal iştirak edərək ölkəmizin inkişafına öz töhfələrini verirlər.

Bu gün tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan qadınlar arasında bacarıqlı siyasətçilər, iş adamları, dövlət məmurları da az deyil. Humanizmi, xeyirxahlığı və nəcibliyi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək hörmət qazanan birinci xanım, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan şəxsiyyətlərdəndir.

*Ardı 3-cü səh.*

## Türkiyə-Azərbaycan müttəfiqliyi xalqlarımızın qəlbindədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlunu qəbul edib. AZƏRTAC xəbər verir ki, Türkiyənin xarici işlər nazirini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz, hörmətli Mövlud bəy. Vətəninizə xoş gəlmisiniz. Şadam ki, yenə də görüşmək imkanımız oldu.

Əlbəttə ki, bu gün Türkiyə-Azərbaycan müttəfiqlik əlaqələrinin gələcək inkişafı ilə bağlı fikir mübadiləsi aparacağıq. Üç aydan sonra biz Şuşa Bəyannaməsinin birinci ildönümünü qeyd edəcəyik. Bu, tarixi bir sənəddir. Əslində, Türkiyə-Azərbaycan əlaqələri hər zaman müttəfiqlik səviyyəsində idi və müttəfiqlik xalqlarımızın qəlbindədir. Sadəcə olaraq, biz keçən il Şuşada bunu rəsmən təsdiqlədik.

Bu gün və bundan sonrakı illərdə daim Türkiyə-Azərbaycan qardaşlıq əlaqələri həm xalqlarımız üçün, həm bölgə üçün böyük önəm kəsb edəcək. Çünki təkcə ikitərəfli formatda yox, bölgə təhlükəsizliyi üçün bizim əlaqələrimizin çox böyük əhəmiyyəti var. Türkiyə və Azərbaycan birgə səylərlə bizim bölgəmizdə gələcək inkişafı təmin edir, təhlükəsizliyi təmin edir, xalqlarımızın rahat həyatını təmin edir. Aramızda olan əlaqələr o qədər şaxəlidir ki, onların hər birini sadalamaq üçün çox vaxt lazım olacaq. Biz, sözün əsl mənasında, müttəfiqik, qardaşıq və dünya miqyasında bizim əlaqələrimizə bənzər olan əlaqələr yoxdur.

*Ardı 2-ci səh.*



## Təcavüzkar beynəlxalq səviyyədə də cəzalandırılmalıdır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərifi qəbul edib. AZƏRTAC xəbər verir ki, qonağı salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz. Sizi görməyə çox şadam.

**Maimuna Mohd ŞƏRİF:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham ƏLİYEV:** Şadam ki, bizi ziyarət edirsiniz. Bilirsiniz ki, biz BMT-nin çox fəal üzvüyük və BMT-nin müxtəlif qurumları ilə uğurla əməkdaşlıq edirik. Şadam ki, BMT-nin Məskunlaşma Proqramı - UN-HABİTAT-ın icraçı direktoru olaraq bizi ziyarət edirsiniz. Bilirəm ki, siz bərabərlik, yoxsulluğun azaldılması və urbanizasiya dəyərlərini təşviq edirsiniz. Yəqin ki, yoxsulluğun azaldılması ilə bağlı göstəricilərimizdən sizin məlumatınız var. Yoxsulluğun azaldılması ilə bağlı hesab edirəm ki, biz bu qlobal bəlanın öhdəsindən uğurla gələ bildik və Azərbaycanda yoxsulluğun səviyyəsi təxminən beş faizdir. Bu da onu göstərir ki, sərvətin bərabər şəkildə bölüşdürülməsi üçün biz enerji sektorundan qaynaqlanan gəlirlərdən müvafiq şəkildə istifadə edə bilmişik. Əlbəttə, iqtisadi islahatlarla, məşğulluqla bağlı yeni imkanlar Azərbaycanda yeni mənzərə yaradacaqdır, çünki əhalimiz artır. Buna görə də məşğulluqla və əlbəttə ki, bununla birbaşa əlaqəli olan yoxsulluğun səviyyəsi ilə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir.

*Ardı 2-ci səh.*

## Ənənəvi idman növlərinə maraq artır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 5-də Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanı qəbul edib. AZƏRTAC xəbər verir ki, Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev Türkiyənin dövlət başçısının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

Söhbət zamanı Bakıda keçirilən “Ənənəvi idmanın dirçəldilməsi” adlı 5-ci Beynəlxalq Etnoidman Forumunun əhəmiyyəti vurğulandı, onun yüksək səviyyədə təşkil olunduğu bildirildi. Xalqımızın ənənəvi idman növlərinə böyük marağının olduğu qeyd edildi.

Görüşdə bu tədbirin idman sahəsində beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.

Sonda Bilal Ərdoğan etnoidman növlərinin və oyunlarının dünya miqyasında tanınmasında, kütləviliyinin artırılmasında xidmətlərinə, ənənəvi idman növlərinin inkişafı üçün göstərdiyi liderliyə, fədakar yanaşmasına, idmana və idmançıya daim fəal dəstəyinə görə Dünya Etnoidman Konfederasiyasının Ənənəvi İdman Mükafatları çərçivəsində “Liderlik Mükafatı”nı Prezident İlham Əliyevə təqdim etdi.

# Türkiyə-Azərbaycan müttəfiqliyi xalqlarımızın qəlbindədir



*Əvvəli 1-ci səh.*

Dünya miqyasında Türkiyə və Azərbaycan qədər bir-birinə canla, qanla bağlı olan ikinci ölkələr yoxdur. Bu, bizim böyük sərvətimizdir və bunu biz qoruyuruq, gücləndiririk, istənilən vəziyyətə hazırıq və hər zaman bir-birimizin yanındayıq.

Ona görə sizi bu gün görmək mənim üçün çox xoşdur. Bildiyiniz kimi, cənab Prezident Rəcəb Tayyib Ərdoğanla biz daim təmasdayıq, daim telefon əlaqələri saxlayırıq, görüşürük və gələcək addımlarımızı birgə atırıq. Bir daha xoş gəlmisiniz.

❖ ❖ ❖

**Mövlud ÇAVUŞOĞLU:** Cənab Prezidentimiz, əvvəla, bizi qəbul etdiyiniz üçün Sizə təşəkkür edirəm, minnətdarlığımı bildirmək istəyirəm. Qardaşınız, hər zaman təmasda olduğunuz Prezidentimiz Ərdoğanın səmimi salamlarını çatdırmaq istəyirəm. İki gün əvvəl Brüsselə gedərkən oradan da Bakıya gələcəyimi söylədikdə "Biz onsuz da qardaşımla davamlı görüşürük, amma sən salamlarımı da çatdır" demişdi.

Cənab Prezident, Şuşa Bəyannaməsini hazırlamaq və imzalamaq sizlərin fikri idi. Biz də Ceyhun qardaşımla birlikdə bunun üzərində çalışdıq və təxminən bir il əvvəl - doqquz ay əvvəl qardaşınız - Prezidentimiz Ərdoğan ilə birlikdə imzaladınız. Təxminən bir ay əvvəl iki gün ara ilə iki Məclisdə də bunun təsdiqlənməsi, əslində, Sizin ortaya qoyduğunuz bu iradəni daha da gücləndirdi. Xalqımızın təmsilçilərinin də buna səs verməsi önəmli idi. Bunun da koordinasiyasını biz bir yerdə Sizin tapşırığınızla etdik.

Şuşa Bəyannaməsi, - həqiqətən də biz onsuz da təbii müttəfiqik, - bir millət, iki dövlətə yaraşan kimi oldu. Cənab Prezident, bunu Sizin imzalarla, sadəcə, rəsmiləşdirdik. Bunun içərisindəki məsələlərin həyata keçirilməsi istiqamətində də biz qardaşlarımızla səylə çalışırıq. Təkcə xarici işlər nazirləri deyil, bütün qurumlarımız çalışır, konkret addımlar atmalıyıq. Sizin də söylədiyiniz kimi, bizim aramızda əlaqələrin güclənməsi yalnız iki ölkənin və xalqın əlaqələrinin güclənməsinə, ya da marağına deyil, bölgənin sabitliyi və əmin-amanlığına da çox faydası olacaq. Bu səbəbdən biz Şuşa Bəyannaməsində yer alan məsələləri bölgədəki ölkələrlə münasibətlərimizdə də əksini tapması üçün üçtərəfli, dördtərəfli formatlarda çalışacağıq.

Təbii ki, bölgəmizdə mühüm proseslər yaşanır, bu proseslərin təsirləri var. Bundan başqa, burada Sizin Zəngəzur dəhlizi daxil olmaqla həyata keçirəcəyiniz önəmli layihələr var. Bütün bu məsələlərdə gördüyümüz işlər haqqında məlumat vermək və bundan sonra birlikdə hansı addımları atacağıq, onları birlikdə dəyərləndirmək üçün bu gün Bakıya gəldim.

Bizə vaxt ayırdınız. Buna görə də Sizə bir daha təşəkkürlərimi bildirmək istəyirəm, cənab Prezidentim.

**Prezident İlham ƏLİYEV:** Sağ olun.

❖ ❖ ❖

Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Prezident Rəcəb Tayyib Ərdoğana çatdırmağı xahiş etdi.

# Təcavüzkar beynəlxalq səviyyədə də cəzalandırılmalıdır

*Əvvəli 1-ci səh.*

İşğaldan azad edilmiş əraziləri ziyarət etdiyiniz üçün sizə minnətdaram. Bilirəm ki, Ağdamda olmusunuz və dağıntının miqyasını öz gözlərinizlə görmüsünüz. Sizi əmin edə bilərəm ki, işğaldan azad olunmuş bütün ərazilərdə vəziyyət eynidir. Hər şey dağıdılıb, məhv edilib, vandalizm, barbarlıq nəticəsində Ağdam mövcud deyil. On minlərlə insanın məskəni olmuş şəhər indi dağıntılar içindədir. Bu, işğal illəri ərzində ermənilər, erməni cinayətkar rejimi tərəfindən törədilmişdir. Demək olar ki, otuz il ərzində Azərbaycan mədəniyyəti və tarixinin izini silmək üçün şəhərlərimiz, kəndlərimiz, tarixi və dini abidələrimiz qəsdən, planlaşdırılmış şəkildə dağıdılırdı. Lakin torpaqlarımızın azadlığı uğrunda müharibə onu göstərdi ki, gec və ya tez ədalət zəfər çalacaqdır. Səbirli olmaq lazımdır. Eyni zamanda, ölkəyə sadiq olmaq və məqsədə nail olmaq üçün hər gün işləmək lazımdır. Bizim müharibəmiz azadlıq müharibəsi idi. Biz işğala son qoyduq. Biz torpağımızdakı şər qüvvələrə son qoyduq. Yəqin, sizin məlumatınız var ki, ermənilər həm də bizim dini abidələrimizi təhqir edib və dağıdıblar. 65 məscid tamamilə dağıdılmışdır və yerdə qalan iki məsciddə bütün dünya müsəlmanlarının hisslərini təhqir edərək onlar donuz və inək saxlayırdılar. Əfsuslar olsun ki, bütün bu işğal illəri ərzində beynəlxalq birlik buna susurdu. Bununla belə, sizin bildiyiniz kimi, BMT-nin Təhlükəsizlik Şurası, Baş Assambleyası və digər mühüm beynəlxalq təşkilatlar tərəfindən bizim mövqeyimizi dəstəkləyən qərar və qətnamələr qəbul edilməsinə baxmayaraq, Ermənistana ciddi təzyiq göstərilmirdi. Ermənistana qarşı heç bir sanksiya tətbiq edilməmişdi. Hətta bəzi ölkələr təcavüzkarı və təcavüzün qurbanını tərəzinin eyni gözünə qoymağa cəhd edirdilər. Ermənilərin bu əraziləri uzun müddət ərzində öz nəzarəti altında saxlamalarının əsas səbəblərindən biri də bunlar idi. Biz şücaət, vətənpərvərlik və gücümüzü göstərməsəydik, bu işğal davam edəcəkdi. Çünki bizə belə gəlirdi ki, beynəlxalq təşkilatlar artıq özləri vəziyyətə uyğunlaşmışdı. Mənasız danışıqlarla qəribə turistlər qrupu kimi Minsk qrupu bizi ildə bir neçə dəfə ziyarət edirdi. İndi isə bu danışıqların yalnız arxasında Ermənistanın işğalın nəticələrini möhkəmləndirməyə çalışdığı sanki bir pərdə rolunu oynaması aydındır. Ermənilər bizim şəhər və kəndlərimizin adlarını dəyişirdi. Ermənilər dünyanın işğalı unutması üçün əlindən gələni edirdilər. Lakin Azərbaycan xalqı bunu unutmadı. Heç birimiz unutmadıq. Hamımız bir olaraq tarixi doğma vətənimizi azad etmək üçün canımızı qurban verməyə hazır idik və bu da baş verdi.



Hazırda bizim qarşımızda böyük çağırışlar var. Əminəm ki, bizim planlarımız barədə sizə məlumat verilib. Ola bilsin ki, bizim bərpa prosesimizin müəyyən nəzərəçarpan hissəsini görmüsünüz. Bu, böyük işdir. İndiyə qədər biz nə beynəlxalq təşkilatlardan, nə də dünyanın heç bir ölkəsindən beynəlxalq yardım olaraq bir dollar belə almamışıq. Gördüyümüz bütün işləri öz hesabımıza edirik. Biz bunu etməyə davam edəcəyik. Lakin, əlbəttə qəribədir ki, torpaqların azad edilməsindən, demək olar, il yarım keçməsinə baxmayaraq, heç kim bizə kömək etməyə hazır deyil. Yalnız sözlər, başqa heç nə. Nə donor konfransı ilə bağlı ideyalar, nə də maliyyə dəstəyi var. Hətta məşhur qeyri-hökumət təşkilatları, məşhur beynəlxalq fondlar Qarabağ və Zəngəzurda baş verənlərə göz yumur. Bu, təəssüf doğurur. Bilirsiniz, biz əraziləri bərpa edəcəyik, Qarabağ və Zəngəzurda, dediyim kimi, yer üzündə cənnət nümunəsi yaradacağıq. Biz bunu nəyin bahasına olursa-olsun edəcəyik. Lakin düşünürəm ki, beynəlxalq təşkilatların, donor təşkilatların, böyük fondların bu etinasızlığı qəbuledilməzdir. Ümidvarıq, BMT öz qurumları və öz kommunikasiya kanalları vasitəsilə bizi dəstəkləyəcək, bu mühüm mesajı çatdıracaq ki, Azərbaycanın dəstəklənməyə ehtiyacı var. Biz sizin səfərinizi bu dəstəyin əlaməti hesab edirik. Əminəm ki, orada gördükləriniz barədə hesabat verəcəksiniz. Çünki eşitmək, bilmək, oxumaq ayrı, gəlib öz gözlərinizlə görmək isə ayrı məsələdir.

Həmçinin dünyanın erməni barbarlığı haqqında öyrənməyi vacibdir. Bu, cəzalandırılmalıdır. Biz müharibə zamanı onları elə cəzalandırdıq ki, onlar bunu heç vaxt unutmayacaqlar, lakin təcavüzkar beynəlxalq səviyyədə də cəzalandırılmalıdır. Əlbəttə ki, təzminat məsələsi var. Biz təzminat tələb edirik. Bu məsələni beynəlxalq arenada qaldırmaqda bizə kömək etmək üçün artıq beynəlxalq təsisatları, hüquqşünas qrupları cəlb etmişik. Beləliklə, planlar bundan ibarətdir. Düşünürəm ki, gələn ilin proqramı üçün biz əməkdaşlığımızı yaranmış bu mühüm reallığa uyğunlaşdırmalıyıq.

Hazırda minalar səbəbindən keçmiş məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərə geri qaytarılması mümkün deyil. Əfsuslar olsun ki, indiyədək bizdə minalar səbəbindən 200-dən çox insan həlak olub və ya ağır yaralanıb. Ərazilərin bu minalardan təmizlənməsi böyük təcrübə və texniki imkanlar tələb edir. Həmçinin biz geri qayıdacaq insanlar üçün layiqli şərait yaratmalıyıq və proses başlayıb. Əminəm ki, siz ölkəmizə yenidən səfər edəcəksiniz, çünki bu, qlobal miqyasda həqiqətən də çox mühüm məsələdir. Düşünürəm ki, bizim Livan böyüklüyündə ərazini necə bərpa edəcəyimiz, işğaldan, dağıntıdan və başqa ciddi problemlərdən əziyyət çəkən digər ölkələr üçün yaxşı nümunə olacaq. Əminəm ki, bizim kimi eyni problemlərlə üzləşən və ya üzləşmiş bütün digər ölkələr üçün nümunə ola bilərik. Bir daha xoş gəlmisiniz. Bizimlə olduğunuz üçün təşəkkür edirəm.

❖ ❖ ❖

Ölkəmizə ilk dəfə səfər etdiyini deyən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Maimuna Mohd Şərif Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycandakı inkişaf proseslərinin, şəhər planlaşdırma və inkişaf konsepsiyasının onda dərin təəssürat hissi yaratdığını dedi. Azərbaycanda qədimiliklə müasirliyin vəhdətinin şahidi olduğunu, tarixi binalar saxlanılmaqla müasir tikililərin ahəngdar formada inşa edildiyini, şəhər planlaşdırılması və urbanizasiyanın tərkib hissəsi olan şəhər nəqliyyat sisteminin və yol infrastrukturunun müasirliyindən məmnunluğunu bildirdi.

Azərbaycana səfərinin bir gününü Ağdam şəhərində keçirdiyini deyən BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycan hökuməti tərəfindən həyata keçirilən Ağdam şəhərinin inkişaf və urbanizasiya planı ilə yaxından tanış olduğunu qeyd etdi.

Maimuna Mohd Şərif Azərbaycanın məqsədinin Ağdam da daxil olmaqla işğaldan azad edilmiş ərazilərdə sıfır emissiyalı müasir eko-şəhər konsepsiyasının tətbiq edilməsi olmasını məmnunluqla vurğuladı. Bildirdi ki, BMT-nin Məskunlaşma Proqramı dünyanın müxtəlif ölkələrində postmünaqişə şəraitində şəhərlərin qurulmasında, dayanıqlı şəhər inkişaf konsepsiyalarının yaradılmasında təcrübəsi ilə dəstək verir və bu xüsusda Azərbaycan hökuməti ilə də sıx əməkdaşlığa hazırdır.

# İşğaldan azad olunmuş ərazilərdə quruculuq işlərində qardaş Türkiyənin rolu yüksəkdir









Martın 5-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Bakıya rəsmi səfəri çərçivəsində Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ceyhun Bayramov Türkiyə və Azərbaycan arasında mövcud olan dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərini yüksək qiymətləndirib. Hər zaman ölkələrimiz arasında münasibətlərin sıx olduğu və dövlət rəhbərlərinin birbaşa iştirakı ilə bu münasibətlərin bütün sahələrdə yüksək səviyyədə inkişaf etdiyini qeyd edib.

Mövlud Çavuşoğlu öz növbəsində bu səfərin yüksək səviyyədə inkişaf edən ikitərəfli əlaqələr, Şuşa Bəyannaməsinin icrası istiqamətində görülən işlər, habelə çoxtərəfli müstəvilərdə əməkdaşlıq məsələlərinin müzakirəsi baxımından əhəmiyyətini qeyd edib. Nazir Xocalı qətliamının 30-cu ildönümündə şəhidlərin xatirəsini hörmətlə anıb.

Nazir Ceyhun Bayramov postmünaqişə dövründə bölgədə mövcud vəziyyətdən danışaraq üçtərəfli bəyanatların icrası və Azərbaycanın bu xüsusda atdığı addımlardan, delimitasiya prosesindən danışıb, kommunikasiya və nəqliyyat xətlərinin açılmasından bölgənin bütün ölkələrinin faydalanacağını qeyd edib. Nazir işğal amilinin aradan qaldırılması ilə iki ölkə arasında münasibətlərin normallaşdırılması üçün imkanların yarandığını qeyd edib və bunun üçün ilk növbədə, beynəlxalq hüququn suverenlik, ərazi bütövlüyü və beynəlxalq sərhədlərin toxunulmazlığı prinsiplərinə ciddi riayət olunmasının zəruriliyini vurğulayıb.

Nazirlər, habelə işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidən quruculuq işləri barədə ətraflı fikir mübadiləsi aparıblar. Bu xüsusda, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində iqtisadiyyatın bərpa edilməsində və quruculuq işlərinin həyata keçirilməsində qardaş Türkiyənin rolu və fəal iştirakı yüksək qiymətləndirilib.

Tərəflər iki ölkə arasında iqtisadiyyat, ticarət, kənd təsərrüfatı və digər sahələrdə münasibətlərin inkişafından məmnunluq ifadə ediblər, habelə iqtisadi sahədə əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyini vurğulayıblar.

Nazirlər, həmçinin Ukraynada baş verən hadisələr, ölkədəki vəziyyət ilə əlaqədar Azərbaycan və Türkiyə vətəndaşlarının təxliyəsi, bu xüsusda aparılan əlaqələndirmə işləri barədə fikir mübadiləsi aparıblar.

Görüşdə, eyni zamanda, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın uğurla davam etdirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər müzakirə olunub.

Görüşdən sonra nazirlər brifinq keçiriblər.

# *Ceyhun BAYRAMOV:* "Azərbaycan regionda sülhün və sabitliyin bərqərar olmasının tərəfdarıdır"



"Ukraynada yaranmış vəziyyət çox ciddi narahatlıq doğurur. Qurbanların sayı artır. Azərbaycan və Türkiyə fəal, məsuliyyətli mövqe sergiləyir, münaqişə tərəflərinin liderləri ilə çoxsaylı danışıqlar aparır. Həmçinin məsələnin dialoq, sülh yolu ilə həllinə çağırış edir".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra keçirilən brifinqdə deyib.

Nazir əlavə edib ki, Azərbaycan münaqişənin beynəlxalq hüquqa əsaslanaraq dialoq çərçivəsində həllinin tərəfdarıdır.

❖ ❖ ❖

"Azərbaycan regionda sülhün və sabitliyin bərqərar olmasının tərəfdarıdır. Bu, Ermənistan üçün bir fürsətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyi bu fürsətdən necə istifadə etmək barədə qərar verməlidir".

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra keçirilən brifinqdə bildirib.

C.Bayramov qeyd edib ki, Azərbaycan və Türkiyənin mövqeyi beynəlxalq hüquq prinsiplərinə əsaslanır. Ermənistanla münasibətlərin normallaşması məsələsində ölkələrimiz arasında koordinasiya var.

❖ ❖ ❖

"Türkiyə ilə Azərbaycan arasında dostluq, qardaşlıq, strateji tərəfdaşlıq, müttəfiqlik münasibətləri hər zaman sıx olub".

AZƏRTAC xəbər verir ki, bunu Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov türkiyəli həmkarı Mövlud Çavuşoğlu ilə görüşdən sonra keçirilən brifinqdə deyib.

"Təsadüfi deyil ki, 44 günlük Vətən müharibəsi nəticəsində azad olunan torpaqlarımızın bərpasında Türkiyə şirkətləri fəal iştirak edirlər", - deyə nazir qeyd edib.

Ceyhun Bayramov həmkarı ilə görüşdə ölkələrimiz arasında iqtisadi münasibətlərin nəzərdən keçirildiyini söyləyib. Bildirib ki, Azərbaycan ilə Türkiyə arasında ticarət dövriyyəsi ötən il 12 faiz artıb. Lakin potensial bundan qat-qat yüksəkdir.

# *Mövlud ÇAVUŞOĞLU:* "Türkiyə Azərbaycanın Ermənistanla əhatəli sülh razılaşması imzalamaq təklifini dəstəkləyir"



"Türkiyə Azərbaycanın Ermənistanla əhatəli sülh razılaşması imzalamaq təklifini dəstəkləyir. Azərbaycan bölgədə sülhün, təhlükəsizliyin bərpa olunmasını istəyir". AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra keçirilən brifinqdə deyib.

Mövlud Çavuşoğlu bildirib ki, Türkiyə-Ermənistan münasibətlərinin normallaşdırılması ilə bağlı fəaliyyət Azərbaycanla koordinasiyalı şəkildə aparılır. Bu koordinasiya bundan sonra da davam etdiriləcək. Zəngəzur dəhlizinin reallaşması da çox önəmlidir.

❖ ❖ ❖

"Ukrayna hadisələrini narahatlıqla izləyirik. Ölkələrin ərazi bütövlüyünün güc yolu ilə dəyişdirilməsinin əleyhinəyik. Münaqişənin dayandırılması üçün səylərimizi davam etdiririk". AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu azərbaycanlı həmkarı Ceyhun Bayramovla görüşdən sonra keçirilən brifinqdə deyib.

Mövlud Çavuşoğlu qeyd edib ki, Azərbaycan və Türkiyə hər iki münaqişə tərəfi ilə əlaqə saxlayan ölkələrdəndir. Bu münasibətlərdən istifadə edərək münaqişənin dayandırılması üçün səylərimizi davam etdiririk.

# Türkiyənin iki naziri Ankaradakı Heydər Əliyev adına orta məktəbdə olublar

Türkiyədə "zəlzələ üzrə maarifləndirmə həftəsi" çərçivəsində tədbirlər davam edir. AZƏRTAC xəbər verir ki, martın 1-də start verilən təlimlər ümumilikdə yeddi gün keçiriləcək.

Daxili işlər naziri Süleyman Soylu və milli təhsil naziri Mahmut Özer "zəlzələ həftəsi" çərçivəsində Ankaradakı Heydər Əliyev adına orta məktəbdə olub, buradakı təlimləri izləyiblər. Qeyd edək ki, "zəlzələ üzrə maarifləndirmə həftəsi"nin məqsədi ölkədə, eləcə də təhsil müəssisələrində zəlzələ zamanı davranış qaydalarını izah etmək, təhlükələrdən qorunmaq, riskləri azaltmaq üçün işlər aparmaqdır.

Nazir Süleyman Soylu bildirib ki, 2019-cu ildən başlayaraq üç il ərzində bu çərçivədə ümumilikdə 56 milyon nəfər maarifləndirmə təlimlərinə cəlb olunub.



# Adın şərəflidir

## Vətən anamızın laylasından başlayır

*Əvvəli 2-ci səh.*

Mehriban Əliyeva UNESCO-nun və ISESCO-nun xoşməramlı səfiri kimi Azərbaycanı dünya miqyasında şərəf və ləyaqətlə təmsil edir. Ölkəmiz müstəqillik əldə etdikdən sonra xalqımızın milli və qədim bayramlarından olan Novruzun dövlət səviyyəsində qeyd olunması ideyası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyuldu. Bu ideyanın davamçısı olan Heydər Əliyev Fondunun prezidentinin gərgin səyləri nəticəsində Novruz bayramı UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edildi. Mehriban xanım Əliyevanın təşəbbüsü və dəstəyi ilə Azərbaycan milli-mənəvi dəyərlərinin dünyaya inteqrasiya olunması da böyük əhəmiyyətə malikdir. Onun rəhbərliyi ilə fond Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlər həyata keçirir, dini tolerantlığın bərqərar olmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyaya inteqrasiya prosesində milli-mənəvi dəyərlərin qorunmasına dəstək verir. Bakıda Beynəlxalq Muğam Mərkəzinin istifadəyə verilməsi, ölkənin şəhər və kəndlərində mədəniyyət və təhsil müəssisələrinin təmiri, inşası və bərpa etdirilməsi istiqamətində görülən işlər müstəsna əhəmiyyət daşıyır. Azərbaycanın birinci xanımının mədəniyyət sahəsində apardığı məqsədyönlü fəaliyyəti nəticəsində qədim tarixə malik muğam və aşıq sənəti də UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına daxil edilib.

Prezident İlham Əliyevlə çiyin-çiyinə Mehriban xanımın ölkənin inkişaf strategiyasının hazırlanmasında və həyata keçirilməsində, sosial layihələrin gerçəkləşməsində böyük əməyi var. Sosial problemlərin həllinə xüsusilə diqqət ayırır. O, hər zaman həssas əhali qruplarına qayğı ilə yanaşır, onların sosial ehtiyaclarının ödənilməsi üçün müxtəlif təşəbbüslər irəli sürür. Bu gün birinci xanım həmçinin işğaldan azad edilmiş ərazilərimizin bərpasında fəal iştirak edir.

Bütün bunlar Azərbaycan xanımları üçün gözəl nümunədir və təsadüfi deyil ki, qadın və qızlarımız hər sahədə onlara göstərilən etimadı doğruldurlar.

Qısa statistik arayış: cari ilin əvvəlinə ölkə əhalisinin ümumi sayının 50 faizini qadınlar təşkil edib. Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 81,7 , orta ixtisas təhsil müəssisələrində 80,9 , ali təhsil müəssisələrində 54 faizi, həkimlərin isə üçdən ikisi qadınlardır. Ümumi təhsil müəssisələrində təhsil alanların 46,5 , orta ixtisas təhsili müəssisələri tələbələrinin 61,6, ali təhsil müəssisələri tələbələrinin 49,3 faizi qızlardır.

Qadınların elmin inkişafında da müstəsna rolu var. Elmi işçilərin 57,6 faizini qadınlar təşkil edir. Son 10 ildə onlardan elmlər doktoru elmi dərəcəsi olanların sayı 2,4 , fəlsəfə doktoru elmi dərəcəsi olanların sayı isə 2,3 dəfə artıb. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvlərindən 7-si, müxbir üzvlərindən isə 9-u qadındır.

Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi 27,5, fərdi sahibkarlar arasında isə 21,4 faizdir.

Milli Məclisdə qadın deputatların sayı da artır. Əgər 1990-cı ildə bütün deputatların 4,3, 2000-ci ildə 10,7 faizini qadınlar təşkil edirdisə, bu gün ölkədə qadın deputatların xüsusi çəkisi 18,5 faizə çatıb.

Qadınların reproduktiv sağlamlığının qorunması dövlət tərəfindən daim diqqət mərkəzində saxlanılan ən mühüm məsələlərdən biridir. Hazırda ölkədə 17 doğum evi, 118 qadın məsləhətxanası onların reproduktiv sağlamlığının keşiyində dayanır.

Qadın anadır! Cənnət isə anaların ayaqları altındadır. Vətən hər birimiz üçün anamızın laylasından başlanır. Vətənə Ana demişik həmişə. Vətən, torpaq uğrunda canından-qanından keçənlərə südünü, zəhmətini halal edib bizim mərd analar.

Bir şair də deyib ki, qara günə qardaşsan, ağ günə həmdəmsən, Azərbaycan qadını. Haqlıdır belə deməkdə, çünki zaman-zaman tale çox sınağa çəkib Azərbaycan qadınını. Elə yaxın tariximizi götürək. Minlərlə qadın 30 il qaçqın-məcburi köçkün həyatı yaşadı. Daha neçəsi şəhid yadigarı böyüdür. Neçəsinin taleyinə şəhid anası olmaq yazıldı. Neçə qız igid qardaş, qəhrəman ata itirdi. Ancaq dərd heç vaxt əyməyib Azərbaycan qadınını. O həmişə başıuca, məğrur və qürurludur. Bütün çətinliklərə güc gələcək qədər güclüdür!

Bu gün zərif olduqları qədər də güclü olan, incə qəlbli və möhkəm iradəli insanların - anaların, bacıların, qız-gəlinlərin bayramıdır. Bayramınız mübarək, əzizlərimiz! Həmişə sağlam olun, şən və firavan yaşayın , ürəyiniz-üzünüz gülsün!

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Şəmkir rayonunda vətəndaşlara ödənişsiz hüquqi yardım aksiyası keçirilib

Martın 5-də Şəmkir rayonunda Milli Məclisin Sədri, 98 saylı Şəmkir şəhər seçki dairəsindən deputat seçilən Sahibə Qafarovanın təşəbbüsü ilə vətəndaşlara hüquqi yardım aksiyası keçirilib.





AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri tərəfindən rayon sakinlərinə ödənişsiz hüquqi yardımın göstərildiyi aksiyanın açılış tədbirində onlayn formatda çıxış edən spiker Sahibə Qafarova tədbir iştirakçılarını salamlayaraq, əvvəlcə ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən genişmiqyaslı islahatlar və onların uğurlu nəticələri barədə danışıb. Bildirib ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan sosial-iqtisadi inkişaf strategiyası həyatın bütün sahələrində geniş uğurların əldə olunmasını təmin edib. Görülən məqsədyönlü tədbirlər nəticəsində ölkəmizin dinamik inkişafı qorunur, vətəndaşların sosial müdafiəsi, rifah halının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu inkişaf meyilləri regionlarda da özünü aydın şəkildə göstərir. Əvvəllər seçicilərin müraciətlərində əksini tapan bir sıra məsələlər artıq öz həllini tapıb.

Sahibə Qafarova deyib ki, Milli Məclisin deputatlarının başlıca vəzifələrindən biri seçiciləri narahat edən məsələləri dövlət qurumları qarşısında qaldırmaq, onların həllinə dəstək verməkdir. O, ötən dövrdə seçicilərin müraciətlərində yer almış və onun müraciəti əsasında müvafiq dövlət qurumları tərəfindən həll edilmiş məsələlər, həmçinin Milli Məclis sədrinin təşəbbüsü ilə həyata keçirilmiş sosial, humanitar layihələr barədə tədbir iştirakçılarını məlumatlandırıb.

Spiker sonra bugünkü aksiya barədə məlumat verərək bildirib ki, Azərbaycan müasir, demokratik, hüquqi dövlət kimi fundamental hüquq və azadlıqların səmərəli müdafiəsinin təmin olunmasını özünün əsas prioriteti elan edib. Bu istiqamətdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar ölkəmizdə hüquq sisteminin modernləşməsini və inkişafını təmin edib. Azərbaycan dövləti hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. Bununla belə, seçici müraciətlərində qaldırılan bir sıra məsələləri araşdıranda məlum olur ki, bu problemlər daha çox vətəndaşın həmin məsələ ilə bağlı lazımi qədər məlumata malik olmamasından irəli gəlir. Xüsusilə, hüquqi məsələlərlə əlaqədar olan müraciətlərin bir çoxunda bu tendensiya müşahidə olunur. Milli Məclisin Sədri seçicilərə hüquqi yardım göstərilməsi ilə bağlı tədbirlərin keçirilməsinin bu məsələlərin həllinə dəstək olacağını bildirib.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov bu kimi aksiyaların keçirilməsinin əhəmiyyətini qeyd edərək aksiyanın təşkilinə görə Milli Məclis Sədrinə minnətdarlığını bildirib.

A.Bağırov deyib ki, Prezident İlham Əliyevin 2018-ci il 22 fevral tarixli "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" sərəncamına əsasən görülən işlər ölkəmizdə vəkillik institutunun inkişafına mühüm təkan verir. O, bu sərəncamdan irəli gələrək aztəminatlı ailələrə ödənişsiz hüquqi yardım göstərilməsi məqsədilə müxtəlif addımlar atıldığını xatırladıb. Bu cür ödənişsiz hüquqi yardımın həyata keçirilməsində Vəkillər Kollegiyasının üzvləri fəal iştirak edirlər. Bu aksiyada da kollegiyanın üzvləri, təcrübəli hüquqşünaslar seçicilərin suallarını cavablandıracaq, onlara hüquqi yardım göstərəcəklər.

Aksiyada Milli Məclisin deputatları Nizami Səfərov, Kamran Bayramov və Nurlan Həsənov da iştirak ediblər.

"Bu gün keçirilən tədbir çox ciddi əhəmiyyətə malikdir. Təşəbbüsün əsas üstünlüyü ondan ibarətdir ki, vətəndaşların problemlərinə hüquqi cəhətdən aydınlıq gətirilsin. Burada sosial, torpaq münasibətlərinin rəsmiləşdirilməsi və müxtəlif sahələrdə mövcud olan hüquqi problemlərə vəkillər tərəfindən aydınlıq gətiriləcək", - deyə Milli Məclisin deputatı Nizami Səfərov deyib.

Aksiya zamanı Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvləri fərdi qaydada hər bir seçicinin müraciətini dinləyərək onlara hüquqi yardım göstəriblər.

# Fövqəladə Hallar Nazirliyində kollegiya iclası olub



Martın 5-də Fövqəladə Hallar Nazirliyində (FHN) nazir general-polkovnik Kəmaləddin Heydərovun rəhbərliyi ilə geniş kollegiya iclası keçirilib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, kollegiya iclasında nazir müavinləri, nazirliyin Aparatının struktur bölmələri və qurumlarının rəhbərləri iştirak ediblər.

İclasda çıxış edən nazir Kəmaləddin Heydərov Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin nazirliyin qarşısında qoyduğu mühüm tapşırıqların icra vəziyyəti barədə ətraflı danışıb. Azərbaycan Prezidentinin rəhbərliyi ilə ölkəmizdə COVID-19 pandemiyasına qarşı sistemli və effektli mübarizənin aparıldığını qeyd edən nazir ötən dövrdə FHN tərəfindən bu istiqamətdə görülmüş işlərə toxunub, infeksiyanın ölkəmizdə geniş yayılmasının qarşısının alınması məqsədilə dövlət başçısının tapşırıqları əsasında aidiyyəti üzrə həyata keçirilmiş preventiv tədbirlərdən bəhs edib. K.Heydərov Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın bilavasitə diqqət və qayğısı sayəsində nazirliyin Tibb Mərkəzinin koronavirus xəstələrinin müalicəsi üçün nəzərdə tutulan modul tipli hospitalının qısa müddətdə ərsəyə gəlməsini xəstəliklə mübarizədə atılan mühüm addımlardan olduğunu diqqətə çatdırıb. Bildirib ki, hazırda hospital koronavirus xəstələrinin müalicəsi üzrə uğurlu fəaliyyətini davam etdirir.

Nazir həmçinin 44 gün davam etmiş Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin müdrik rəhbərliyi altında şanlı Ordumuzun qazandığı tarixi zəfərdən danışıb, Ermənistanın 30 ilə yaxın müddətdə işğal altında saxladığı əzəli torpaqlarımızın bu Qələbə sayəsində azad olunduğunu, ərazi bütövlüyümüzün bərpa edildiyini xüsusi vurğulayıb, Vətən müharibəsində nazirliyin həyata keçirdiyi tədbirlərə toxunub. Müharibədən dərhal sonra Prezidentin tapşırıqlarına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə başlanıldığını qeyd edən K.Heydərov FHN-in hazırda minatəmizləmə işlərini sürətlə davam etdirdiyini bildirib.

Otuz ilə yaxın müddətdə işğal altında saxlanılmış və tamamilə viran qoyulmuş torpaqlarda bu gün misli görünməmiş abadlıq-quruculuq və yenidənqurma işlərinin görüldüyünü xatırladan nazir Qarabağ və Şərqi Zəngəzur ərazisinin hazırda böyük bir tikinti meydanına çevrildiyini, nəhəng infrastruktur layihələrinin icra olunduğunu, yaşayış məntəqələrinin tamamilə yenidən qurulduğunu, sənaye, kənd təsərrüfatı və xidmət sektoruna aid müəssisələrin inşa olunduğunu qeyd edib. Böyük sürətlə icra olunan bu işlərdə aidiyyəti üzrə təhlükəsizliyin, o cümlədən yanğın təhlükəsizliyi, tikintidə, sənaye və dağ-mədən işlərində təhlükəsizliyin, radioloji təhlükəsizliyin təmin olunması istiqamətində nazirliyin qurumları tərəfindən intensiv iş aparıldığı bildirilib.

Sonra nazir Fövqəladə Hallar Nazirliyinin əhali və ərazilərin təhlükəsizliyinin təmin edilməsi istiqamətində cari fəaliyyəti barədə danışıb.

Daha sonra gündəlikdə duran məsələlər ətrafında geniş müzakirə aparılıb, işin keyfiyyətinin daha da artırılması üçün müvafiq tapşırıqlar verilib.

# Əmək münasibətləri sahəsində normativ-hüquqi bazanın təkmilləşdirilməsi işləri davam edəcək



Hazırda iş yerlərində əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına e-sistem üzərindən daimi və operativ nəzarət təmin edilir. Bu nəzarət işçilərin əmək hüquqlarının təminatına yönəlməklə, həm də qanunvericiliyin tələblərinin icrası prosesində işəgötürənlərə dəstək məqsədi daşıyır.

Bunu əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev əmək siyasəti və əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına nəzarət sahəsinə həsr olunmuş onlayn iclasda bildirib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, nazir qeyd edib ki, Prezident İlham Əliyevin siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipi dayanır və bunun nəticəsi olaraq ölkəmizdə genişmiqyaslı sosial islahatlar aparılır. Xüsusilə son illərdə sosial ödənişlərdə inqilabi addımlar atılıb. Bunu əməkhaqqı sistemində aydın görmək olar: son 4 ildə minimum əməkhaqqı 2,3 dəfə artaraq 130 manatdan 300 manata çatdırılıb, orta aylıq əməkhaqqı 37 faiz, median əməkhaqqı 74 faiz, əməkhaqqı fondu 2 dəfə artıb.

S.Babayev bildirib ki, yaxın vaxtlarda işə salınacaq "Əmək münasibətləri və məşğulluq altsistemi" də işəgötürənlər və işçilər üçün vahid əmək münasibətləri platforması rolu oynayacaq və əmək münasibətlərinin daha rahat, çevik şəkildə tənzimlənməsində onlara fəal dəstək olacaq.

Qeyd edilib ki, İnzibati Xətalar Məcəlləsinə edilmiş yeni dəyişiklik də əmək qanunvericiliyinin tələblərinin pozulmasına görə işəgötürənlərə qarşı bəzi cərimələrin şərti olaraq tətbiqini nəzərdə tutur və bu da onlara güzəştli yanaşmanı ehtiva edir.

Həmin dəyişiklik o deməkdir ki, əmək qanunvericiliyinin tələblərinin pozulması halına yol vermiş işəgötürən əgər müəyyən edilmiş müddətdə həmin halı aradan qaldıranda bəzi cərimələri ödəməkdən azad edilir. Bununla işəgötürən həm də əmək qanunvericiliyində nəzərdə tutulan tələbləri pozduğu halda onun bu pozuntunu qısa müddətdə aradan qaldırmasını stimullaşdırır.

Əmək münasibətləri sahəsində normativ-hüquqi bazanın mütəmadi təkmilləşdirilməsi işləri qarşıdakı dövrdə də davam edəcək. Əmək məcəlləsinə də bir çox dəyişikliklərin layihələri hazırlanıb.

Həmin layihələrin hazırlanması zamanı sosial tərəfdaşlar olan işəgötürənlərin də təklifləri öyrənilir və nəzərə alınır. Bu məqsədlə vaxtaşırı olaraq sosial dialoq müstəvisində işəgötürənlərlə görüşlər keçirilir.

Əmək qanunvericiliyinin tələblərinə əməl olunmasına dövlət nəzarətinin həyata keçirilməsində ixtisaslı kadr potensialının formalaşdırılması işlərinin mütəmadi aparıldığı da diqqətə çatdırılıb. Əsas məqsəd bu sahədə həm şəffaf, məsuliyyət və rahatlıq prinsipləri əsasında qurulan, həm də innovativ, peşəkar yanaşmalara əsaslanan mexanizmin təmin edilməsidir.

İclasda nazirliyin Əmək siyasəti şöbəsinin və nazirliyin tabeliyindəki Dövlət Əmək Müfəttişliyi Xidmətinin fəaliyyəti ilə əlaqədar məsələlər, 2022-ci ildə qarşıda duran vəzifələr müzakirə olunub.

# Özünüməşğulluq proqramı çərçivəsində kiçik biznes quran qadınlarla iş yerlərində görüş

Özünüməşğulluq proqramı çərçivəsində öz kiçik müəssisələrini yaradan Ruhiyyə Səmədova, Səidə Cəfərova və Niyafət Rəsulova ilə onlara məxsus istehsal və xidmət sahələrində görüş keçirilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyinin İdarə heyətinin sədri Mustafa Abbasbəyli xanımların çalışdığı istehsal və xidmət sahələri ilə tanış olub, onları qarşıdan gələn 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə təbrik edib.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, M.Abbasbəyli qadınların məşğulluğunun və əmək bazarında iştirak imkanlarının artırılması üçün işlərin ildən-ilə gücləndirildiyini deyib. O, həyata keçirilən aktiv məşğulluq tədbirlərinin əhatə etdiyi vətəndaşların mühüm bir hissəsinin qadınlardan ibarət olduğunu və qadınların məşğulluq imkanlarının artırılması sahəsində layihələr həyata keçirildiyini bildirib.

Görüşdə özünüməşğulluq proqramı iştirakçıları Ruhiyyə Səmədova, Səidə Cəfərova və Niyafət Rəsulova öz biznes sahələrini yaratmaq, işsizlikdən sahibkarlığa keçid imkanı qazanmaq üçün onlara göstərilən dəstəkdən razılıq edib, öz kiçik bizneslərini inkişaf etdirmək üçün səylə çalışdıqlarını bildiriblər.

# Bir qrup qadına özünüməşğulluq proqramı üzrə aktivlər verilərək kiçik biznesləri yaradılıb

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən icra edilən özünüməşğulluq proqramında qadınların fəal iştirakına şərait yaradılır.

Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, bu sahədə işlərin davamı kimi, paytaxt və bölgələrdə bir qrup qadına mal və materiallar formasında aktivlər təqdim edilib. Verilmiş avadanlıqlar hesabına onlar üçün istehsal-xidmət sahəsi üzrə kiçik bizneslər yaradılıb. Bu ilin əvvəlindən proqram çərçivəsində ümumilikdə 2 minədək işsiz və işaxtaran şəxsə aktivlər təqdim edilib və onlardan 500-ə yaxını qadınlardır.

Proqrama cəlb olunan şəxslər üçün əvvəlcə təlimlər təşkil olunur, onlara kiçik biznesin təşkili və idarə olunması üzrə bilik və bacarıqlar öyrədilir.

Təlimləri uğurla başa vuran şəxslər seçdikləri özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

# ADA Universiteti "Azərbaycan" qəzeti və "Vətən dili" dərsliyinin latın qrafikasında nəşrlərini ictimaiyyətə təqdim edib





Martın 4-də ADA Universitetində 1918-1920-ci illərdə çap edilmiş "Azərbaycan" qəzeti və XIX əsrin axırlarında işıq üzü görmüş iki hissədən ibarət "Vətən dili" dərsliyinin latın qrafikasında nəşrlərinin təqdimatı keçirilib. AZƏRTAC xəbər verir ki, tədbiri giriş sözü ilə açan ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev bu ali təhsil ocağında ilk gündən Azərbaycan tarixinə diqqət yetirildiyini deyib. Rektor Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi ilə bağlı konfransların keçirilməsini və çoxsaylı nəşrləri diqqətə çatdırıb.



"Qazax Müəllimlər Seminariyasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamını xatırladan rektor ADA Universitetinin bu sahədə gördüyü işlərdən də söz açıb və ötən il seminariyanın tarixi binasının bərpasını və ADA Universitetinin "Bir müəllimin manifesti" təhsil proqramının başlanmasını yada salıb.

Latın qrafikasında təqdim edilən nəşrlərin vacibliyinə toxunan rektor Paşayev qeyd edib ki, "Azərbaycan" qəzetinin 450-yə yaxın nömrəsi indiyədək tam külliyyatda ərəb əlifbasından latın əlifbasına transliterasiya edilməyib. Bu istiqamətdə ayrı-ayrı təşəbbüslər olsa da, bütöv şəkildə nəşrlər ortaya qoyulmayıb. Bu baxımdan, 1918-1920-ci illərdə işıq üzü görmüş "Azərbaycan" qəzetinin seçmə saylarının çapı və qəzetin tam külliyyatının hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

1918-1920-ci illərdə nəşr olunmuş "Azərbaycan" qəzetinin tam külliyyatı 20 cilddə olacaq. Hazırda I və II cild ictimaiyyətə təqdim olunur. I cild 1918-ci ilin sentyabr-oktyabr aylarını, II cild 1918-ci ilin noyabr ayını əhatə edir.

Diqqətə çatdırılıb ki, ənənəni davam etdirmək məqsədilə ADA Universiteti I hissəsi 1882, II hissəsi 1888-ci illərdə çap edilmiş "Vətən dili" dərsliyinin də bütövlüklə, yəni hər iki hissəsi bir kitaba daxil edilməklə müasir oxucu üçün anlaşılan dildə təqdim olunmasını zəruri hesab edib və onu da nəşr etdirib.

Tədbirdə "Azərbaycan" qəzetini transliterasiya edənlər - filologiya üzrə fəlsəfə doktoru Mehdi Gəncəli, filoloq, tərcüməçi Azad Ağoğlu, "Vətən dili" kitabını transliterasiya edən, qeyd və şərhlərin müəllifləri - Bakı Dövlət Universitetinin Ərəb filologiyası kafedrasının müdiri Vüqar Qaradağlı, Sayman Aruz çıxış ediblər.

Təqdimat zamanı hər iki nəşrin aktuallığından bəhs edilib. Nəzərə çatdırılıb ki, "Azərbaycan" qəzeti transliterasiya edilərkən rast gəlinən xəbərlər, xüsusən ictimai-siyasi hadisələrlə bağlı informasiyalar bu günümüz üçün də aktualdır. Çıxışçılar əlavə ediblər ki, ADA Universitetinin latın dili qrafikası ilə təqdim etdiyi "Vətən dili" kitabı vaxtilə Cənubi Qafqazda azərbaycanlı uşaq və müəllimlər üçün mükəmməl dərs vəsaiti kimi əvəzsiz mövqeyə malik olub.

"Vətən dili" dərsliyi həm Qori, həm də onun varisi olan Qazax Müəllimlər Seminariyasının rəsmi dərsliyi olub.

Kitab strukturunu mövcud olmuş rus dərsliyi əsasında tapsa da, vaxtilə tərtibçilər onu tam milliləşdirməyə nail olublar. Azərbaycan dilinin gözəl bilicisi, Azərbaycan xalqını dərindən sevən Aleksey Osipoviç Çernyayevski, Səfərəli bəy Vəlibəyov bu strukturu tərtib edərkən o dövrdə yaşayan Azərbaycan ziyalılarını dərsliyin ərsəyə gəlməsinə cəlb etmək üçün səylərini əsirgəməyiblər.

Təqdimatda dövlət və hökumət rəsmiləri, elmi ictimaiyyət nümayəndələri iştirak ediblər. Tədbirdə həmçinin Xalq şairi Nəriman Həsənzadə, tarix elmləri doktoru Solmaz Rüstəmova-Tohidi, tarixçi alim İradə Bağırova, Milli Məclisin deputatları Sabir Rüstəmxanlı, Musa Qasımlı və başqaları çıxış ediblər. Çıxışlarda bu kitabların nəşri Azərbaycanın elmi, ictimai, mədəni həyatında mühüm hadisə kimi dəyərləndirilib. Vurğulanıb ki, digər tarixi nəşrlər də transliterasiya olunmalı və cəmiyyətə çatdırılmalıdır.

# "Azərbaycan etnoidman növlərinin inkişafına mühüm töhfələr verir"

"Azərbaycan V Beynəlxalq Etnoidman Forumuna yüksək səviyyədə evsahibliyi edir".

AZƏRTAC xəbər verir ki, bunu Bakıda keçirilən V Beynəlxalq Etnoidman Forumunda iştirak edən Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan jurnalistlərə müsahibəsində deyib.

Konfederasiya sədri bildirib ki, forumun təşkilində əsas məqsəd insanlığın ümumi dəyərlərini qoruyub saxlamaq, sülhə və həmrəyliyə töhfə verməkdir. Hər bir xalqın mədəniyyəti özündə böyük tarixi əks etdirdiyi üçün dəyərli və hörmətə layiqdir.

Mədəniyyətlərin müxtəlifliyinin zənginlik yaratdığını və dünyanı daha rəngarəng etdiyini vurğulayan B.Ərdoğan deyib: "Forumda dünyanın müxtəlif ölkələrindən federasiya, klub təmsilçiləri, diplomatlar iştirak edirlər. Tədbirdə ənənəvi idman növlərinin keçmişini və gələcəyini müzakirə edir, perspektivlər barədə fikir mübadiləsi aparırıq. Hər bir ölkənin və xalqın milli idman növləri inkişaf etdirilməli və dünyada geniş yayılmalıdır. Konfederasiyanın dəstəyi ilə Azərbaycanda yaylaq və elat ənənələrinin yaşadılması və təbliği məqsədilə 2019-cu ildə Gədəbəy rayonunda Milli Yaylaq Festivalı yüksək səviyyədə keçirilib. Bu cür tədbirin Bakıda, insanların daha çox qatılacağı məkanlarda keçirməyin daha əhəmiyyətli olacağını düşünürük. Azərbaycanın çövkən milli atüstü oyununu dünyada da geniş təbliğ etmək lazımdır. Milli idman növlərini dünyada yaydığımız zaman mədəniyyətimizi beynəlxalq arenada tanıtmış oluruq".

## "V Beynəlxalq Etnoidman Forumunun yüksək səviyyədə təşkilinə görə Can Azərbaycana təşəkkür edirəm"

"V Beynəlxalq Etnoidman Forumunun yüksək səviyyədə təşkilinə görə Can Azərbaycana təşəkkür edirəm". AZƏRTAC xəbər verir ki, bu sözləri Bakıda keçirilən V Beynəlxalq Etnoidman Forumunda iştirak edən Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu jurnalistlərə müsahibəsində deyib.

Türkiyəli nazir bildirib ki, Dünya Etnoidman Konfederasiya yarandığı gündən xalqları bir araya gətirən ənənəvi idman növlərini inkişaf etdirməklə gücünü ortaya qoyan və populyarlığını artıran beynəlxalq qurumdur. "Türkiyə bu sahədə bir sıra önəmli layihələr gerçəkləşdirib. Federasiyalar ilə Gənclər və İdman Nazirliyi arasında əməkdaşlıq maksimum dərəcədə inkişaf etdirilib. Bu çərçivədə Türkiyə həm lisenziyalı idmançı sayında, həm də idman komplekslərinin tikintisində yüz faizdən artıq irəliləyiş əldə edib. Bu gün Bakıda keçirilən Beynəlxalq Etnoidman Forumuna gələn il yenidən Türkiyə evsahibliyi edəcək. Bu forumun bütün iştirakçılar və idman ictimaiyyəti üçün xeyirli olmasını diləyirəm", - deyə qeyd edib.

## "Azərbaycan Macarıstanda keçirilən Dünya Hun-Türk qurultaylarında fəal iştirak edir"

"Azərbaycan ilə fəal əməkdaşlıq edirik. Macarıstanda hər iki ildən bir Dünya Hun-Türk qurultayları təşkil olunur. Azərbaycan bu qurultaylarda böyük nümayəndə heyəti ilə yüksək səviyyədə iştirak edir".

Bu sözləri Bakıda keçirilən V Beynəlxalq Etnoidman Forumunda iştirak edən Macar Turan Fondunun prezidenti Biro Andras Zslot AZƏRTAC-a müsahibəsində deyib.

"Macarıstanda ənənəvi idman növləri bu günədək qorunur. Bundan əlavə, ölkəmizdə türk xalqları ilə bir çox ortaq ənənəvi idman növləri mövcuddur. Biz uzun illərdir Dünya Etnoidman Konfederasiyası ilə birlikdə çalışırıq. Macarıstanda keçirilən tədbirlərimizə konfederasiyanı müntəzəm dəvət edirik", - deyə qonaq bildirib.

Xatırladaq ki, martın 5-də Bakıda işə başlayan "Ənənəvi idman növlərinin dirçəlişi" devizi altında V Beynəlxalq Etnoidman Forumunda 14 ölkədən 140-dək nümayəndə iştirak edir.

## "Beynəlxalq Etnoidman Forumu ənənəvi idman növlərinin inkişafı və təbliği baxımından çox önəmlidir"

"Bakıda keçirilən Beynəlxalq Etnoidman Forumu ənənəvi idman növlərinin inkişafı və təbliği baxımından çox önəmlidir. Bu forum milli adət-ənənələrin, millətlər arasında qarşılıqlı hörmətin ənənəvi idman vasitəsi ilə qorunmasında çox böyük rol oynayır".

Bu sözləri Bakıda keçirilən V Beynəlxalq Etnoidman Forumunun iştirakçısı, Beynəlxalq İdman Təhlükəsizliyi Mərkəzinin (ICSS) baş icraçı direktoru Massimiliano Montanari AZƏRTAC-a açıqlamasında deyib.

"Ənənəvi idman saflığın ifadəsi, mədəni irsin qorunması deməkdir. Biz bu irsin qorunmasına hər zaman dəstək göstərməyə hazırıq", - deyə M.Montanari bildirib.

"Ənənəvi idman növlərinin dirçəlişi" devizi altında keçirilən V Beynəlxalq Etnoidman Forumunda 14 ölkədən 140-dək nümayəndə iştirak edir.

# Bakıda "Ənənəvi idman növlərinin dirçəlişi" devizi altında V Dünya Etnoidman Forumu işə başlayıb

## Forumun birinci günündə Birgə Bəyannamə qəbul edilib

Martın 5-də Bakıda "Ənənəvi idman növlərinin dirçəlişi" devizi altında ikigünlük V Beynəlxalq Etnoidman Forumu işə başlayıb.





AZƏRTAC xəbər verir ki, foruma Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif, Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev, tərəfdaş qurumların rəhbər şəxsləri, dövlət və hökumət rəsmiləri, diplomatlar olmaqla 14 ölkədən ümumilikdə 140 nümayəndə qatılıb.

Forumun açılış mərasimində əvvəlcə dünyada etnoidman növlərinin inkişafını əks etdirən videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edən Azərbaycanın gənclər və idman naziri **Fərid Qayıbov** forumun Bakıda keçirilməsinə görə Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğana təşəkkür edib. Nazir Azərbaycanın irimiqyaslı tədbirlərə evsahibliyi ilə bağlı zəngin təcrübəsi olduğunu vurğulayaraq deyib: "Azərbaycan dövlətinin, xüsusilə Prezident İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları, XV Avropa Gənclər Yay Olimpiya Festivalı, Formula-1 yarışları, dünya və Avropa çempionatları, digər nüfuzlu turnirlər keçirilib. IV İslam Həmrəyliyi Oyunlarının proqramına ənənəvi idman növümüz olan zorxana da daxil edilmişdi və bu yarış uğurla keçirildi. Azərbaycanın milli idman növü olan çövkən atüstü oyunu üzrə bir sıra yarışlar, o cümlədən beynəlxalq turnirlər təşkil edilir. 2019-cu ildə isə Gədəbəydə Milli Yaylaq Festivalı keçirilib".

Nazir bildirib ki, 2005-ci ildən etibarən hər il martın 5-i Azərbaycanda Bədən Tərbiyəsi və İdman Günü kimi qeyd edilir. Bu il "İdman həftəsi" çərçivəsində ölkəmizin müxtəlif regionlarında silsilə tədbirlər təşkil olunub.

Dünya Etnoidman Konfederasiyasının sədri **Bilal Ərdoğan** qədim tarixə malik Azərbaycanda belə bir nüfuzlu forumun keçirilməsindən məmnunluğunu bildirib. Gənc nəsil arasında milli idman oyunlarının təbliğinin vacibliyini xüsusi qeyd edən B.Ərdoğan bildirib: "Bugünkü forumda ənənəvi idman növlərinin keçmişini və gələcəyini müzakirə edəcəyik. Bir çox ölkə və millətin nümayəndələrini bu mövzu ilə bağlı bir araya gətirmək böyük uğurdur. İnsanların birləşməsi üçün hörmət, həmrəylik, sülhün bərqərar olması xüsusi əhəmiyyət kəsb edir. Dünya Etnoidman Konfederasiyası öz işini məhz bu dəyərlər üzərində qurub. Ümidvaram ki, bu forum müxtəlif mədəniyyətlər arasında körpü rolunu oynayacaq".

B.Ərdoğan növbəti forumun Türkiyədə keçiriləcəyini bildirib.

BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru **xanım Maimuna Mohd Şərif** BMT-nin Dünya Etnoidman Konfederasiyası ilə əməkdaşlığa böyük önəm verdiyini və bu işbirliyindən məmnun olduğunu bildirib: "BMT-nin Məskunlaşma Proqramı olaraq inklüziv, davamlı, təhlükəsiz, dayanıqlı şəhərlərin yaradılması və icmaların qurulmasının tərəfdarıyıq. Bütün xalqlar, millətlər milli idman növlərini yaşatmaq haqqına sahibdirlər. Çünki bütün ənənəvi milli idman növləri dünyanın zənginliyidir".

Xanım Maimuna Mohd Şərif BMT-nin Dünya Etnoidman Konfederasiyası ilə bundan sonra da fəal əməkdaşlıq edəcəyini diqqətə çatdırıb.

Türk Dövlətləri Təşkilatının Baş katibi **Bağdad Amreyev** etnoidman növlərinin kütləviliyinin artırılmasının müxtəlif xalqlar arasında münasibətlərin inkişafı, dostluq əlaqələrinin və əməkdaşlığın dərinləşdirilməsi baxımından önəmini xüsusi vurğulayıb. B.Amreyev





bu forumun, eləcə də etnoidmanın türkdilli dövlətlər və xalqlar arasında da qardaşlıq əlaqələrinin inkişafına mühüm töhfə verəcəyini deyib.

Açılış mərasimindən sonra yüksəksəviyyəli nazirlərin "Etnoidman beynəlxalq tərəfdaşlığın qurulması və genişləndirilməsi üçün vasitə kimi" mövzusunda panel iclası keçirilib.

Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğanın moderatorluğu ilə keçirilən iclasda Türkiyənin gənclər və idman naziri **Mehmet Muharrem Kasapoğlu** dünyanın bu çətin günlərində idmanın insanları sülh və ədalət naminə birləşdirdiyini bildirib. Etnoidman növlərinin inkişafına Azərbaycanın sabiq naziri Azad Rəhimovun çox böyük töhfələr verdiyini qeyd edən qonaq yeni nazir Fərid Qayıbova uğurlar diləyib, idman sahəsində əməkdaşlığın daimi olmasını arzulayıb.

Türkiyənin bütün regionlarında ənənəvi idman növlərini inkişaf etdirməyin əsas məqsədlərdən olduğunu bildirən nazir bu sahədə bir sıra infrastruktur layihələrinin olduğunu vurğulayıb: "Pandemiya dövrünə baxmayaraq, Türkiyədə idman sahəsində çoxlu tədbirlər keçirilib. Ötən il 200-ə yaxın beynəlxalq yarış təşkil edilib. Türkiyədə bir çox idman növləri dəstəklənir, onların inkişafı üçün sərmayə qoyulur. Bugünkü forumun ana xətti ənənəvi idmanın inkişafıdır. 2015-ci ildən bu sahədə ciddi irəliləyiş var və uğurlu nəticələr əldə edilib. İnanırıq ki, ənənəvi idman növləri üzrə yeni federasiya və klublar yaradılacaq".

Nigerin gənclər və idman naziri **Sekou Doro Adamou** etnoidman növlərinin bütün dəyərləri özündə birləşdirdiyini bildirib. O, ölkəsində bu sahədə çoxlu işlərin görüldüyünü və gələcəkdə digər tədbirlərin nəzərdə tutulduğunu deyib: "Nigerdə qitələrarası forumlar təşkil edilir ki, bu tədbirlər vasitəsilə ənənəvi idman növlərində strategiyalarımızı müəyyənləşdiririk. Afrikanın 15 ölkəsi ənənəvi güləş növünün inkişafı üçün çalışır. Ölkəmiz ənənəvi idman növlərinə böyük önəm verir. Bu sahənin inkişafı məqsədilə arenalar var və onları inkişaf etdiririk. Gələn ilin martında ölkəmizdə ənənəvi idman növləri üzrə birinci festivalın keçirilməsini planlaşdırırıq. Bununla bağlı danışıqlar aparılır".

Meksikanın Milli Bədən Tərbiyəsi və İdman Komissiyasının (CONADE) baş direktoru **Ana Qabriela Guevara Espinoza** idmanın insanları birləşdirdiyini və nəticədə qarşılıqlı dialoqun yarandığını bildirib. Müasir idman növləri ilə yanaşı, ənənəvi növlərin də inkişafının önəmini vurğulayan qurum rəsmisi Meksikada hər iki istiqamətdə ciddi tədbirlərin görüldüyünü vurğulayıb: "Ölkəmizdə 8 fərqli ənənəvi idman növü var və azarkeşlərin sayı artmaqdadır. Ümid edirik ki, insanlar bu idman növlərini inkişaf etdirməyə çalışacaqlar. Meksika bu sahədə Amerika ölkələri ilə əməkdaşlığı davam etdirir. Düşünürəm ki, forumu gələcəkdə Meksikada da keçirə biləcəyik".

Qambiyanın gənclər və idman naziri **Bakary Badjie** ölkəsində güləşin çox populyar olduğunu və futbola böyük rəğbət bəsləndiyini bildirib: "Ölkəmizdə ənənəvi idman növlərinə böyük rəğbət var. Bu növlərdən ən populyarı güləşdir. Bu sahənin daha yaxşı inkişaf etməsi üçün geniş infrastrukturun qurulması vacibdir. Bundan başqa, etnoidman növlərini inkişaf etdirmək üçün beynəlxalq dəstək lazımdır".

Daha sonra V Beynəlxalq Etnoidman Forumunun iştirakçıları birgə bəyanat qəbul ediblər.

Bəyanatı Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan, Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlu, BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif, Nigerin gənclər və idman naziri Sekou Doro Adamou, Meksikanın Milli Bədən Tərbiyəsi və İdman Komissiyasının (CONADE) baş direktoru Ana Qabriela Guevara Espinoza, Qambiyanın gənclər və idman naziri Bakari Badjie və Türk Dövlətləri Təşkilatının Baş katibi Bağdad Amreyev imzalayıblar.

Bəyanatda ənənəvi idman növlərinin milli və beynəlxalq səviyyədə inkişafı, dəstəklənməsi və kütləviliyinin artırılması məsələləri əksini tapıb.

Forumun birinci günündə "Etnoidmanda maliyyə vəsaitlərinin toplanması üçün sponsorların və tərəfdaşların cəlb edilməsi yolları", "Etnoidman növlərinin yayılması və şaxələndirilməsi üçün ideyalar, oyun mükafatları və idmançıların motivasiyasının yaxşılaşdırılması", "Kütləvi və sosial mediada etnoidmanın daha çox işıqlandırılması üçün tövsiyələr" mövzularında sessiyalar, eləcə də Dünya Etnoidman Konfederasiyası üzvlərinin dördüncü iclası və etnoidman komitələrinin toplantısı keçirilib.

V Dünya Etnoidman Forumu işini bu gün "Etnoidman və onların effektiv həyata keçirilməsi üçün mümkün əlaqələr və media strategiyaları" mövzusunda panel iclası ilə davam etdirir. Sonra Dünya Etnoidman Konfederasiyasının Ənənəvi İdman Mükafatlarının təqdim olunması mərasimi keçiriləcək. Yekun çıxışlardan sonra forum işini başa çatdıracaq. Forum iştirakçılarının Azərbaycan Respublikası Atçılıq Konfederasiyasının komandasının çövkən oyununu izləmələri də nəzərdə tutulur.

Qeyd edək ki, V Dünya Etnoidman Forumunda etnoidman idman növlərinin yayılması və şaxələndirilməsi üçün ideyalar, oyun mükafatları və idmançıların motivasiyasının yaxşılaşdırılması, eləcə də etnoidmanın təbliği məsələləri müzakirə olunacaq. Belə bir tədbirin təşkili xalqların zəngin və çoxəsrlik mədəni irsinin, yüz illərlə formalaşmış adət-ənənələrinin və mədəniyyətlərinin, eləcə də milli idman növlərinin inkişafında və daha da möhkəmlənməsində əhəmiyyətli rol oynayacaq.

V Beynəlxalq Etnoidman Forumunun Bakıda keçirilməsinə dair qərarın qəbulu ölkəmizin indiyədək bir sıra mühüm idman yarışlarına və tədbirlərinə uğurla ev sahibliyi etməsinin nəticəsidir. Belə ki, dünyanın zənginliyindən xəbər verən ənənəvi milli idman növlərinin inkişafına ölkəmizdə yüksək diqqət və qayğı göstərilir. Bu da Azərbaycan dövlətinin öz tarixinə, adət-ənənələrinə yüksək diqqətinin bariz göstəricisidir. Azərbaycanın milli atüstü idman oyununun - çövkənin 2013-cü ildə UNESCO-nun Qeyri-Maddi Mədəni İrsin Reprezentativ Siyahısına salınması böyük uğurlarımızdandır.

Dünya Etnoidman Konfederasiyası 2016-cı ildən etibarən hər il İstanbulda onlarca ölkədən yüz minlərcə ziyarətçinin iştirakı ilə Etnoidman Mədəniyyəti Festivalı təşkil edir. Ənənəvi idman və oyunlar çərçivəsində keçirilən festivalda müxtəlif ölkələr öz mədəni və idman tədbirlərini nümayiş etdirmək imkanı qazanırlar.

Konfederasiyanın dəstəyi ilə Azərbaycanda yaylaq və elat ənənələrinin yaşadılması və təbliği məqsədilə 2019-cu ildə Gədəbəy rayonunda Milli Yaylaq Festivalı keçirilib. Bu festivalın əsas məqsədi Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin, yüz illərlə formalaşmış yaylaq və elat mədəniyyətinin, unikal mədəniyyət nümunələrinin və tarixi abidələrinin nümayiş etdirilməsi və ərazinin turizm potensialının üzə çıxarılmasından ibarət olub.

# Azərbaycan qadını ən yüksək mənəvi keyfiyyətlərin daşıyıcısıdır

Cəmiyyətimizdə qadına göstərilən hörmət, ana adının uca tutulması Azərbaycan xalqının ən yüksək ali və mənəvi keyfiyyətlərindən biridir.

Təsadüfi deyil ki, zəngin tarixi irsimizdə, ədəbiyyatımızda qadınlarımız müdriklik və qəhrəmanlıq mücəssəməsi kimi vəsf olunur. "Kitabi-Dədə Qorqud" boylarının, dahi Nizaminin, Füzulinin əsərlərinin qadın surətləri bu gün də öz məziyyətləri ilə bəşəri ideallara xidmət edir, xalqımızın milli-mənəvi dünyasının nə qədər zəngin olduğunu göstərir.

Çağdaş dövr sivil dünyada qadın fəallığının yüksəlməsi ilə əlamətdardır. Lakin müasir tendensiyalar və yanaşmalar baxımından Azərbaycan cəmiyyətində qadınların rolunun yüksəlməsi ötən əsrin əvvəllərindən başlayır. 1918-ci ildə qurulan Azərbaycan Xalq Cümhuriyyətinin qadınlara seçki hüququ verməsi həm xalqımızın demokratik dəyərlərə bağlılığının, həm də qadınların cəmiyyətdə gedən proseslərdə iştirakının yüksəlməsinin göstəricisi idi.

İradəsi, mərdliyi, saflığı, sədaqəti ilə cəmiyyətimizdə, milli-mənəvi dəyərlərimizin formalaşmasında tarix boyu böyük rol oynamış qadınlarımız bu gün də müstəqil dövlətimizin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında öndədirlər. Dövlətimizin yürütdüyü məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycan qadını yüksək pillələrdə dayanır, ölkə daxilində və beynəlxalq aləmdə böyük nailiyyətlər qazanır, ictimai həyatın bütün sahələrində öz sözünü inamla deyir. Prezident İlham Əliyevin hər il 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarına ünvanladığı təbrik dövlət başçısının zərif cinsdən olan vətəndaşlara diqqətinin və ehtiramının təcəssümüdür. Prezident İlham Əliyev qadınların cəmiyyətdəki roluna və yerinə, onların dövlət idarəçiliyində təmsil olunmalarına, irəli çəkilmələrinə diqqətlə yanaşır.

Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət məmuru, xalqın inanıb səs verdiyi deputatdır. Bu fəallıq Azərbaycan qadınının malik olduğu tarixi ənənələrlə yanaşı, ölkəmizdə həyata keçirilən gender siyasətinin mahiyyətindən, onlara cəmiyyətin tamhüquqlu üzvü kimi bütün imkanlardan bərabər istifadə üçün zəruri şəraitin yaradılmasından irəli gəlir.

Respublikamız həm də qadın hərəkatının inkişaf etdiyi dövlətlərdən biridir. Ölkəmizdə qadın hərəkatının formalaşmasında, Azərbaycan qadınının yüksək dəyərlərə bağlılığının dünyaya tanıdılmasında respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini Mehriban Əliyevanın xidmətləri xüsusi vurğulanmalıdır. Mehriban Əliyeva öz fəaliyyətini cəmiyyətin inkişafına yönəltməklə Azərbaycan qadınının ictimai-siyast fəaliyyətinin yeni səhifəsini açıb. Məhz Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin, xeyriyyəçiliyinin, nəcibliyinin, insanlara qayğısının timsalında bütün dünya Azərbaycan qadınının hansı yüksək mənəvi keyfiyyətlərin daşıyıcısı olduğunu görür.

44 günlük Vətən müharibəsində qazandığımız qələbədə qadınlarımızın rolunu xüsusi qeyd etmək istərdim. Çünki Azərbaycan qadını bu zəfəri təmin edən igid oğulları yetişdirən, xalqımızın tarixdən süzülüb gələn qəhrəmanlıq ənənələrini öz övladlarına aşılayan, onları öz xeyir-duası ilə döyüşə yola salan böyük qüvvədir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Azərbaycan qadını mərdlik və mətanət nümayiş etdirərək, dualarla cəbhəyə göndərib qələbə xəbəri ilə yolunu gözlədiyi və yurdumuzun hər qarışını canından əziz bilən bir nəsil yetişdirmişdir. Dövlətçiliyimizə ən böyük töhfə də, heç şübhəsiz, 44 günlük müqəddəs Vətən müharibəsindəki qəhrəmanlığı və şücaəti əsla yaddaşlardan silinməyəcək bu gənc nəsildir".

Azərbaycan qadını həm də şəhid anasıdır, şəhid bacısıdır, şəhid yoldaşıdır, şəhid övladıdır. Ona görə Azərbaycan qadınının başı hər zaman uca olacaq...

Qadınların cəmiyyətdəki layiqli yeri hər bir dövlətin uğuru hesab olunur. Bu baxımdan respublikamızda bərqərar olan demokratik mühit, həyata keçirilən mükəmməl və mütərəqqi dövlət siyasəti qadınlarımıza öz potensiallarını gerçəkləşdirmək üçün əlverişli imkanlar yaradıb. Bütün bunlardan irəli gələrək Azərbaycan qadını bundan sonra da dövlətimizin inkişafına və cəmiyyətimizin yüksəlişinə özünün layiqli töhfələrini verəcək.

***Könül NURULLAYEVA,***
***Milli Məclisin deputatı***



# Ruhumun əbədi sevdası

## Daxili Qoşunların hərbi qulluqçusu şəhid gizir Mayis Səmədovun xanımı Ruhiyyə Səmədova: "Onun əmanətlərinə sahib çıxıb yarıda qalan arzularını gerçəkləşdirmək üçün yaşayıram"



◆ **Zəriflərin dünyası**

...Yavaş-yavaş axşam düşür, Günəş parlaq şəfəqlərini də götürüb qüruba yaxınlaşır, aləmi zülmətə bürüməyə tələsirdi.

O isə bayaqdan bəri həyətdə dayanaraq baxışlarını ayağının altındakı qapqara torpağa zilləyib sabah səhər yola düşəcəyi səfər barədə düşünür, fikrində nəyi isə götür-qoy edirdi...

Elə bil ürəyinə dammışdı...

Hiss etmişdi ki, bu səfər əvvəlkilərə bənzəməyəcək...

Bir anlıq düşünmüşdü ki, "kim bilir, görəsən, bu səfərin dönüşü olacaqmı?!"

Lakin tez də fikrindən ötən bu nagüman sualları qovaraq gülümsəmiş, qeyri-ixtiyari əyilərək yerdən bir ovuc torpaq götürərək ətrini sinəsinə çəkmiş və şən əhvalla bayaqdan bəri pəncərədən narahatlıqla onu izləyən ömür-gün yoldaşı Ruhiyyənin, övladları Məleykə ilə Süleymanın yanına yollanmışdı...





### "Mən üçrəngli bayrağa sarılıb gələcəm..."

Düz bir ay idi ki, hərbi təlimlərdə idi. Mayis bu gün dönmüşdü onun yolunu intizarla gözləyən ailəsinin yanına...

Bu gün həm də Ruhiyyənin doğum günü idi və elə ad günü tortunu da özü alıb gətirmişdi Mayis... O, adətən, təlimdən qayıdanda yorğun olardı, amma bu dəfə tam fərqli görünürdü. Elə hey deyirgülür, şənlənir, uşaqları ilə zarafatlaşırdı. Lakin nədənsə Ruhiyyənin ürəyinə səbəbini bilmədiyi bir ağırlıq, hüzn çökmüşdü... Heç könlü açılmırdı, elə hey uşaqları ilə deyib-gülən Mayisə baxırdı...

Sonradan həmin zamanı xatırlayanda Ruhiyyə deyirdi ki, "o gün Mayisin alıb gətirdiyi tortun da rəngi yaman tünd idi, heç əməlli-başlı yeyə də bilmədik, hərəmiz bir tikə aldıq, o da boğazımızda düyünləndi..."

Fərqinə varmışdı ki, heç o gün foto da çəkdirməyiblər... Çəkdirsəydilər, bu, ömürlərinin ən xoşbəxt anlarının sonuncu əksi olacaqdı...

Və bir də həmin gün Mayis ona gülə-gülə belə bir söz də demişdi ki, "mən üçrəngli bayrağa sarılıb gələcəm...", amma nə düşünmüşdüsə, sözünün arxasını gətirməmişdi...

Əslində, elə hər şey bu cümlədən əyan olmuşdu ona... Amma cidd-cəhdlə qovmuşdu ürəyinə kölgə salan qara fikirləri...

25 sentyabr 2020-ci il, Vətən müharibəmizin başlamasından iki, Mayisin şəhadətə qovuşmasından 10 gün əvvəl idi...

### Daxili Qoşunların Hərbi Hospitalında tanış olmuşdular

Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının hərbi qulluqçusu, istehkamçı gizir şəhid Mayis Səmədovun həyat yoldaşı Ruhiyyə Səmədovadır "Zəriflərin dünyası"nda...

Ruhiyyə xanım Mayisli günlərinin gah xoş, gah da ağrı-acılı xatirələrindən danışır, lakin fikirləri ardıcıl gəlmir, tez-tez yarıda qırılır... Belə anlarda isə hər şeyi gözlərinin dərinliyində yuva salmış qüssə, kip bağlanmış dodaqlarının sükutu, bəzən isə gözlərindən gilələnərək yanağından süzülən iri yaş damlaları anladır...

Tale onların yollarını Daxili Qoşunların Hərbi Hospitalında çarpazlaşdırmış və bir-birinə düyünləmişdi. Mayislə Ruhiyyə düz 17 il əvvəl, 2005-ci ilin yaz günlərində bu hospitalda tanış olmuşdular. Həmin vaxt Mayis hospitalın terapiya şöbəsində müalicə olunurdu, Ruhiyyə isə yenicə bu şöbədə tibb bacısı kimi fəaliyyətə başlamışdı, təyinatı üzrə xəstələrə qulluq edirdi.

Lakin 20 yaşlı qızın xəbəri yox idi ki, neçə vaxtdır xəstələrin arasında olan bir gənc oğlan oğrun-oğrun ona göz qoyur, könül sirrini açmağa fürsət axtarır. Beləcə qəlb təlatümləri ilə keçən bir müddətdən sonra, nəhayət, sevdasını Ruhiyyəyə açır, onunla həyatını birləşdirmək, evlənmək niyyətini bildirir. Ruhiyyə isə ilk zamanlar onun bu təklifini qəbul etmir, hələ evlənmək barədə düşünmədiyini söyləyir...

Amma Mayisin qıza olan böyük sevgisinin gücü zamanla Ruhiyyənin də könlünə qığılcımlar saçır. Mayis hətta əvvəlcə gözünün ağı-qarası bir qızını qohum, tanış olmayan yad birinə vermək istəməyən Ruhiyyənin ata-anasını da özünəməxsus inadkarlığı, ən əsası isə, Ruhiyyəyə olan tükənməz sevgisi sayəsində razı salır. Beləliklə, 2005-ci ildə hər iki gəncin valideynlərinin xeyir-duası ilə gənclər xoşbəxt ailə həyatı qururlar...

Onlar birlikdə sevincli, kədərli günləri bölüşmək, bir-birinə arxa, dayaq olmaq üçün həyat yolunda qoşa addımlamağa başlayırlar...

### Peşəkar hərbçi

Milliyyətcə ləzgi olan Mayis Şadıbəy oğlu Səmədov 1977-ci il iyulun 28-də Xaçmaz rayonunun Qardaşoba kəndində anadan olub. Mayis əslən Quba rayonunun Küsnət kəndindən olan Şadıbəy Səmədovun və Əzizə Səmədovanın böyüdüb tərbiyə etdiyi dörd övladdan ikincisi idi. Orta təhsilini doğulub boya-başa çatdığı Qardaşoba kənd orta məktəbində alan Mayis 1992-ci ildə həmin təhsil ocağının 9-cu sinfini bitirərək Xaçmaz şəhərindəki 92 saylı texniki-peşə məktəbinə qəbul olunub. 1995-ci ildə təhsilini başa vuraraq elektrik qaynaqçısı ixtisasına yiyələnib. Müddətli həqiqi hərbi xidmətini 1996-1999-cu illərdə Daxili Qoşunların o zaman dislokasiya yeri döyüş bölgəsi - Füzuli rayonu olmuş, hazırda isə Bakıda yerləşən "N" saylı hərbi hissəsində keçib.

Tərxis olunduqdan sonra bir müddət mülki peşə üzrə çalışıb. 2004-cü ilin fevralından etibarən Mayis Daxili Qoşunların Quba rayonundakı "N" saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub, təminat taqımında anbar rəisi vəzifəsinə təyin edilib. Xidmət etdiyi dövrdə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyinin (hazırda Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi) Göygöl rayonu ərazisində təşkil etdiyi istehkamçı ixtisası üzrə kursu müvəffəqiyyətlə bitirib və ona müvafiq sertifikat verilib. Bundan əlavə, Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbində (hazırda Daxili Qoşunların Ali Hərbi Məktəbi) təşkil olunan altıaylıq "Gizir hazırlığı kursu"nu bitirib. "Gizir" hərbi rütbəsində Qubadakı "N" saylı hərbi hissədə bir müddət yenidən anbar rəisi kimi xidmət edən Mayis Səmədov 2011-ci ilin sentyabrından xüsusi təyinatlı dəstədə atıcı-radiotelefonçu vəzifəsini yerinə yetirib.

2012-ci ilin sentyabrından etibarən qoşunların Sumqayıtda yerləşən "N" saylı hərbi hissəsinin xüsusi təyinatlı dəstəsində müxtəlif vəzifələrdə xidmətini davam etdirən cəsur hərbçi 2019-cu ilin martından istehkamçı yarımqrupunda baş istehkamçı-yarımqrup komandiri vəzifəsinə irəli çəkilib. Komandir kimi bilik və bacarığı, qayğıkeşliyi sayəsində rəislərinin etimadını, həmçinin tabeliyində olan şəxsi heyətin hörmətini qazanıb. Yüksək döyüş hazırlığı və nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçu kimi "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 90 illiyi (1918-2008)" yubiley, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə" medalları ilə təltif edilib, eləcə də hərbi hissə komandanlığı tərəfindən dəfələrlə mükafatlandırılıb.

Bununla yanaşı, o, 2017-ci ildə yüksək döyüş hazırlığı və əzmkarlığı sayəsində qazandığı "Zoğalı beret"ini də qürur hissi ilə daşıyıb. Gizir Mayis Səmədov istehkamçı yarımqrupunun komandiri kimi tabeliyində olan şəxsi heyətlə birgə qarşıya qoyulmuş tapşırıqları hər zaman layiqincə yerinə yetirib.



















### Vətən könüllüsü

Ruhiyyə Səmədova deyir ki, Mayis hər zaman hərbi təlimlərdə iştirak edirdi, bəzən olurdu ki, günlərlə evə gəlmirdi. Sonuncu gedişində də o, düşünüb ki, bu dəfə də belə olacaq... Mayis özü isə peşəkar hərbçi duyumu ilə olub-bitənlərin fərqində olub, amma bunu ailəsinə hiss etdirməyib...

- Vətən müharibəsi başlayandan bir gün əvvəl, bir aylıq növbəti təlimindən sonra evə gəldi. Həmin günü mənim ad günüm idi, amma nədənsə üzərimdə bir ağırlıq hiss edirdim. Bəlkə də bu, Mayisin səhəri gün yenidən qayıdıb gedəcəyi, ya da mənə qəribə görünən hərəkətləri, sözləri ilə bağlı idi, bilmirəm... Həyət evində yaşayırıq. Gördüm ki, o, həyətə çıxıb nəsə düşünə-düşünə diqqətlə torpağa baxır. Mən də kənardan onu izləyirdim, amma o, öz hisslərini mənimlə bölüşmürdü, heç birini demirdi. Sadəcə bir dəfə sözarası dedi ki, "mən gələndə üzərimdə üçrəngli bayraq olacaq". Sonra susdu... Konkret bir xəbərdarlıq etmədi ki, "bax, mən gedirəm", "birdən dönmərəm...", bunları ürəyində saxladı, deyə bilmədi...

Bəlkə də pis olacağımızdan qorxdu, düşündü ki, onu yolundan döndərərik. Çünki artıq Mayisin hərbidən tərxis olunmasına, təqaüdə çıxmasına cəmi 7-8 ay qalmışdı, getməyə də bilərdi. Amma o, könüllü Vətənin müdafiəsinə yollanmağı, onun uğrunda canını qurban verməyi seçdi...

Sentyabrın 26-da səhər saat 4 radələrində Mayis xidməti hissəsinə yola düşdü. Bir gün sonra isə televiziyadan müharibənin başlandığını öyrəndim. Həmin vaxt özəl klinikada fizioterapiya şöbəsində tibb bacısı işləyirdim. Artıq hər kəs səfərbər olub, əsgərlərə müəyyən yardımlar göndərirdi. Gücüm çatdığı qədər mən də əsgərlərimizə maddi yardım göndərirdim. Hər ötən gün Azərbaycan Ordusu irəliləyir, işğal altında qalan torpaqlarımızı azad edirdi və buna görə də çox sevinirdim. Amma həm də Mayisdən çox nigaran idim, axı hər şey ola bilərdi...

Müharibə dövründə Mayis sadəcə bir dəfə mənimlə əlaqə saxladı. Bir neçə dəfə isə anası və Süleymanla danışmışdı. Mənə də, onlara da demişdi ki, "məndən nigaran qalmayın. Qələbə bizimdir. Düşmənin layiqli cəzasını verir, onu məhv edirik. Torpaqlarımızı azad edirik..."

### "Başa düşdüm ki, Mayisə nəsə olub..."

Oktyabrın 4-də isə qızı Məleykə yuxuda gördüyü qəribə bir röyanı danışmışdı Ruhiyyəyə. Məleykə yuxuda görmüşdü ki, onların həyətinə xeyli insan yığışıb. Otaqda, qardaşı Süleymanın yatağının üzərində hərbi paltarlı bir şəxs uzanıb. Qız yaxınlaşıb baxanda onun atası olduğunu görüb...

- Artıq ürəyimə damdı ki, nəsə pis bir hadisə olacaq. Axı qız uşaqlarının gördüyü yuxular adətən çin olur. Həmin gün xeyli ağladım... Bir gün sonra, gecə saat 3-də qardaşım mənə zəng vurdu ki, qapını aç, sizə gəlirəm. Artıq baş verəni anladım... Axı qardaşım bu vaxtı bizə niyə gəlsin?! Qapını açanda dedi ki, "Mayis yaralanıb", amma onun rəngi-rufu hər şeyi deyirdi, ağappaq idi sifəti. Anladım ki, Mayisə nəsə olub...

### Son döyüş, əbədi qəhrəmanlıq

2020-ci il oktyabrın 5-i gizir Mayis Səmədovun son döyüş günü olur. Cəsur komandir Cəbrayıl-Füzuli rayonları istiqamətində gedən döyüşlərdə yeddi silahdaşı ilə birgə ön mövqedəki əsgərlərimizə lazımi təminat çatdırmaq üçün gedərkən yolda pusquda dayanan mənfur düşmənin mühasirəsinə düşür. Qəhrəman döyüşçü özünü itirmir və qəflətən baş vermiş döyüşdə onlarca erməni yaraqlısını məhv edir. Lakin bu qeyri-bərabər döyüşdə dəstənin cəsur hərbi qulluqçuları gizir Səmədov Mayis Şadıbəy oğlu və gizir Həsənov Faiq Hüseyn oğlu Müdafiə Nazirliyinin 6 nəfər xüsusi təyinatlısı ilə birgə son damla qanlarınadək vuruşaraq şəhidlik zirvəsinə ucalırlar.

Gizir Mayis Səmədov 2020-ci il oktyabrın 6-da Xaçmaz rayonunun Qardaşoba kənd qəbiristanlığında dəfn olunub.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 dekabr və 22 dekabr tarixli sərəncamları ilə gizir Səmədov Mayis Şadıbəy oğlu (ölümündən sonra) "Vətən uğrunda" və "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif edilib.

Doğulub boya-başa çatdığı Qardaşoba kəndində Mayis Səmədovun adına bulaq açılıb...

### "Elə bil uşaqlara dayaq durmaq üçün Allah mənə güc verdi"

- Mayisdən sonra yaşamaq mənim üçün çox ağır idi. Onun yoxluğu ilə barışa bilmirdim. Elə bil çıxılması mümkün olmayan qaranlıq və dərin bir quyuya düşmüşdüm. Ən dəhşətlisi isə bu iztirablarımı üzdə yaşaya bilməməyim idi, göz yaşımı ürəyimə axıtmağa məcbur idim... Atalarının yoxluğuna görə dəhşətli sarsıntı ilə üzləşmiş övladlarıma bir zərbə də anaları tərəfindən gəlməsini istəmirdim. Hər şey onların gözləri qarşısında baş verirdi. Atalarının dəfni, yas mərasimləri... Bilirsiniz, xüsusilə də yeniyetməlik yaşında olan uşaqlar üçün bu dözülməsi mümkün olmayan əzablar idi... Elə bil uşaqlara dayaq durmaq üçün Allah mənə güc verdi. Mayis də bütün atalar kimi uşaqlarını xoşbəxt, gələcəklərini parlaq görmək istəyirdi. İstəyirdi Süleyman polis, Məleykə isə tərcüməçi olsun. İşdən fürsət tapan kimi, vaxtı az olsa da, özü onlarla məşğul olurdu. Süleymanı güləş üzrə idmana da cəlb etmişdi, çox vaxt özü aparırdı məşqlərə...

Mayis çox ailəcanlı, şən və enerjili bir insan idi. Hər bir işə zaman tapırdı. Bir gün istirahəti olurdu, onda da durub səhər tezdən gedib kənddə anasına baş çəkirdi, atasının məzarını ziyarət edirdi, sonra da gəlib evə bazarlıq edirdi, bizi yığıb aparırdı gəzməyə, axşamüstü saatlarla dəniz sahilində Süleymanla velosiped sürürdü... O, həyat, yaşam dolu bir insan idi...

Elə mən də Mayisin bu xüsusiyyətlərindən örnək götürərək, özümə söz verdim ki, möhkəm olacam, həyatda dik duracam. Mayisin əmanətlərinə sahib çıxıb onun yarıda qalan arzularını gerçəkləşdirmək üçün yaşayacam...

Onu da deyim ki, 2005-ci ildə Mayislə ailə həyatı qurduqdan sonra Daxili Qoşunların Hərbi Hospitalından ehtiyata buraxılmışdım. Çünki onun işi ilə əlaqədar biz müxtəlif bölgələrdə yaşamalı olurduq. Mayis şəhidlik zirvəsinə ucaldıqdan sonra Daxili Qoşunların rəhbərliyi tərəfindən mənə təklif olundu və yenidən hospitalda Fizioterapiya və tibbi bərpa şöbəsində tibb bacısı - baş çavuş kimi çalışmağa başladım.

Daxili Qoşunlarda yenidən işə başlamaqla həm də şəhid gizir Mayis Səmədovun buradakı yolunu davam etdirirəm və arzum da onun kimi gizir olmaqdır...

Şəhid ailəsi kimi hər zaman dövlətimiz, Daxili Qoşunların rəhbərliyi və işlədiyim hərbi hospitalın rəhbərləri tərəfindən diqqət və qayğı görürəm. Hərbi hospitalın kollektivi də hər zaman mənə dayaq və dəstək durur. Bu yaxınlarda isə hospitalın rəisi Şəmsəddin Heydərov tərəfindən "İlin tibb bacısı" adına layiq görülmüşəm, fəxri fərmanla mükafatlandırılmışam...

### Şəhid əmanəti

*O, Mayisi itirməklə təkcə həyat yoldaşını deyil, sevdiyini, dostunu, sirdaşını, ürək həmdəmini itirib...*

*Ürəyi qan ağlayır, könlü qəm içindədir...*

*Amma o, Mayisə, bir şəhidə söz verib...*

*Söz verib ki, heç zaman sınmayacaq, möhkəm dayanacaq - Mayisin amallarını, arzularını yaşatmaq üçün...*

*Bir də Mayisin ona əmanət qoyub getdiyi iki övladını qəhrəman şəhidin şanına layiq, elə öz arzuladığı kimi böyüdüb, boya-başa çatdırmaq naminə...*

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# «Günləri sayıram, yurd-yuvama dönəcəyəm...»

## 30 ilə yaxın məcburi köçkün həyatı yaşayan qadının ürək sözü

O, Şərqi Zəngəzurun əsrarəngiz bölgələrindən olan Zəngilanda dünyaya göz açıb. Rəzdərədən Qıraq Müşlana gəlin köçüb. Hər iki kəndin təbiətinin gözəlliklərini sözlə ifadə etməyə çətinlik çəkir. Yox, söz ehtiyatı "kasıb" deyil, Şövkət xanım sinəsi nağıl-bayatı dolu ağbirçəklərimizdəndir. Sadəcə, onu qəhər boğur. O yerlərdə keçən şən uşaqlığını, xoşbəxt cavanlığını xatırlayır...

Ailə həyatı qurandan sonra bir müddət kənddə yaşamışdılar, qayınatasının tikdiyi gen-bol evdə böyük ailə mehribanlıqla baş-başa vermişdi. Sonra həyat yoldaşı Rafael Abbasovun işi ilə əlaqədar rayon mərkəzində yaşamalı oldular. Hər gün kənddən işə gəlib-getmək çətinlik törədirdi.





Rafael Zəngilan Rayon Mərkəzi Xəstəxanasında baş həkimin təsərrüfat işləri üzrə müavini idi, elə Şövkət də burada çalışırdı. İllər keçdikcə ailə üzvlərinin sayı artdı və hökumət onlara Zəngilan şəhərində ev verdi.

- Namərd düşmənin əli ilə hamısı göyə sovruldu. Kənddəki bağ-bağçalı ev də, rayon mərkəzindəki abad mənzil də..., - deyir Şövkət xanım və susur. Sanki söyləmək istədiklərindən dəhşətlənir. Çünki varlığı vandallıqdan yoğrulmuş yağının viranə qoyduğu təkcə evlər deyildi. İnsanlar pərən-pərən düşmüşdü, arzular, niyyətlər yarımçıq qalmışdı...

- Ailəmizin ilki Təranənin toyuna hazırlaşırdıq. Qız nişanlı idi, lakin rayon mühasirəyə alınandan sonra xeyir iş heç yada da düşmədi. 1993-ün o soyuq payız günlərində Arazı necə adladığımızı xatırlayanda indi də ayaqlarım üşüyür. Digər tərəfdən isə uşaqları həmin keşməkeşlərdən sağ-salamat çıxardığımıza şükür edirəm. Böyük oğlum Daşqın o vaxt Rusiyada Hərbi Akademiyada oxuyurdu. Təhsilini yarımçıq buraxıb geriyə qayıtdı. Elə ondan kiçik qardaşları Seymur, Dönməz və Səbuhinin də təhsilinə, səhhətinə az zərbə vurmadı namərd erməninin amansız işğalçılığı, köçkünlük həyatı, müharibə.., - deyə Şövkət xanım ötən illərə qayıdır.

Məcburi köçkünlük həyatının ilk yarım ayını Biləsuvarda, birinci iki ilini isə Sabirabadda keçirdilər. Uşaqlar Bakıda təhsil almağa başlayanda isə qərara gəldilər ki, bütün ailə bir dam altına yığışsın. Dövlət heç bir məcburi köçkün ailəsini himayəsiz qoymadı və üstəlik, nə yaxşı ki, xalqımızın övladlarının dar gündə bir-birinə dayaq olmağı, əl tutmağı var! Rafael Abbasov vaxtilə Zəngilandakı işi ilə əlaqədar Bakıdakı tibbi texnikanın təmiri baza zavodu ilə sıx əlaqədə çalışmışdı. Buradakı həmkarları onun ailəsinə müəssisənin boş olan otaqlarında sığınacaq verdi... İndi artıq Rafael həyatda yoxdur, 6 il əvvəl Zəngilan həsrətilə dünyadan köçüb və Bakı kəndlərindən birindəki qəbiristanlıqda əbədi uyuyur. Şövkət xanım isə oğullarının ikisinin ailəsi birlikdə elə orada yaşayır. Övladlarının beşi də ailəlidir.

- Yaşadığım bütün çətinliklərə baxmayaraq, çox xoşbəxt anayam, - söyləyir ağbirçək. - Qızım Təranə indi özü anadır. Böyük oğlum Daşqın Rusiyada təhsilini yarımçıq qoyub Vətənin harayına gələndən sonra Birinci Qarabağ müharibəsi əsgərlərinin sırasına qoşuldu. Lakin az sonra onu Bakıya, yarımçıq qalmış hərbi ali təhsini öz respublikamızda tamamlamağa göndərdilər. Hazırda istefada olan polkovnik-leytenantdır. Buna baxmayaraq, 44 günlük Vətən müharibəsinin də döyüşçülərinə qoşuldu və evə yalnız savaş başa çatandan sonra döndü. O biri oğlum Seymur Birinci Qarabağ müharıbəsi əlilidir. Vaxtilə Tərtərdə, Çaykənddə, Ağdərədə vuruşub, ağır yara alıb. Dönməz və Səbuhi də Vətən qarşısında əsgər borcunu vicdanla yerinə yetiriblər. İndi hərəsi öz bacardığı işin qulpundan yapışıb çalışır. Çox sağ olsunlar, heç biri başımı aşağı eləməyib. Mən bütün balalara sağlam, atalı-analı böyüməyi, valideynlərə isə gözüdolusu övladlarının uğurlarını, xoş günlərini görməyi arzu edirəm.

Şövkət xanım bir də özünü ona görə xoşbəxt sayır ki, qismətində doğulub böyüdüyü, ömrünün unudulmaz çağlarını yaşadığı doğma Zəngilanına qovuşmaq var! Və o gün uzaqda deyil! Dəmir yumruğu, müdrik siyasəti, polad iradəsi, ətrafında sıx birləşən xalqın qüdrəti, Azərbaycan əsgərinin rəşadəti ilə düşməni məğlub edən Prezidentimiz İlham Əliyev deyib ki, məcburi köçkünlər çox əziyyət çəkiblər, işğaldan azad etdiyimiz ərazilərdə onlar üçün ən yaxşı şərait yaradılmalıdır. Deyib və dediyini həqiqətə çevirir. Ömrünün 70-ci baharını yaşayan Şövkət Abbasovanın da ürəyi yenidən abadlaşıb cənnətə dönən doğma yurduna, Şərqi Zəngəzura - Zəngilana qayıtmaq arzusu ilə döyünür.

- Övladlarımla birlikdə qayıdacağam yurda. 10 nəvəmin əllərindən tuta-tuta...Hələ bir nəticəm də var... - Bu dəfə gülümsəyir Şövkət xanım. - İnanın ki, günləri sayıram...

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# Şərəfin, şanın ucalığında dayanan varlıq!

...Müqəddəs varlıqlardan biri - zərif, incə məxluq epitetləri ilə obrazlaşdırılmış qadın tarix boyu ulu Yaradanın ən gözəl əsərlərindən sayılıb.

Ana və Vətən!

Bu iki müqəddəs varlıq bir-biri ilə sanki əkiz yaranıb. Peyğəmbərimiz buyurub ki, cənnət anaların ayaqları altındadır! Ana sözünün Vətənlə qoşalaşması hər iki ifadəni bir az da qüvvətləndirib, insanlara sevdirir. Çünki bu zaman Ana Vətən obrazı yaranır.

Ana ailəyə istilik, xeyir-bərəkət gətirir. Ana qardaşa bacı, həyat yoldaşına həyan, simsar, sirdaşdır. Ana yurddaşdır - yurd daşıdır. Pərvazlandırdığı, qanadlandırıb yuvadan uçurduğu balalarının yolunu yurdda, ocaqda daim intizar dolu baxışlarla gözləyəndir. Ana kişinin çiyindaşı, məsləkdaşı, ömür-gün dostu, həyat yoldaşıdır. Ana varlıqlar içərisində hər kəsdən başdadır: baş tacıdır. Ana həm də el-obada ağbirçək - yolgöstərəndir...

### Qadınlar həyatın mənası, bəzəyi və əbədi gözəlliyidir

8 Mart tarixi qadın və gözəllik bayramı kimi qeyd olunur. Lakin tarixə diqqətlə nəzər salsaq, görərik ki, bu bayram heç də romantik hadisələr nəticəsində yaranmayıb. Bu bayramın qeyd olunmasının həm də qədim tarixi var.

Ötən əsrin 90-cı illərindən Azərbaycan qadınları daha müqəddəs bir obraza çevrildilər, səhnədə deyil, həyatda. Qarabağın qanlı-qadalı illərində dəhşətli qırğınlar törədilən, Yer üzündən silinən bir yurda, yaddaşlarda daşlaşan Xocalıya dönüb isti qucağında, qundağında körpəsi boğulan, yurdu dağıdılan, fəryadları qulaqlardan getməyən, diri-diri tonqallara qalanan, balalarına əli yetməyən bir ağbirçək obrazını xatırlatdı analar! Demək olmur ki, əsirlikdə, girovluqda neçə-neçə qız-gəlinlərimiz erməni vandallarının, daşnakların amansız təcavüzünə məruz qaldılar. Namusunu erməni quldurlarından qorumaq üçün qayaların başından özlərini Tərtər çayına atan ana-bacılarımızı unutmaq mümkündürmü?!

Bəşəriyyətin yarıdan çoxunu təşkil edən qadınlar, analar - bu zərif məxluqlar həyatın mənası, bəzəyi və əbədi gözəlliyidir.

### Analar eyni olurlar...

8 Mart - Beynəlxalq Qadınlar Günü ilə bağlı Ümummilli Lider Heydər Əliyevin söylədiyi fikirlər bütün zamanlarda aktualdır: "Bu bayram, doğrudan da, bizim bütün bayramlar içərisində ən gözəl bayramdır. Çünki bu, qadınlara həsr olunubdur. İnsan cəmiyyətində qadının rolu, əhəmiyyəti məlumdur. Qısaca onu demək olar ki, qadınsız həyat yoxdur. Qadınlar cəmiyyətdə, həyatda göstərdikləri bütün başqa xidmətlərlə yanaşı, ona görə ən yüksək qiymətə layiqdirlər ki, onlar anadırlar..."




Qadınların özünəməxsusluqları odur ki, onlar xarakter baxımından bir-birinə bənzəməzlər: zəif olduqları qədər də güclülükləri ilə diqqət çəkirlər. Onları birləşdirən yeganə bir ad var - ANA! Qadınlar fərqli, analar isə eyni olurlar. Onlar istəkləri, arzuları, sevinc və kədərləri ilə bir-birilərinə bənzəyirlər. Bütün analar övlad yolunda hər cür cəfaya hazır olurlar - gözlərinin nurunu, saçlarının qarasını, gecələrin bal yuxularını balalarından əsirgəmirlər. Beşik başından ayrılmayan ana balasının nağıllı-noğullu dünyasını qurur, onu əzizləyir...

### "Qəriblər ağısı oxuyan durna"nın vida nəğməsi

Bu fikirlər illərlə doğma yurduna həsrət qalan bir ananın son pıçıltılarıdır. 2005-ci ildə, "baharın gülşən çağında" bülbüllər cəh-cəh vurub ötəndə bağda biri də ahu-zar içindəydi, adı Güllər, güllərin ən gözəli-göyçəyi. Sinəsində söz cücərdən, simasından nur, qələmindən və qəlbindən lirik duyğulardan daha çox həsrət, hicran, nisgil, intizar, qəm-möhnət süzülən bir ananı deyirəm. Yuxusuz gecələrinin əsəri olan xalı-xalçalarda barmaqlarının izi, dildə-ağızda şirin sözü qalan Güllər Məmmədqızının ilk kitabının adından da görünürdü ki, qəlbinin göylərini qara bulud alıb. Ona görə də gözlərindən ağ yağış sellənərdi "Qəriblər ağısı oxuyan durna"nın - Güllər ananın! Kəlbəcərsizlyə dözə bilmədi: "Orda açıb, burda solan bir güləm" dedi oxucularına, radio dinləyicilərinə...

17 il Göyçə, Qarabağ... Kəlbəcər həsrətini böyütdü dərdli sinəsində. Misralarından boylandı yurd ağrıları. 28 ildən sonra "dəmir yumruq" düşmən başına enəndə, Qarabağı - Şuşası, Kəlbəcəri... azad ediləndə anamın da ruhu o gün sevindi...

### "Qaytar ana borcunu"

Analar balalarına ömür qıyır, quş kimi qol-qanad verib pərvazlandırırlar. Yuvasından qanad açan balalar, təəssüf ki, heç də həmişə bu müqəddəs varlıqların "kirpikləri ilə od götürmələrini" dəyərləndirə bilmirlər.

Bədii əsərlərdə obrazlaşdırılmış belə nümunələr az deyil. S.Rüstəmin "Ana və poçtalyon" şeirinin qəhrəman obrazı olan ananın oğul yolu gözləməkdən gözləri tor gətirmədimi?

Əli Kərimin "Qaytar ana borcunu" şeirində ananın gücü ürəyində onu qınamağa da yetmir. Bircə balasına yalvarır ki, "gümanımı yanıltma..."

### Analar müqəddəsdirlər, həm də Vətənə şəhid oğul verdikləri üçün!

...Ana cəmiyyətdə də öz vacibliyini təsdiqləyən, adilikdən ali kürsülərədək ucalan bir vətəndaş, həm də yaradıcıdır: xalq sənətini yaşadan xalçaçıdır, tikməçidir, əyricidir, toxucudur... Ana müəllimdir, həkimdir, təyyarəçidir, mühəndisdir, nəhayət, şairdir, bəstəkardır, rəssamdır, səhnə xadimidir...

Analar müqəddəsdirlər, həm də Vətənə şəhid oğul verdikləri üçün! Analar zülmə tabedir, düşmən tapdağında qalan, tar-mar edilən yurdu dağıldığına görə! Analar dözümlüdürlər, ağır dərd-sərə, ağrı-acılara sinə gərdikləri üçün! Qarabağ dərdi sinələrində qaynayan analar səbirlidirlər, atalardan fərqli olaraq! Sinələrinə çəkilən bala dağını sevib əzizlədiklərinə görə analar əbədilik qazanıblar!

Kim deyil ki, analar?! Sənət dünyasının sevilənləri sırasında, önündə gedənlərdirlər! O, adidir! O, alimdir, o, diplomatdır! O, Koroğluya Nigar, Qaçaq Nəbiyə Həcərdir, bu gün isə şəhidlərimizin, qazi və Milli Qəhrəmanlarımızın anasıdırlar!..

Analar ölməzdirlər, əbədidirlər - şəhidlik zirvəsini qazanan oğulları kimi!

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# "Sən qadınsan, bacarmazsan" dedilər...

## 55 yaşlı Bakı Metropoliteninin ilk və yeganə qadın maşinisti



Həyatda elə peşələr var ki, yalnız kişilərə aidmiş kimi görünür. Bu cür yanaşmada hardasa bir həqiqət var. Qadın xarakteri, təbiəti etibarilə əks cinsdən çox fərqlənir. Bir də ki, yaradılandan hər varlığın, hər cinsin öz missiyası, funksiyası var. Nə qədər söyləsək ki, eyni hüquqa, eyni gücə sahibik, bu, tam belə deyil. Eyni hüquqa, bərabər haqlara sahib olsaq da, eyni deyilik. Amma istisnalar da var. Müsahibim Günay Həbibli kimi. Artıq iki ildir ki, Azərbaycanın ilk və yeganə qadın metro maşinistidir.





Bu peşə psixoloji və möhkəm iradə, sərt peşə vərdişləri və dözümlülük tələb edir. Qatar mühərriklərinin uğultusuna, dispetçer mərkəzindən gələn fasiləsiz məlumat və xəbərdarlıqlara, yüksək sürətə, ani dəyişikliklər mühitinə uyğunlaşmaq, dözmək və üstəlik, bütün bunları sıradan bir iş kimi görmək heç də hər kəsin işi deyil. O ki qala buna çiyin verən zərif cinsin nümayəndəsi olasan.

Ailənin 4 övladının ilki olan Günay hərbçi və ya polis olmaq istəyib. Tale elə gətirib ki, erkən yaşlarından işləməyə başlayıb. Baba və nənələri Günayın ata-anasının evliliyinə razı olmadıqları üçün bütün qohumları onlarla əlaqəni kəsib. Hətta Günay atasına "İndi sənin heç olmasa bir oğlun olsaydı, həyatının rahatlaşması üçün dəstək olardı" deyildiyini də eşidib. Körpə ürəyilə özünü neçə yol günahlandırıb, ağlayıb, əzab çəkib. Elə buna görə də məktəb illərində yaxşı oxusa da, ali təhsil almağı çox istəsə də, işlədiyinə görə kifayət qədər dərslərilə məşğul ola bilməyib. Sonralar, necə deyərlər, əli çörəyə çatanda Bakı Texniki Kollecinə daxil olub və orada təhsilini uğurla başa vurub. Lakin ali təhsil almaq istəyindən heç vaxt əl çəkməyib və nəhayət, illər sonra bu arzusunu da reallaşdırıb. Hazırda təhsilini Ukrayna Dəmiryol Akademiyasında davam etdirir.

Metrodakı fəaliyyətinə isə 2016-cı ildən Memar Əcəmi stansiyasında qatar bələdçisi kimi başlayıb. Amma bu iş ona çox asan və darıxdırıcı gəlib. Xarakter etibarilə daha çətin, daha məsuliyyətli vəzifənin öhdəsindən gələ biləcəyini düşünüb.

2018-ci ildə "Bakı Metropoliteni" QSC-nin rəsmi internet saytında maşinistlərin işə qəbulu üzrə elan verilir. Amma bu elan əvvəlkilərdən fərqlənib. Bakı Metropoliteninin rəhbərliyi metronun tarixində ilk dəfə qatar maşinistlərinin yeni qayda üzrə seçiləcəyini, hətta bu işdə də, necə deyərlər, gender bərabərliyinin təmin ediləcəyini bildirib.

Günay da müsabiqədə iştirak etmək üçün sənədlərini verir, şərtə görə ərizə yazıb işdən çıxır və hazırlaşmağa başlayır. Ailəsi də daxil olmaqla çoxları onu bu yoldan döndərməyə çalışır. Necə deyərlər, nağdı qoyub nisyənin ardınca getməməyi məsləhət görürlər. "Sən qadınsan, bacarmazsan" deyirlər. Amma o, qərarında qəti idi. Valideynlərindən belə bu sözləri eşitmək Günayı ruhdan salmır. "O an anladım ki, insanı özündən başqa heç kim dərindən tanıya, anlaya bilməz. Heç vaxt kişilərlə müqayisə olunmağı sevməmişəm, bunu iddia da etmirəm. Amma bir işi mən də görə bilərəmsə, niyə də yox. Üstəlik, metro mənə doğma yerdir, bu sahə ilə bağlı texniki biliklərim də var. Özümə deyirdim ki, bu addımı bu gün atmasam, həmişə yerimdə sayacağam və sonradan çox peşman olacağam. Bir də ki, görünür, bu da tale yazısı imiş. Taledən isə qaçmaq olmur", - deyir Günay xanım.

Maşinist vəzifəsinə qəbulla bağlı elan verildikdən sonra 500-dən çox müraciət daxil olur. Onların yarısı əsas tələblərin şərtlərinə uyğun gəlmir. Komissiya tərəfindən ümumi və texniki bilik səviyyəsi, psixoloji durum, dünyagörüşü və maşinist peşəsi ilə bağlı məlumatlılıq qiymətləndirildikdən sonra onlardan yalnız 31 nəfər növbəti seçim turuna keçir. İkinci mərhələdə isə peşəkar mütəxəssislərin psixoloji testindən Günay da daxil olmaqla 22 nəfər keçə bilir. Tibbi yoxlamadan ibarət üçüncü mərhələdən də keçənlər tədris proqramına başlayırlar. Proqramda metropoliten infrastrukturu, hərəkətin təşkili ilə bağlı bütün sistem və avadanlıqlarla tanışlıq, qatarların idarə edilməsi, vəzifə və texniki istismar üzrə təlimatların mənimsənilməsi, təmir prosesinin əsas müddəaları və digər proqram həcmi öz əksini tapmışdı. Hər tədris mərhələsində müdavimlərin biliyi yoxlanılaraq qiymətləndirilirdi. Təlimlər zamanı iştirakçılardan daha ikisi kursu könüllü olaraq tərk edir.

Beləliklə, xeyli xanım müraciət etsə də, onların arasından bütün seçim mərhələlərini yalnız Günay Həbibli yüksək nəticələrlə adlayır və beləliklə, ilk qadın maşinist adını qazanır.

Maşinist kimi işə başlayanda ilk üç ay fəaliyyətinin sınaq müddəti olub. Bu müddətdə bir həftə qatarı əsas maşinist idarə edib, sonradan isə sükana nəzarət Günaya keçib. Sınaq müddəti uğurla bitdikdən sonra, 2019-cu il aprelin 1-də əmri verilib. O gündən idarə etdiyi qatar tamamilə ona həvalə olunub.

Xoşbəxt ailəsi var, bir övlad böyüdür. Gunay xanımdan oğlunun onun peşəsinə münasibətini də soruşduq. Dedi ki, mənim peşəm hər bir uşaq kimi, oğluma da ecazkar, maraqlı gəlir: "Hələ, üstəlik, oğlandır və nəqliyyatı idarə etməyə çox həvəslidir. Amma son zamanlar şikayətləri də çoxalıb. İşdə çox olmağımdan, növbədə qalmağımdan, ona əvvəlki kimi vaxt ayırmamağımdan gileylənir. Böyüdükcə o da anlayacaq ki, bu həyatda ana olmaqdan savayı mənim digər vəzifəm, öhdəliyim, arzularım var. Mən insanlara gərəkli olmağa, öz zəhmətim, bacarığım, gücümlə bu arzuları həyata keçirməyə çalışıram".

Günay xanıma maşinist olduqdan sonra həyatında nəyin və hansı yöndə dəyişdiyini soruşanda cavabı belə oldu: "Maşinist kimi işə başlayandan sonra valideynlərim başda olmaqla qohumlarımın, dostlarımın, iş yoldaşlarımın belə mənə qarşı münasibəti müsbət yöndə dəyişdi. Bu işə düzəlməyimə razı olmayan, məndən inciyən atam belə indi hamının yanında məndən qürurla danışır, "o, mənim qızımdır" deyir..."

Bakının yeraltı dünyasının bir başqa özəlliyi və gözəlliyi var. Sayrışan işıqları, qaynar həyatı, qışıyayı bilinməyən öz mənzərəsi olan, gecəsi gündüzündən seçilməyən Bakı metrosu onu ilk görəni ovsunlayır, öz sehrinə salır və həyatı boyu yaşayacaq bir təəssürat yaradır. Bu yeraltı dünyanın daimi sakinləri olan metro işçiləri, onun yollarına işıq tutan maşinistlər isə bu möcüzədən ayrılmağı ağıllarına belə gətirmirlər. Və bu dünyada hamı ancaq xeyirxah bir iş görür - insanlara xidmət edirlər, onları niyyətlərinə, mənzillərinə çatdırırlar. Qəhrəmanımız Günay Həbibli kimi...

***Ülkər XASPOLADOVA,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***









# Xilaskarlar

## “112”nin xanımları şərəfli və məsuliyyətli işin icraçısıdırlar

*- Alo, alo, 112-dir?*
*- Salam, bəli, buyurun.*
*- Ay xanım, qızımı.., qızımı qurtarın, xahiş edirəm... Qapımız kilidlənib, uşaq içəridə qalıb, ağlamaq səsindən başqa heç nə eşitmirəm. Nə edəcəyimi bilmirəm, ay Allah, kömək ol!..*
*- Xanım, narahat olmayın, sizə kömək edəcəyik, lazım olan yardımı göndərəcəyik. Qızınızı oradan sağlam çıxaracağıq. Ünvanınızı deyin, zəhmət olmasa.*
*- Ünvan?! (titrəyən nəfəs, sükut) Vallah həyəcandan başımı itirmişəm, heç ünvan da yadımda deyil. Hündür binadır, burda market var, ordan dönən kimi bizim evdir...*
*- Xanım, həyəcanlanmayın, təmkinlə fikrinizi cəmləşdirib dəqiq ünvanı deyin ki, sizə dərhal kömək göndərə bilək.*
*- Bir dəqiqə, qoy yadıma salım. Hə, hə tapdım...*















### Ardı-arası kəsilməyən zənglər, operativ cavablandırma

Zənglərin ardı-arası kəsilmir. Telefonların arxasında əyləşən xanımlar isə yorulmadan, təmkinlə, diqqətlə hər zəngi cavablandırır, darda qalana, köməyə ehtiyacı olana operativ yardım göstərirlər. Onların hər saniyəsi, hər dəqiqəsi bu cür zəngləri qəbul edib, nəzakətlə və təcili cavablandırmaqdan ibarətdir.

Fövqəladə Hallar Nazirliyinin “112” qaynar xətt mərkəzindəyik. 24 saat növbəli şəkildə çalışan xanımlardan ibarət heyət özünəməxsusluğu ilə fərqlənir. Onlar bir çox insanın qəhrəmanlarına çevriliblər...

Təhlükə altında qalanların həyatlarının xilas edilməsində, şirin yuxuların, bir sözlə, yaşamın qaldığı yerdən davam etməsində başlıca yardım vasitələrindən biri də qaynar xətlərdir. Onların arasında operativliyi ilə seçilən isə “112”dir. Zəng etmək üçün cihazın olması kifayətdir ki, bu nömrəni daxil edib ən qorxulu vəziyyətdən belə çıxa biləsən.

FHN-nin “112” qaynar telefon xətti Prezident İlham Əliyevin qərarı ilə 2006-cı ildə yaradılıb. Bu xətt fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması üzrə, o cümlədən yanğınsöndürmə, axtarış-xilasetmə, qəza-xilasetmə istiqamətlərində məlumat dəstəyini təmin edən vacib struktur bölmədir.

Qaynar telefon xəttinə respublikanın ərazisindən sabit və mobil telefonlardan, həmçinin telefon-avtomatlarından (taksafonlardan) ödənişsiz zəng etmək olur. Nömrə blok edildikdə, yaxud balans bitdiyi halda belə bu mərkəzə çağrı gedir. Zənglərin qəbulu və cavablandırılması isə fasiləsiz həyata keçirilir.

### Hər zəngə diqqət, hər şəxsə xüsusi qayğı

Böyük dispetçer vəzifəsini icra edən kapitan Həqiqət Hüseynova qeyd edir ki, mərkəzə gün ərzində əsasən 6-7 min zəng daxil olur. Lakin təhlillər göstərir ki, cavablandırılan zənglərin təqribən 15-20 faizi əsaslıdır, 80 faizə qədəri isə əsassız və yalan xarakterlidir: “Amma bəzi vətəndaşlar başa düşmürlər ki, belə qeyri-ciddi yanaşmaları böyük əngəllərə səbəb ola bilər. Onlar anlamalıdırlar ki, xətti məşğul etdikləri hər saniyə insan ömrü üçün qiymətlidir. Ehtiyac olduqda zəng olunmalıdır. “112” qaynar xəttinə zəng etmək hər kəsin haqqıdır”.

Həqiqət xanım onu da bildirir ki, belə davranışlara səbəbkar insanlara qarşı da xüsusi diqqətlə yanaşılır. Bu qəbildən olan zənglər qeydə alınsa da, heç bir halda mərkəz tərəfindən blok edilmir: “Düşünürük ki, əgər bir insan min dəfə yalan məlumatla zəng etmiş olsa, min birinci dəfə özünün və ya yaxınının bizim köməyimizə ehtiyacı ola bilər. Buna görə də hər bir şəxsə xüsusi qayğı ilə yanaşırıq”.

“112” qaynar telefon xəttinə FHN-nin fəaliyyətinə aid olan və olmayan məsələlərlə bağlı zənglər də daxil olur. Bu zaman operatorlar çağrıları aidiyyəti üzrə istiqamətləndirirlər. Əsas fəaliyyətdən kənar zənglər digər qaynar xətlərə düşə bilməyəndə təcili yardım, polislə bağlı məsələlərdə qeydə alınır. Bu zaman çağrılar birbaşa müvafiq sahəyə yönləndirilir.



Zənglərin sayı hava şəraitindən, kütləvi hadisələrdən asılı olaraq dəyişir. Küləkli, yağışlı havalarda vətəndaşlar müxtəlif vəziyyətlərdə qaldıqları zaman bu xəttə üz tuturlar. Xətlərin hamısı məşğul olduğu təqdirdə 1 dəqiqədən artıq gözləyən şəxs olarsa, dərhal əlavə işçi cəlb olunaraq cavablandırılır. Pandemiya qaydalarına görə, hər növbədə dispetçerlərin sayı 10-a qədər müəyyən edilib. Lazım olanda əlavə operatorlar da işə cəlb olunurlar.

Çağrılar daxil olarkən çıxılmaz vəziyyətdə qalan insanlara öz doğmaları kimi yanaşan mərkəzin xanımları işlərinin öhdəsindən məsuliyyətlə gəlirlər. Hər nə qədər müxtəlif hadisələr duyğuları qabartsa da, iş başında soyuqqanlılıq əsas şərtdir. Həqiqət Hüseynova deyir ki, digər önəmli məqamlardan biri isə operativ qərar verməkdir: “Hər saniyə belə qarşı tərəf üçün önəmli olduğundan operatorun anındaca istiqamətləndirmə bacarığı baş verə biləcək faciənin qarşısını ala bilər. Həmçinin telefonun digər tərəfində olan şəxslə ünsiyyət zamanı istifadə ediləcək kəlmələr, danışıq tərzi və hadisəyə yanaşma da məxsusi olmalıdır”.

Bu səbəbdən işçi heyətinin bilik səviyyəsinin, praktik bacarıqlarının artırılıb inkişaf etdirilməsi üçün mütəmadi təlimlər keçirilir. Maarifləndirmə tədbirləri müxtəlif istiqamətlər üzrə olur. Təlimlər zamanı texniki vasitələrdən düzgün və səmərəli istifadə, peşə vərdişlərinin təkmilləşdirilməsi yönündə məlumatlar aşılanır. Onlar xarici dil kurslarına cəlb olunmaqla yanaşı, gərgin iş rejimindəki hallar nəzərə alınaraq psixoloji dəstəklə də təmin edilirlər.

### Xilas olunan hər kəsdən alınan enerji ürəkləri dağa döndərir

2016-cı ildə “112” Çevik Reaksiya İdarəsinin inzibati bölməsində əsaslı təmir-yenidənqurma işləri aparılıb. Yenidənqurmadan sonra idarə ən müasir avadanlıqlarla, yeni nəsil proqram təminatları ilə təchiz olunub.

16 ildir ki, bu sahədə işləyən kapitan Xəyalə Abbasova vurğulayır ki, təmirdən sonra iş şəraiti xeyli yaxşılaşıb: “Yenidənqurmadan sonra zənglərin qəbulu, operativ emalı və yönəldilməsində müasir proqram təminatı olan “K3”dən istifadə edirik. Bu proqram təminatı sadə olsa da, çoxfunksiyalıdır. Qurumlararası informasiya mübadiləsini təmin edən avtomatlaşdırılmış proqramla zənglərin qəbulu, qeydiyyatı və saxlanması həyata keçirilir. Növbəti mərhələdə isə zəngedənin yeri xəritədə qeyd edilir, çağırış ünvanına yaxın olan müvafiq qüvvələr təyin olunur və sistem üzərindən onlar əraziyə cəlb edilirlər”.

Qaynar telefon mərkəzinin zalında digər təəccüblü məqamlardan biri isə quraşdırılan stollardır. İşçilər zalda iş şəraitinin əlverişli olması məqsədilə belə mərkəzlər üçün nəzərdə tutulan xüsusi iş masaları ilə təmin olunublar. Onların özəlliyi ondan ibarətdir ki, işçinin boyuna görə tənzimlənə bilir, bununla da oturaq və ayaqüstü vəziyyətlərdə işləmək imkanı yaradılır. 24 saatlıq iş rejimində sözsüz ki, bu masalar işçilərin yorğunluğunun aradan qaldırılmasına yardımçı olur.

Xəyalə xanım iş müddəti boyunca bir çox maraqlı zənglə də qarşılaşıb: “Ən çox diqqətimi çəkən çağrılardan biri ağaca dırmaşan pişiyin qurtarılması üçün edilən müraciət olub. Novruz bayramı ərəfəsində olduğumuzdan çərşənbələrdə binaların həyətlərində qalanan tonqalları söndürməyimizi istəyən vətəndaşlar da var. Bundan əlavə, ağır, qızğın iş vaxtında xilas etdiyimiz vətəndaşların gülərüzlə təşəkkürü zəhmətimizin əsl qiymətləndirilməsi olur. Sözün əsl mənasında, şərəfli və məsuliyyətli işin icraçılarıyıq. Təbii ki, vətənə və vətəndaşa xidmətdə hər kəs çiyin-çiyinə olmalıdır”.

İkinci Qarabağ müharibəsi zamanı “112” qaynar xəttinin fəaliyyəti olduqca təqdirəlayiq hesab edilib. Belə ki, onlar yalnız baş verən hadisələr, yanğınlar, qəzalar, partlayıcı, təhlükəli əşyaların aşkar edilməsi zamanı yardım göstərməklə deyil, eləcə də əsgərlərin təxliyəsi ilə bağlı proseslərin də həyata keçirilməsində iştirakçı olublar. Hazırda müharibə iştirakçıları, qazilər, şəhid ailələrinin problemlərini diqqət mərkəzində saxlayan mərkəz lazım olan yardımı təmin etməklə öncüllüyünü qoruyur.

Kapitan Maya xanımın isə ən böyük arzusu məhz əynindəki formanı geyinmək olub: “Qaynar xətt yaranandan burada işləyirəm. Bu sahəyə gəlişim təsadüfi olsa da, heç zaman düşünməzdim ki, işimi bu qədər sevərəm. Xilas olunan hər kəsdən aldığım enerji mənim peşəmə olan sevgimi daha da artırır. Bəzən çox gərgin bir vaxtda elə bir zənglə qarşılaşırıq ki, hətta deyərdim, bu, mənim ən böyük stimul mənbəyimə çevrilir. Bunlar təbriklər və təşəkkürlər olur. Düşünürdüm ki, biz insanların ən çətin anlarında onların yadına düşürük. Lakin qarşılaşdığım zənglər fikrimi dəyişdi. Keçən ilin 8 Martında vətəndaşlar sadəcə bizi təbrik etmək üçün məhz 112 nömrəsini yığmışdılar”.

### Hər günün fərqli həyəcanı və maraqlı hekayəsi olur

2020-ci ilin aprel ayından etibarən “112” qaynar telefon xətti vasitəsilə COVID-19 pandemiyasından psixoloji sarsıntı keçirən vətəndaşlara ilkin təcili psixoloji yardım təşkil edilib. Həmin vaxtdan sonra 44 günlük Vətən müharibəsi ilə bağlı psixoloji problemlər yaşayan şəxslərə, o cümlədən qazilər, şəhid ailəsi üzvlərinə də yardım göstərilir.

Mərkəzin psixoloqu leytenant Könül Əliyeva burada şərəfli işini davam etdirdiyinə görə çox məmnundur: “Məlumdur ki, psixoloji dəstəklər əsasən canlı seanslar formasında ehtiyacı olan şəxslərə edilir. Lakin burada bizim yeganə vasitəmiz telefonla olan ünsiyyətdir. Deyəcəyimiz hər söz o qədər dəqiqliklə seçilməlidir ki, ilkin yardıma ehtiyacı olanlar maksimum faydalana bilsinlər və biz onları doğru istiqamətləndirə bilək. Pandemiya dövründə bu sahə yaranan zaman əsasən insanlar qapanmalardan stress yaşayaraq bizə müraciət edirdilər. Daxil olan müraciətlərin çoxluğu uğurumuzun xəbərçisi idi. Hazırda isə daha çox postpandemiya dövründə postdramatik stress pozuntusu simptomları ilə bağlı vətəndaşlarımız yardımlarımızdan faydalanırlar”.

Mərkəzə daxil olan çağrılar sırasında intihar etmək istəyən şəxslərlə də rastlaşmışıq. Bu zaman onlar psixoloqlara yönləndirilərək fikirlərindən daşınmaları üçün ünsiyyətdə saxlanılmaqla paralel şəkildə əraziyə xilasetmə qüvvələri də cəlb edilib. Könül xanım bildirir ki, bəzən törədəcəyi hadisənin astanasında dayanan insanlar zəng edib hansı vəziyyətdə olduqları haqqında da məlumat verirlər.

“112” qaynar telefon xəttinin hər kəs üçün əlçatanlığı məqsədilə imkanlar genişləndirilib. Belə ki, ölkəyə səfər edən turistləri də nəzərə alaraq dünyada istifadə edilən xilasetmə nömrələri sistemə daxil edilib. İlkin olaraq ABŞ və Kanada ərazisinə aid “911” xilasetmə nömrəsinin sistemdə tanıdılması həyata keçirilib. Bu o deməkdir ki, Azərbaycan Respublikası ərazisindən “911” nömrəsinə edilən zəng avtomatik olaraq Fövqəladə Hallar Nazirliyinin “112” qaynar telefon xəttinə yönləndirilir. Bildirilir ki, gələcəkdə zərurət yaranarsa, istənilən digər təcili xilasetmə nömrəsinin də şəbəkədə tanıdılması tənzimlənə bilər.

Mərkəzdə hər günün fərqli həyəcanı fərqli hekayəyə səbəb olur. Hər bir dispetçer, operatorun səbirsizliklə gözlədiyi məqam isə hadisənin nəticəsidir. Onlar qeyd edirlər ki, nəticə uğurla yekunlaşıb, zərərçəkənə lazımi yardım edildikdə daha həvəslə işlərini icra edirlər. Daim vətəndaşa xidmət etməkdən qürur duyurlar.

Xanımlardan ibarət bu çevik kollektivin əməyi ölçüyəgəlməzdir. Məşhur bir deyimdə qeyd olunduğu kimi: “Qadınlar bir araya gələndə onların arasındakı bağlılıq başqa heç nəyə bənzəmir”.

Elə biz də burada “112”nin xanımları arasında olan mehribançılığa, bağlılığa şahidlik etdik. Yaranmş xoş təəssüratlarla qarşıdan gələn bayramlarını təbrik edib mərkəzdən ayrıldıq.

***Aydan XƏLİLOVA,***
***İlham BABAYEV (foto),***
***“Azərbaycan”***

# Torpaqlarımızı azad görmək qürurvericidir

Hələ Birinci Qarabağ savaşının tüğyan etdiyi illərdə əsgər paltarı geymiş qızlarımızla qarşılaşanda qəlbimi qəribə, həm də təzadlı duyğular bürüyürdü.



Qürur hissi keçirirdim ki, bizim belə cəsarətli, kişi qeyrətli qızlarımız var. Ürək göynədən suallarla təkbətək qalıb, acı bir təəssüflə köks ötürürdüm. Axı niyə xain düşmən torpaqlarımıza diş qıcadıb ki, mərd oğullarımız, qeyrətli qızlarımız da silaha sarılsınlar? Məgər insanlar müharibə dəhşətlərini görmək üçün doğulublar?

Hərb sənəti, döyüşçülük qızlara xas olan iş deyil. Axı düşmənlə savaşa qalxmaq, cəng-cidaya çıxmaq ta qədimdən kişi işi sayılıb. Amma xatırlayanda ki, bu torpağın cəsur Tomrisi, Nigarı, Həcəri olub, qızlarımız gözümdə daha da böyüyüb. Ucadan demək istəmişəm: bu qızların hünəri ikiqat qəhrəmanlıqdır.

Gülpəri ilə 1992-ci ildə şəhərimizdəki hərbi hospitalda görüşmüşdük. Milli Ordumuza xas döyüşçü forması geymiş ucaboylu, şux qamətli qız ağır yara almış rota yoldaşlarını hospitala gətirmişdi. Düşmən gülləsinə tuş gəlmiş Ələddinin və Tofiqin vəziyyəti anbaan ağırlaşırdı. Gülpəri çiyninə ağ xalat atıb onların yanından çəkilmir, təlaş içində tibb işçilərinə üz tutur, yaralılara əsl ana, bacı qayğısı göstərirdi. Bu döyüşçü qızın istiqanlılığı, səmimiyyəti, qaynar təbiəti hamının diqqətini çəkirdi.

### “Dəmir yeyənlər” batalyonunun döyüşçüsü

Gülpəri Sərkərovanın ömürnaməsi o qədər də geniş deyil. 1963-cü ildə Qobustan rayonunun Nərimankənd kəndində sadə bir ailədə doğulub. Doğma yurd yerində orta məktəbi bitirdikdən sonra ailəyə kömək etmək üçün işə düzəlib, rayondakı mərkəzi əmanət bankında çalışıb. Cəbhəyə getmək, azğın erməni faşistlərə qarşı döyüşmək ən böyük arzusu olub. Qobustan Rayon Hərbi Komissarlığına bu barədə ərizə ilə müraciət edib. Həmin ilin fevralında Ağdamdakı hərbi hissələrə yardım aparan qobustanlılar arasında Gülpəri də var idi.

Həmyerliləri əsgərlərlə görüşdən sonra geri qayıdanda Gülpəri onlardan ayrıldı, cəbhədə qalıb döyüşmək istədiyini bildirdi. Çox təkid etdilər, “sənin üçün çətin olar” dedilər. İnadından dönmədi. Onu elə həmin gündən Ağdam ərazi özünümüdafiə batalyonuna qəbul etdilər. Batalyon komandiri, igidliyi ilə döyüşçülərə örnək olan, ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüş Şirin Mirzəyevin qayğısını heç vaxt unutmayacaq. Əvvəlcə rabitəçi kimi işə başladı. Amma həmişə ön xəttə can atırdı. Məşq poliqonunda silahdan atəş açır, döyüş texnikasının “dilini” öyrənirdi.

Nəhayət, bu arzusuna da çatdı: alayın motoatıcı batalyonunun döyüşçüsü oldu. Əsasən könüllülərin döyüşdüyü bu batalyonun komandiri Ədalət Zeynalov Ağdamın Qiyaslı kəndində doğulub boya-başa çatmış, Moskvada yaşayıb işləmişdi. Doğma torpaqlara düşmən caynağı uzananda Ağdama qayıtmış, yerli gəncləri başına toplayıb dəstə yaratmışdı. Tezliklə bu dəstənin qəhrəmanlığı dildən-dilə düşdü. “Dəmiryeyənlər” adlandırılan bu batalyonun yenilməz döyüşçüləri Ağdam ətrafında gedən ağır hərbi əməliyyatlarda mərdlik nümunəsi göstərir, yuxarı Qarabağın işğal olunmuş sərhəd kəndlərinin düşməndən təmizlənməsi üçün çarpışırdılar. Gülpəri cəsur oğullarla çiyin-çiyinə döyüşdüyü üçün fəxr edirdi.

Vuruşlar arabir səngiyəndə, səngərlərdən müvəqqəti də olsa, əl-ayaq çəkiləndə, öz dünyası, daxili aləmi, ürək çırpıntıları ilə tək qalanda, görəsən nə düşünürdü bacımız? Yəqin aylarla üzünü görmədiyi anası cəfakeş Şirin xalanı, min əziyyətlə övladlarını böyütmüş Bulud kişini, gözü yolda qalan bacılarını, qardaşlarını xatırlayırdı. Belə anlarda onun ən yaxın həmdəmi odlu-alovlu müharibə həyatının çətin məqamlarını yazdığı cəbhə gündəlikləriydi. Bu qorxmaz qızın ürəyinin qanı ilə yazdığı gündəliklər...

### Cəbhə gündəliklərindən sətirlər

10 may 1992-ci il. Naxçıvanik, Aranzəmin, Pircamal, Ağbulaq kəndləri uğrunda qızğın döyüşlər ara vermir. Texnika bizdə olduğundan batalyonumuz hücum əməliyyatının önündə gedir. Qanlı döyüşlər nəticəsində həmin kəndləri düşmən caynağından bir-bir geri alırıq. Ədalət, Rəsul, Rafiq, Şakir, Tofiq... xüsusi igidlik göstərdilər. Düşmənin bir döyüş maşınını, bir topunu qənimət, erməni kəşfiyyatçısını əsir götürdük. Lakin tanklarımızdan biri minaya düşdü. Aslan biləkli qardaşımız Şakir Sadıqov şəhid oldu. Bu, bizim rotanın ilk şəhidi idi. Heyif ki, həmin kəndləri uzun müddət əldə saxlaya bilmədik. Axı müharibənin ağır qanunları var...

15 may 1992-ci il. Ermənilər Abdal Gülablı kəndinə hücum edəndə də rotamız hünər göstərdi. Hücumun dəf olunmasında əsgərlərimiz xüsusilə fərqləndilər.

12-16 iyun 1992-ci il. Sırxavənd-Kiçan əməliyyatı başlananda Kiçan kəndinədək itkisiz irəlilədik. Sırxavəndi alıb Kiçana girdik. Ağdərə ilə Vəng kəndi arasındakı yeganə yolu kəsib orada mövqelərimizi möhkəmləndirdik. Təəssüf ki, ermənilər mövqelərimizi bombaladılar və biz mühasirəyə düşdük. Lakin düşmənə təslim olmadıq və döyüşə-döyüşə mühasirəni yarıb Qazançı yolu ilə meşədən çıxdıq. İki gün sonra isə yoldaşlarımla bu yerlərə kəşfiyyata gedərək düşmənin döyüş mövqelərinin koordinatlarını müəyyənləşdirdik.

### Qadın torpağına yiyə durarsa...

Gülpəri 1992-ci ilin avqustundan alayın kəşfiyyat rotasında kəşfiyyatçı olub. O, Papravənd kəndinin müdafiəsində də fədakarlıq göstərib.

Manuklu kəndində vurulmuş helikopterimizin ekipajının milliyyətcə rus olan üzvlərinin cəsədlərinin düşməndən alınmasında Gülpərinin müstəsna xidməti olmuşdu. Canyataq, Gülyataq, Mehmanə kəndlərinin, Fərrux dağının düşməndən təmizlənməsində də Gülpərigilin dəstəsi öndə vuruşmuşdular. Erməni ekspedisiya korpusu strateji cəhətdən əhəmiyyətli olan bu ərazidən geri çəkilmək istəmirdi. Gülpəri həmin döyüşləri belə xatırlayırdı: “1992-ci il avqustun 21-22-də davam edən qanlı döyüşlər, ölüm-dirim mübarizəsi bəhrəsini verdi, Gülyataq, Canyataq və Mehmanə kəndləri erməni işğalçılarından təmizləndi. Fərrux dağını və digər yüksəklikləri də ələ keçirdik. Uğurlu əməliyyat isə qurbansız olmur. İgid döyüşçümüz Rəsul Allahverdiyev minaya düşüb ağır yaralandı, həkimlər onu xilas edə bilmədilər. Rəsul Ağdamın Qiyaslı kəndindən idi. Orta məktəbi bitirdikdən sonra Rusiyada yaşamışdı. Vətənin fəlakətinə dözməyib silaha sarılmışdı. Doğma torpağından ötrü də şəhid oldu. Rəsul kimi oğulların intiqamı hökmən alınmalıydı!”

Gülpəri sözünə ara verdi, dərindən köks ötürərək:

- Bilirsiniz, ürəyimin ağrısını sizinlə bölüşürəm, - dedi. - Başıbəlalı Qarabağ torpağına nər oğullarımızın qanı axıb. Tökülən qanları bir yerə toplasan, böyük bir göl yaranar. Payızda Ağdama da gur yağışlar yağırdı. Yüksəkliklərə, meşələrə axıdılmış şəhid qanları güclü leysandan sonra yağışla yuyulub sızaraq arxlara, gölməçələrə tökülmüşdü. Analar suyu çəhrayı rəngə bürünmüş arxların başında saç yolur, ağı deyirdilər. Sözün əsl mənasında, yer-göy qan ağlayırdı. Bu müdhiş mənzərəni görən kəs silahı yerə qoya bilərdimi?

❖ ❖ ❖

Atəşkəsdən sonrakı illərdə Gülpəri Sərkərova Neft Daşlarında çalışdı. Elə bəxtini, taleyini də burada tapdı. Özü kimi cəfakeş, əməksevər bir insanla ailə quraraq dünyaya iki övlad gətirdi. Axı Yer üzünün bütün uşaqlarının müharibəsiz, dinc həyatda yaşaması Gülpərinin ən böyük istəyi idi.

***P.S:*** *Elimizin cəsur qızı Gülpəri Sərkərova ilə bu günlərdə - 8 Mart Qadınlar Günü ərəfəsində görüşdüm. 44 günlük Zəfər savaşımızın bizə bəxş etdiyi qələbə sevincini yaşayanlardan biri kimi hisslərini, duyğularını gizlətmədi. Dedi ki, “müdrik sərkərdəmizin qətiyyəti, əsgər və zabitlərimizin hünəri və xalqımızın müzəffər ordumuza arxa-dayaq olması sayəsində azğın düşmənə həddini göstərmək və 30 il işğal altında qalan torpaqlarımızı əsarətdən qurtarmaq mümkün oldu. Bu üzdən çox xoşbəxtəm, uğrunda savaşdığım Ağdamı və digər yurd yerlərimizi azad görmək, doğrudan da, olduqca qürurvericidir”.*

***Zemfira MƏHƏRRƏMLİ,***
***Əməkdar jurnalist***

# Ombudsman işğal dövründə Ermənistan tərəfindən dağıdılmış qəbiristanlıqlarla bağlı hesabat hazırlayıb

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Birinci və İkinci Qarabağ müharibələri dövründə Ermənistanın törətdiyi müharibə cinayətləri, beynəlxalq hüquq, beynəlxalq humanitar hüquq normalarının pozulması faktları barədə dünya ictimaiyyətini məlumatlandırmaqda davam edir. Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Səbinə Əliyeva işğal dövründə Ermənistan tərəfindən dağıdılmış və təhqir edilmiş qəbiristanlıqlarla bağlı hesabat hazırlayıb.

S.Əliyeva növbəti hesabatını həyata keçirdiyi faktaraşdırıcı missiya çərçivəsində əldə etdiyi müvafiq dəlil, sübut və materiallar əsasında hazırlayıb.

Bu hesabat işğal dövründə azərbaycanlılara məxsus qəbiristanlıqların Ermənistan tərəfindən kütləvi şəkildə və qəsdən dağıdılması, qəbirlərin və ölülərin təhqir edilməsi, qəbirüstü abidələrin talan edilməsi, habelə məzarları ziyarət edəcək insanlar arasında ölüm hallarının baş verməsi məqsədilə ərazinin minalanması və digər əyani faktları özündə əks etdirir.

Hesabatda beynəlxalq hüquq, o cümlədən beynəlxalq humanitar hüquq normalarının kobudcasına pozulması, müharibə cinayətləri törədilməsinə görə Ermənistanın hüquqi məsuliyyətə cəlb edilməsi istiqamətində ciddi tədbirlərin görülməsi üçün beynəlxalq təşkilatlara çağırış edilib.

Hesabat beynəlxalq təşkilatlara, xarici ölkələrin ombudsmanlarına, habelə insan hüquqlarının müdafiəsi və təbliği ilə məşğul olan digər beynəlxalq qurumlara göndərilib.

# Azərbaycanın Polşadakı səfirliyi Ukraynadakı vəziyyətlə bağlı soydaşlarımıza müraciət edib

Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova Ukraynada yaranmış vəziyyətlə bağlı soydaşlarımıza müraciət edib.



AZƏRTAC bildirir ki, müraciətdə Polşa ərazisinə keçmiş Azərbaycan vətəndaşları üçün səfirlik tərəfindən mümkün dəstək göstərildiyi qeyd edilib. N.Qurbanova diqqətə çatdırıb ki, ilkin məlumata əsasən, Ukraynadan Polşa ərazisinə təqribən 1000 nəfər vətəndaşımız keçib. 300 nəfər vətəndaşımız səfirlik tərəfindən mehmanxanalara yerləşdirilib və bu məqsədlə iritutumlu avtobuslar kirayə götürülüb: "Qeyd etmək istərdik ki, bir çox vətəndaşımızın səyahət sənədlərində problem vardır. Həmin vətəndaşlara qayıdış şəhadətnamələrinin əldə edilməsi üçün konsulluq xidməti göstərilmişdir".

Eyni zamanda bildirilib ki, obyektiv səbəblərdən hazırda mehmanxanalarda yerlərin sayında ciddi məhdudiyyətlər mövcuddur. Bu səbəbdən Polşanın icra qurumları tərəfindən təşkil edilmiş müvəqqəti sığınacaq yerlərində yerləşdirilmiş vətəndaşlarımızdan xahiş olunur ki, təxliyə olunanadək həmin yerlərdə qalsınlar və yerləşmə ünvanı, pasportlarının fotoşəkli və əlaqə məlumatlarını səfirliyin 0048576900183 telefon nömrəsinə bağlı olan vatsap tətbiqinə göndərsinlər: "Hazırda Azərbaycana təxliyə reysinin təşkili üzərində çalışırıq. Təxliyə səfirlikdə tərtib edilmiş siyahıya müvafiq olaraq həyata keçiriləcək. Növbəlilik əsasında, ilk olaraq qadınlara, uşaqlı valideynlərə, yaşlılara və tələbələrə üstünlük veriləcək. Təxliyə barədə məlumat vətəndaşlarımızın telefon nömrələrinə göndəriləcək. Müvafiq məlumat gəldikdən sonra vətəndaşlarımızdan səfirliyin təlimatına uyğun şəkildə hərəkət etmələri xahiş edilir".

Yekunda imkanı olan vətəndaşlarımızdan xahiş olunub ki, Polşadan Türkiyə və Gürcüstan üzərindən Azərbaycana hərəkət edən təyyarə reyslərindən istifadə etsinlər. Polşada Türk Hava Yolları və LOT şirkətləri gündəlik əsasda Varşavadan İstanbula, LOT şirkəti, həmçinin Tbilisiyə, "Wizzair" şirkəti isə həftədə 3 dəfə Kutaisiyə uçuşlar həyata keçirir.

# Ötən dövrdə banklar tərəfindən 1300-dək özünüməşğulluq proqramı iştirakçısına aktivlər verilib

Prezident İlham Əliyevin təşəbbüsü ilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində icra olunan "Özünüməşğulluğa dəstək layihəsi" davam edir.




Nazirliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, ötən il layihənin yeni mərhələsi kimi daha 500 özünüməşğulluq proqramı iştirakçısına banklar tərəfindən aktivlər verilməsinə başlanılıb. Artıq onlardan 300 nəfərinə seçdikləri sahələr üzrə mal və materiallar təqdim edilib.

Uğurlu sosial tərəfdaşlıq və korporativ sosial məsuliyyət nümunələrindən olan, 21 bankın qoşulduğu layihə özünüməşğulluq proqramının genişləndirilməsinə mühüm dəstəkdir.

Ümumilikdə ötən dövrdə banklar tərəfindən "Özünüməşğulluğa dəstək layihəsi" üzrə 1300-dək özünüməşğulluq proqramı iştirakçısına aktivlər verilməklə kiçik biznesləri yaradılıb.

Aktivlərlə təmin edilən həmin şəxslərin böyük hissəsi şəhid ailəsi üzvləri və Vətən müharibəsi iştirakçılarıdır.

# Baş planı təsdiq olunmuş şəhərlərdə minalardan təmizlənmə prosesi sürətlə gedir

Müharibə qan-qada, ölüm-itim deməkdir. Başa çatandan sonra da onun fəsadlarını aradan qaldırmaq tez və asan başa gəlmir. Bunun üçün tərəflərin tutduqları mövqedən çox şey asılıdır. Əsas problem isə işğaldan azad edilmiş ərazilərdə tank və piyadalar əleyhinə vaxtilə basdırılan minaların zərərsizləşdirilməsində mühüm məsələ olan xəritələrin əldə olunmamasıdır.









44 günlük Vətən müharibəsində öz tarixi torpaqlarını təcavüzkar Ermənistanın 30 illik işğalından azad edən Azərbaycan dərhal Qarabağda dinc quruculuq, bərpa və yenidənqurma işlərinə start verdi. Qısa vaxt ərzində xeyli ərazi partladılmamış hərbi sursat və minalardan təmizləndi. Bu məqsədlər üçün böyük vəsaitlər ayrıldı. Özəl şirkətlərə, fermerlərə təlimat verildi və azad edilmiş torpaqlarda vaxt itirmədən əkin işlərinə başlanıldı.

Azərbaycan Prezidenti İlham Əliyevin 12 yanvar 2022-ci il tarixdə yerli televiziya kanallarına müsahibəsində qeyd edildiyi kimi, dağlıq ərazilərdə, xüsusilə Kəlbəcər, Laçın, Zəngilan rayonlarında vaxtilə bitkiçiliklə məşğul olunmayıb. Orada üzümçülük, tütünçülük, heyvandarlıq inkişaf etmişdi. Ermənilər isə həmin ərazilərdə işğal dövründə 100 min hektarda taxıl əkib, təqribən 100 min tona yaxın buğda əldə ediblər. Mütəxəssislərin fikrincə, əgər işğaldan azad edilmiş mövcud torpaqlarda taxılçılıq üçün yararlı sayılan yerlərdə əkin aparılsa, indiki məhsuldarlıqla təqribən 200 min tona yaxın buğda götürmək mümkündür.

Bunun üçün də kiçik fermer təsərrüfatlarına kömək göstərilir. Subsidiyalar və metodik tövsiyələr verilir. Başqa ölkələrdə taxılçılıq üçün məqbul sayılan münbit torpaqları icarəyə götürüb, orada məhsul yetişdirmək və Azərbaycana gətirmək işinin də təşkili istisna olunmur. Bununla belə ölkəmizdə, o cümlədən kənd təsərrüfatında aparılan islahatların, işğaldan azad edilmiş torpaqların yararlı hala gətirilməsinin iqtisadi və biznes mühitinin yaxşılaşdırılmasına xidmət edəcəyi proqnozlaşdırılan vacib məsələlərdəndir.

Təəssüf ki, işğaldan azad edilmiş ərazilərdən maksimum istifadə etmək hələ imkan xaricindədir. Bunun da əsas səbəbi təcavüzkar Ermənistanın müharibədən sonra da tutduğu qeyri-konstruktiv mövqeyi nəticəsində "mina xəritələri"nin əldə olunmamasıdır. Minalanmış ərazilərin tezliklə təmizlənməsi prosesi ləng gedir, hətta yeni-yeni qurbanlar da veririk.

Müharibədən sonrakı bərpa-yenidənqurma işləri üçün bir çox planlar həyata keçirilib. Beynəlxalq donorların dəstəyindən istifadə olunub. Azərbaycan öz resurslarına güvənib. Təbii ki, burada təkcə maliyyə resurslarından söhbət getmir.

Azərbaycan Prezidentinin yerli televiziya kanallarına müsahibəsində qeyd etdiyi kimi, həmin ərazilərdə keçən il çox böyük proqram icra edilməyə başlanıb. Proqramın özəlliyi ondadır ki, ölkəmiz heç kimdən yardım istəmədən və almadan öz vəsaiti hesabına bunları həyata keçirir.

İşğaldan azad edilmiş ərazilərdə ilk növbədə minalardan təmizləmə işləri aparılmalıdır: "Bu sahədə həm ANAMA, həm Müdafiə Nazirliyi fəal işləyirlər, eyni zamanda Fövqəladə Hallar Nazirliyi. Bu proses gedir. Əfsuslar olsun ki, bu günə qədər biz insanları itiririk. Müharibədən sonra 200-ə yaxın Azərbaycan vətəndaşı - mülki və hərbi vətəndaş ya həlak olub, ya da ki, ciddi yaralanıb. Ona görə bu işləri görmədən biz genişmiqyaslı qayıdış proqramına başlaya bilmərik. Ona görə mina təmizləməklə bağlı ilk növbədə infrastrukturun keçdiyi yerlər diqqət mərkəzində idi, yəni elektrik xətləri, yollar. O sahələr təmizlənməli idi ki, artıq biz bu işlərə başlaya bilək. Digər tərəfdən baş planı hazır olan şəhərlərin də minalardan təmizlənməsi prosesi sürətlə gedir, xüsusilə Şuşa və Ağdam şəhərlərində bu proses sürətlə gedir..."

Azərbaycan Prezidenti növbəti dəfə bu məsələyə toxunarkən bir daha bildirdi ki, azad edilmiş torpaqlarda minatəmizləmə işləri birinci dərəcəli vəzifədir. Ona görə də işğaldan azad edilmiş ərazilərdə bu vəzifə icra olunmadan hər hansı bir inkişafdan söhbət gedə bilməz. İlk növbədə baş planı hazırlanmış şəhərlərin ərazisi minalardan təmizlənməlidir: "...Hətta hazırda yolların, dəmir yolunun çəkilişi ilə bağlı işləri də biz ancaq istehkamçılar o əraziləri minalardan təmizləyəndən sonra görə bilirik. Odur ki, orada istənilən fəallıq, istənilən inkişaf minalardan təmizləmə işindən asılıdır. Ona görə biz həm sürəti artırmalıyıq, eyni zamanda minalardan təmizləmə işi elə aparılmalıdır ki, yenə də deyirəm, o işlər başa çatandan sonra hər hansı bir təhlükə olmasın... Biz keçmiş köçkünləri tezliklə öz doğma torpaqlarına qaytarmalıyıq. Ancaq hər kəs bilməlidir ki, birinci dərəcəli məsələ minalardan təmizləmədir. Dəyən ziyanın qiymətləndirilməsi, infrastruktur layihələrinin icrası, evlərin tikilməsi, iş yerlərinin yaradılması - əgər bu işlər görülməsə, insanlar gedib o torpaqlarda necə yaşaya bilərlər? Gərək ev-eşiyi, şəraiti, suyu, elektriki, yolu, məktəbi, xəstəxanası olsun. Bu, böyük, genişmiqyaslı bir işdir..."

Azad olunmuş ərazilərdə Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin Türkiyənin hərbi istehkamçıları ilə birgə fəaliyyəti nəticəsində 2021-ci il dekabrın 10-dan 19-dək 53 ədəd piyada və tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib. 92 hektara qədər ərazi təmizlənib.

Ümumilikdə azad olunmuş ərazilərdə ötən ilin sonunadək mühəndis qoşunları tərəfindən 17255 mina və partlamamış döyüş sursatı aşkar olunaraq məhv edilib, 13365 hektar ərazi minalardan təmizlənib, digər dövlət qurumları ilə qarşılıqlı əlaqədə 635 kilometr yol çəkilib.

Yeri gəlmişkən, 2020-ci ildə, yəni 44 günlük Vətən müharibəsində nəinki işğaldan azad edilən Azərbaycan torpaqlarında, ümumiyyətlə, dünyada 10 mindən çox insan mina və partlamamış hərbi sursatların qurbanına çevrilib.

Minalar Əleyhinə Azərbaycan Kampaniyası təşkilatının rəhbəri Hafiz Səfixanov azad olunmuş torpaqların minalardan təmizlənməsi müddətinə dair dəqiq rəqəmin deyilməsinin hazırda mümkün olmadığı qənaətindədir: "İşğaldan azad olunmuş ərazi çox böyükdür, minalarla və partlamamış hərbi sursatlarla çirklənmə səviyyəsi həddindən artıqdır. Bundan başqa, ən əsas amil - bu ərazilərdə hələ ki, heç bir təhqiqat aparılmayıb. Ona görə də hal-hazırda müddət bildirmək mümkün deyil".

Yuqoslaviyanın dağılmasından sonra öz ərazisinin bütövlüyü uğrunda müharibə aparmış Xorvatiyada ərazilərin minalardan təmizlənməsi 20 ilə başa gəlib, Mozambikdə analoji iş 23 ilə görülüb. Ukraynalı hərbi ekspert Mixail Jiroxova görə, "minalardan təmizləmə işinə sərf olunan vaxt müharibənin davam etdiyi müddətdən təxminən 5 dəfə çox olur".

Bu mənada Qarabağda hərbi əməliyyatların getdiyi ərazilərin mina və partlamamış hərbi sursatlardan təmizlənməsi müddəti xeyli çəkə bilər. Nəzərə almaq lazımdır ki, Azərbaycanla Ermənistan arasında Qarabağ müharibəsi, əslində, 30 ilə yaxın davam edib.

Hərbi əməliyyatlar başa çatdıqdan sonra minatəmizləmə ilə məşğul olan Azərbaycan müharibədən öncəki təmas xətti boyu və işğalda qalan ərazilərdəki minalanmış ərazilərin xəritəsini Ermənistandan tələb edib. Dövlət başçısının sözlərinə görə, burada ən böyük çətinlik ondan ibarətdir ki, Ermənistan tərəfi bizə mina xəritələrini vermir, bundan imtina edir. Halbuki biz dəqiq bilirik ki, onlarda belə xəritələr var. Ermənistan isə onda belə bir xəritənin olmasını nə təsdiq, nə də təkzib edir.

Kəlbəcərdə minada ikisi jurnalist olmaqla, 3 nəfərin ötən ilin yayında həlak olması ilə bağlı respublikanın baş prokuroru Kamran Əliyev BMT, Avropa Şurası da daxil olmaqla, beynəlxalq təşkilatlara, o cümlədən "Amnesty International" və "Human Rights Watch" insan haqları təşkilatlarına müraciət edərək, Ermənistan silahlı qüvvələrini Azərbaycan ərazilərini minalamaqla humanitar normaları və prinsipləri pozmaqda günahlandırıb.

Avropa Şurasının İnsan Haqları Komissarı Dunja Mijatoviçin bu hadisə ilə bağlı "Tviter" hesabında yaydığı bəyanatda deyilir: "Kəlbəcərdə mina partlaması nəticəsində ikisi jurnalist olmaqla 3 nəfərin həlak olması, bir neçə nəfərin yaralanması göstərdi ki, Dağlıq Qarabağ münaqişəsindən təsirlənmiş ərazilərin beynəlxalq əməkdaşlıq vasitəsilə minalardan təmizlənməsinə təcili ehtiyac var..."

Qardaş Türkiyənin bu sahədə ölkəmizə yardımına gəlincə, burada da Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" müdrik kəlamının əsl həqiqəti ifadə etməsini görürük. Mina və partlayıcı qurğuların zərərsizləşdirilməsi üzrə Türkiyənin hərbi istehkamçılarının ilk qrupu Azərbaycana 2020-ci il noyabrın 30-da, yəni müharibə başa çatdıqdan 20 gün sonra göndərilib. Qrup Azərbaycan Ordusuna işğaldan azad edilmiş ərazilərin minalardan təmizlənməsində kömək göstərməyə başlayıb.

Qardaş Türkiyə Azərbaycana ötən ilin fevralında 20, may ayında isə əlavə 5 ədəd "MEMMAT" (Mexaniki Mina Təmizləmə Təchizatı) mina təmizləyən maşın göndərib.

Azərbaycan Ordusunun Mühəndis Qoşunları İdarəsinin rəisi general-mayor Anar Kərimovun sözlərinə görə, bu texnikanın üstünlüyü ondan ibarətdir ki, 500 metr məsafədən idarə olunur və artıq onun işlədiyi əraziyə insanın girməsinə ehtiyac qalmır. Partlayış da baş verərsə, insan faktoru kənarda qalmış olur.

Bunlardan əlavə, Türkiyə Milli Müdafiə Nazirliyi həmçinin Azərbaycan Fövqəladə Hallar Nazirliyinə 10 xüsusi təlim keçmiş minaaxtaran it hədiyyə edib. Azərbaycan kinoloqları Türkiyədə mina axtarışı və təmizlənməsi təlimləri keçib.

Ötən il ADA Universitetində Beynəlxalq Mina Xəbərdarlığı və Mina Aksiyasına Yardım Günü ilə əlaqədar keçirilən brifinqdə BMT İnkişaf Proqramının rezident nümayəndəsinin müşaviri Çaru Bist deyib ki, qurbanların hər 4 nəfərindən biri uşaqlardır: "Ona görə də ölkələr bunu əhəmiyyətli məsələ kimi nəzərə almalıdırlar. Minalar mürəkkəb ərazilərdədir. Biz Azərbaycanla bu cür əməkdaşlığı görürük. Azərbaycanla beynəlxalq təşkilatlar arasında əməkdaşlığın qurulması mühüm nailiyyətlər əldə etməyə imkan verir. Mina və partlamamış sursatlar təmizlənmədən heç bir cəmiyyət dayanıqlı inkişafa nail ola bilməz".

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

# Buğda istehsalında yüksək məhsuldarlığa nail olmalıyıq

Ölkəmizdə aqrar sektor dinamik inkişaf edir. Bu da aparılan məqsədyönlü islahatlar və sahəyə verilən dövlət dəstəyi sayəsində mümkün olub. Hazırda kənd təsərrüfatında istehsal olunan məhsullar daxili tələbatın ödənilməsində önəmli rol oynayır. Üstəlik, yerli istehsalın artması sayəsində idxal azalıb və ixrac artıb.

Bu gün ölkəmiz mal ətinə tələbatının 90, qoyun ətinə tələbatının 100 faizini yerli istehsal hesabına təmin edir. Süd və süd məhsulları ilə 80, toyuq əti ilə təminat isə 80 faizə çatıb. Bununla yanaşı, son 15 ildə meyvə və üzüm istehsalı 2 dəfə artıb.

Dövlət Statistika Komitəsinin verdiyi məlumata görə, ötən il üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 9 milyard 163,4 milyon manat təşkil edib ki, bunun da 4 milyard 652,4 milyon manatı heyvandarlıq, 4 milyard 511 milyon manatı bitkiçilik məhsullarının payına düşür. 2020-ci illə müqayisədə kənd təsərrüfatının istehsalı 3,4, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,8 və bitkiçilik məhsulları üzrə 4 faiz artıb.

Statistik rəqəmlərdən aydın görünür ki, ötən il ölkəmizdə aqrar sektorda məhsul istehsalında müəyyən uğurlarımız olub. Bir sıra kənd təsərrüfatı məhsullarının istehsalı ilə daxili tələbatı əsasən ödəmək iqtidarındayıq. Ən çox istehlak edilən buğdada isə hələ idxaldan asılılıq yüksəkdir. Dünya bazarında qiyməti ən çox artan məhsul da məhz buğdadır. Yeri gəlmişkən qeyd edək ki, Rusiya-Ukrayna müharibəsi dünyada yenidən buğdanın qiymətinin artmasına səbəb ola bilər. Ona görə ki, Ukrayna dünya bazarına ən çox taxıl ixrac edən ölkələrdəndir. Əgər müharibə uzun sürərsə, bu ölkənin özü buğda idxal etmək məcburiyyətində qalar. Belə olan halda onsuz da baha olan buğdanın qiyməti bir qədər də artacaq.

Azərbaycanda buğda istehsalında məhsuldarlığın artmasına xüsusi diqqət yetirilir. Taxılçılıqla məşğul olan fermerlərə hər cür dəstək verilir. Onlara güzəştli şərtlərlə yüksək məhsuldar toxum, gübrə və texnika verilir. Hətta rayon mərkəzindən uzaqda yerləşən ərazilərdəki fermerlərə gübrə birbaşa əkin sahələrində çatdırılır.

Məlumdur ki, taxıl əsas ərzaq məhsulu olmaqla bərabər həm də heyvandarlıq və quşçuluğun inkişafında önəmli yem bazası rolunu oynayır. Deməli, taxılçılığın inkişafı əhalinin mal, qoyun və quş əti ilə təminatına da imkan yaradır. Bu üzdən taxılçılıq ölkənin ərzaq təhlükəsizliyinin əsas təminatçısıdır. Odur ki, bu sahənin inkişafı üçün davamlı tədbirlər görülür.

Prezident İlham Əliyev tərəfindən 2016-cı il dekabrın 6-da imzalanan fərman taxılçılığın inkişafında önəmli rol oynadı. Həmin fərmanla buğda istehsalında əkin sahələrini genişləndirmədən məhsuldarlığın və keyfiyyətin artırılması nəzərdə tutulub. Bu sənədlə həmçinin aqrar sahədə çalışan elm adamlarının üzərində müəyyən öhdəliklər qoyulub. Əsas məqsəd dünyada istifadə olunan "az sahədən yüksək məhsul əldə etmək" prinsipinə nail olmaqdır.

Kənd Təsərrüfatı Nazirliyinin müvafiq qurumlarının mütəxəssislərinin vaxtaşırı taxılçılıqla məşğul olan fermerlərlə görüşməsi də bununla bağlıdır. Bu il martın 2-də Əkinçilik Elmi-Tədqiqat İnstitutunun əməkdaşları bölgədə çalışan fermerlərlə görüşüblər. Onlar taxıl yetişənə qədər hər mərhələdə hansı işlərin görülməsi barədə fermerlərə ətraflı məlumat veriblər. Hədəf dövlət başçısının dediyi kimi, taxılçılıqda məhsuldarlığı 40-45 sentnerə yüksəltməkdir. Belə olarsa, biz taxıl idxalını minimum səviyyəyə endirməklə ərzaq təhlükəsizliyimizi təmin edərik.

44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra taxılçılığı inkişaf etdirmək üçün əlavə imkanlar qazanmışıq. Belə ki, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında məhsuldar torpaq sahələrində taxıl əkməklə buğda istehsalını artıra bilərik.

Ölkəmizdə un məmulatlarından sonra ən çox istehlak edilən məhsullardan biri də düyüdür. Bu üzdən çəltikçiliyin inkişafı da ərzaq təhlükəsizliyində önəmli rol oynayır. Prezident İlham Əliyevin çəltikçiliyin inkişafı ilə bağlı müvafiq sərəncamından sonra fermerlərdə bu sahəyə maraq artıb. Belə ki, çəltikçiliklə məşğul olan kəndlilərə müəyyən güzəştlər edilməklə yanaşı, onlar müasir texnikalarla da təmin edilir.

Beləliklə, kənd təsərrüfatında ənənəvi sahə olan çəktikçiliyi yenidən inkişaf etdirməklə əhalinin düyüyə olan tələbatının daxili istehsal hesabına ödənilməsi istiqamətində bir sıra addımlar atılır. Bu məqsədlə ölkəmiz həmin sahə üzrə ixtisaslaşan beynəlxalq, regional və milli qurumlarla əməkdaşlığı genişləndirir.

Məlumdur ki, Malayziya düyü istehsalında yüksək nailiyyətlər əldə edən ölkədir. Malayziyalıların zəngin təcrübəsini öyrənmək məqsədilə bizim Əkinçilik Elmi-Tədqiqat İnstitutu ilə onların Kənd Təsərrüfatı Tədqiqat və İnkişaf İnstitutu arasında əməkdaşlıq əlaqələri qurulub. Bu yaxınlarda həmin institutun alimləri yerli mütəxəssislərlə birlikdə Lənkəranda olublar. Malayziyalı mütəxəssislər yerli fermerlərə öz təcrübələri barədə məlumat veriblər. Fermerlərə sertifikatlı yüksək məhsuldar toxumlardan istifadə etməyi məsləhət görüblər. Bu yolla az əkin sahəsindən yüksək məhsul götürməyin mümkün olduğunu bir daha vurğulayıblar.



***Rüstəm KAMAL,***
***"Azərbaycan"***



# Xeyirxah əməlləri ilə xatırlanan milyonçu

2022-ci ilin ilk mühüm mədəniyyət hadisələrindən biri Bakının mərkəzində məşhur mesenat Hacı Zeynalabdin Tağıyevin heykəlinin açılışı oldu. Paytaxtın tarixi yerlərindən birində, "İstiqlaliyyət" küçəsində, "İçərişəhər" metrostansiyasının qarşısındakı meydanda qərar tutan bu heykəl xalqımızın, dövlətimizin, ölkə rəhbərliyinin böyük şəxsiyyətlərimizə yüksək sevgi və ehtiramının ifadəsidir.

Xatırladaq ki, Hacı Zeynalabdin Tağıyevin heykəli Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə ucaldılıb. Bürüncdən hazırlanmış heykəlin müəllifi tanınmış heykəltaraş, Azərbaycanın xalq rəssamı Xanlar Əhmədovdur.

Bu gün Bakının ən görkəmli yerlərindən birində adı hər zaman xeyirli əməlləri ilə xatırlanan Hacı Zeynalabdin Tağıyevin abidəsinin ucalması bir daha göstərir ki, onun vaxtilə etdiyi yaxşılıqlar heç zaman unudulmur. Azərbaycan Prezidenti heykəlin açılışı mərasimindəki çıxışı zamanı dedi: "Mən Zeynalabdin Tağıyevin şəxsiyyətinə həmişə böyük hörmətlə yanaşmışam. Hələ 2000-ci illərin əvvəllərində, - mən hələ Prezident deyildim, - onun qəbrinin yerləşdiyi Pirhəsən ziyarətgahı mənim təşəbbüsümlə abadlaşdırıldı və qəbrin ətrafında olan ərazi yeni görkəm aldı. Prezident seçiləndən sonra dərhal mənim təşəbbüsümlə onun evi, hazırda Tarix muzeyinin binası əsaslı təmir edildi, həm onun yaşadığı evin bir hissəsi muzey kimi qaldı, eyni zamanda Tarix muzeyində bizim tariximizin müxtəlif dövrlərini əhatə edən eksponatlar nümayiş etdirilir. Bu gün mən çox şadam ki, Zeynalabdin Tağıyevin abidəsi Bakıda ucaldılıb. O, buna layiq idi. Azərbaycan xalqı qarşısında, tarix qarşısında, millət qarşısında xidməti olan hər bir insanı Azərbaycan xalqı öz qəlbində yaşadır".

## Bənna şagirdi

Hacı Zeynalabdin Tağıyev XIX əsrin sonlarına doğru Azərbaycanda yenicə təşəkkül tapmaqda olan milli burjuaziyanın ən görkəmli nümayəndələrindən biri, Rusiyada və bütün müsəlman aləmində tanınmış sərmayədar idi. O, bəzi mənbələrə görə, 1821-ci, bəzi mənbələrdə isə 1823-cü ilin 25 yanvarında içərişəhərli başmaqçı Tağının ailəsində anadan olmuşdu. Uşaq ikən anası Anaxanım dünyadan vaxtsız köçmüş və atası ikinci dəfə ailə qurmuşdu. Bu izdivacdan beş qızı dünyaya gəlmişdi. Yeddi nəfərlik külfət çox kasıb dolanırdı. Ona görə də evin yeganə oğul övladı hələ uşaq yaşlarından işləyib ailəsinə kömək göstərməyə can atırdı. Atası ona da başmaqçı sənətini öyrədib şagird kimi əlinin altında işlətmək istəyirdi. Qonşuları isə Zeynalabdinin zirək, gözüaçıq bir uşaq olduğunu nəzərə alıb, onu baqqal dükanında işləməyə çağırırdı. Amma Zeynalabdin bənna olmağa qərar vermişdi. Bu həvəsini görən Tağı kişi övladını bənna yanında şagird qoydu. O gündən Zeynalabdin hər gün, təxminən 12 saat çanaqla palçıq daşıyır, ustaya kömək göstərir və günə 6 qəpik qazanırdı.

Palçıqdaşıyan işindən az qazansa da, onda bu peşəyə həvəs hədsiz böyük idi. Anlayırdı ki, bənnalıq sənətinə yiyələnmək üçün belə işlərdən başlamalıdır. Ona görə də ustasının buyruqlarını canla-başla yerinə yetirirdi. Beləliklə, gənc Zeynalabdin 15 yaşında daşyonan, 18 yaşında bənna, sonra isə memar-podratçı oldu. Şəhərdə təzə binalar ucaltmağa başladı. Tezliklə tanınıb, böyük hörmət qazandı. Xeyriyyəçiliyi ilə də ad çıxardı. Şəhər Dumasına üzv seçildi.

## Neft milyonçusu

1873-cü ildə Bakıda hələ neft bumu başlamamışdı. Amma neft sənayesi tədricən inkişaf edirdi. Belə bir zamanda Hacı Zeynalabdin Tağıyev iki nəfər şəriki ilə Bibiheybətdə icarəyə neft yeri götürür. Lazımi avadanlıqlar alır. Usta və fəhlələr tutur. Buruq qurdurub, quyu qazdırmağa başlayır. İlk vaxtlar ərazidə işlər o qədər də yaxşı getmir. Şərikləri isə ümidlərini itirib torpaq sahəsinin öz paylarına düşən hissəsinə müştəri axtarırdılar. Axırda Zeynalabdin onların da pulunu verib həmin yerin yeganə sahibi olur. Müflisləşmək ehtimalı isə daha da güclənir. Amma o, yenə ümidini üzmür.

Ən ağır günlərin birində neft quyusu gözlənilmədən fontan vurur. Başmaqçı Tağının oğlu Zeynalabdin neft milyonçusuna çevrilir. Onda Azərbaycanda sənaye sürətlə inkişaf etdiyindən Bakıda və Azərbaycanın başqa mərkəzi şəhərlərində çoxlu banklar yaranırdı. Belə banklardan biri də Hacı Zeynalabdin Tağıyevin sədrliyi ilə təşkil edilmiş "Tacirlər bankı" idi. 1884-cü ildə Bakıda neft sənayeçilərinin syezdi təsis edildi. Bu, Rusiyada iri burjuaziyaya aid ilk təşkilatlardan idi. Bu qurum kitabxanalar, məktəblər, xəstəxanalar, əczaxanalar açırdı. Hacı da bu təşkilatın fəxri sədri seçilmişdi.

1887-ci ildə o, beş nəfər xarici sərmayədarla birgə şirkət yaradır. Bakıda konka yolu çəkməyə başlayırlar. Bundan bir il əvvəl isə Hacı öz xərci ilə şəhərdə yanğın deposu düzəltdirir. Çünki o illərin neft Bakısında tez-tez yanğınlar olurdu. Belə depoların yaradılması çox vacib idi. O dövrdə Bakıda bir-birindən gözəl binaların inşa olunması neft milyonçuları arasında yarışa çevrilmişdi.

O dövrdə Bakıdakı ticarət evləri arasında Hacı Zeynalabdin Tağıyevin pasajı xüsusi yer tuturdu. Şəhərin mərkəzində yerləşən bu pasajda hər növ hazır paltarlar satardılar. Hacı 1895-ci ildə Mərdəkanda bağbanlar məktəbi açmışdı. Təcrübə pöhrəlikləri yaratmışdı. O, Suraxanıdan Mərdəkana şose yolu çəkdirmişdi.

XIX əsrin axırında Hacı Zeynalabdin Tağıyevin məsləhətilə neft daşıyan gəmilərin sahibləri birləşib şirkət yaratdılar. XX əsrin əvvəlində isə "Kür-Xəzər" gəmiçilik və aksioner cəmiyyətinin əsasını qoydular. Məqsəd sərnişin və yük daşımalarını həyata keçirmək idi. Gəmilər Xəzər dənizindəki bütün limanlarda, Volqa çayında, Kürçayında üzəcəkdi. Tağıyevin özünün də xeyli sayda ticarət, yük və sərnişin gəmiləri vardı. Az sonra Hacı Zeynalabdin Tağıyev şəhərdən Bibiheybət mədənlərinə şose yolu çəkdirib, yolu ziyarətgaha qədər uzatdırdı. Şəhərin mərkəzində indi Azərbaycan Tarixi Muzeyi yerləşən əzəmətli sarayı tikdirdi.

Tağıyev neftxuda olmaqla yanaşı, həm dəyirmanların, yük və ticarət gəmilərinin sahibi, həm fabrikant, həm balıq sənayeçisi idi. Bankədəki kürü zavodundan Rusiya və Avropaya kürü ixrac edilirdi. Qubada, Yevlax ətrafında böyük meşələr, əkin sahələri saldırmışdı. Ənzəli və Rəşt ərazisində də meşələri, malikanəsi, binaları və nümayəndəliyi, başqa şəhərlərdə, o cümlədən İstanbulda və Moskvada dördmərtəbəli iri sarayı, İranda karvansaraları vardı.

## Mesenat

Özünün uşaq ikən təhsil almaq imkanı olmasa da, Hacı Zeynalabdin Tağıyev təhsilin ölkənin tərəqqisində oynadığı rolu yaxşı dərk edirdi. Övladlarının təhsilinə xüsusi diqqət yetirirdi. O, qızları Sara və Leylanı Peterburqa, Smolnı Qızlar İnstitutuna oxumağa göndərmişdi.

Bakıda qızlar üçün məktəbin yaradılması onun ən böyük arzularından idi. Hələ III Aleksandr sağ olanda Tağıyev ona ərizə yazıb, müsəlman qızlarının öz ana dillərində oxumaları üçün Bakıda məktəb açmağa icazə istəmişdi. Amma bu xahiş rədd edilmişdi. O, vəfat edəndən sonra II Nikolayın tacqoyma mərasimində Hacı bir senatorun vasitəçiliyi ilə Nikolayın həyat yoldaşı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyə çatdırır. Bakıda qız məktəbi açmaq barədə təkrar xahişnamə göndərir və rica edir ki, rus-müsəlman qız məktəbinə çariça Aleksandra Fyodorovnanın adı verilsin. Eyni zamanda qız məktəbinin xərcini ödəmək üçün banka 150.000 manat qoyur. Hökumət qız məktəbinin açılmasına icazə verir. Hacı məktəb üçün Bakının mərkəzində - indi AMEA-nın Əlyazmalar İnstitutunun yerləşdiyi son dərəcə gözəl binanı tikdirir. Hər şey hazır olanda bu dəfə də Bakıdakı qaragüruh düşüncəli insanların təzyiqləri başlanır. Tağıyev onları da yola gətirməkdən ötrü olmazın əziyyətlər çəkir. Nəhayət, məktəbin açılması mümkün olur.

Birinci il məktəbə 58 qız qəbul edilir. Onlardan 35 nəfəri kasıb ailələrdən idi. Bu uşaqlar məktəbdə təhsil haqqından azad edilmişdilər. Onların bütün geyim və yemək-içmək xərclərini Tağıyev ödəyirdi. Məktəbdə dərslər 1901-ci il sentyabrın 7-də başlanır. İki gün sonra isə məktəbin açılışı münasibətilə bayram mərasimi keçirilir. Rusiyanın müxtəlif şəhərlərindən təbrik teleqramları daxil olur.

Bu, müsəlman aləmində qızlar üçün ilk dünyəvi məktəb idi. Ömər Faiq Nemanzadə əsrin əvvəlində Bakıya gələndə bu qız məktəbini görüb heyrətlənmişdi. Belə qaranlıq mühitdə bu məktəb ağlasığmaz bir möcüzəyə oxşayırdı. O, bu barədə məqalə yazıb Türkiyəyə "Sərvəti fünun" jurnalına göndərmiş, məqalə bütün islam aləmində böyük səs-küy yaratmışdı.

Hacı Zeynalabdin Tağıyevin təhsil sahəsində gördüyü işlər təkcə məktəblərin yaradılması ilə bitmirdi. O, istedadlı gəncləri təhsil almaq üçün Rusiya və Avropanın nüfuzlu ali məktəblərinə göndərmişdi. Bu gənclərin çoxu təhsillərini başa vurandan sonra vətənə qayıdaraq Azərbaycan tarixində böyük rol oynamağa başladılar. Görkəmli ictimai-siyasi xadim Əziz Məmmədkərim oğlu Əliyev də onlardan idi. Hacı Zeynalabdin Tağıyevin heykəlinin açılış mərasimindəki nitqi zamanı Prezident İlham Əliyev bu məqamı da böyük qədirbilənliklə yada saldı: "Əziz Əliyev qədim Azərbaycan torpağı olan İrəvan xanlığı ərazisində doğulmuşdur. O da Tağıyev kimi kasıb ailədən idi, oxumaq istəyirdi. Tağıyevə məktub yazmışdı, xahiş etmişdi ki, ona maddi kömək göstərilsin. Tağıyev də onu təbii ki, tanımırdı, sadəcə olaraq, bir gəncin təhsilə olan belə marağını nəzərə alaraq ona pul göndərmişdir və Əziz Əliyev bu pul hesabına o vaxt Sankt-Peterburq Hərbi Tibb Akademiyasında oxumuşdur. Hesab edirəm ki, bu hadisə onun gələcək taleyində həlledici rol oynamışdır. Çünki o həm gözəl həkim, eyni zamanda böyük dövlət xadimi olmuşdur".

## Ziyalılara kömək

Məşhur mesenat Azərbaycan ziyalılarına maddi yardım göstərir, onların əsərlərinin çapına dəstək verirdi. Seyid Əzim Şirvaninin oğlu Seyid Cəfər yazırdı: "Hacı Zeynalabdin Tağıyev atamın ilk külliyyatını öz xərcinə Bakıda çap etdirmək istədi, senzor və ruhanilər bu işə mane oldu. Tehrana göndərdi, daş üsulla çap etdirdi... Məhəmməd Hadinin ilk kitabı "Firdövsüilhamat"ı da öz xərcinə "Kaspi" mətbəəsində çap etdirmişdi".

Böyük vətənpərvər şair Mirzə Ələkbər Sabirin yaradıcılıq fəaliyyətinə də Hacı Zeynalabdin köməyini əsirgəməmişdi. Sabirin maddi vəziyyəti ağırlaşanda Bakıya gəlib Soltan Məcid Qənizadənin köməyi ilə Hacı Zeynalabdin Tağıyevin Balaxanıdakı məktəbində müəllimliyə təyin edilmişdi. 1902-ci il Şamaxı zəlzələsində yurdsuz qalan adamlara da Hacı yardımını əsirgəməmişdi.

Azərbaycan mədəniyyətinin inkişafında da Tağıyevin böyük xidmətləri var. Onda Bakı inkişaf edir, şəhər ziyalılarının mənəvi ehtiyacına uyğun olaraq burada teatr binaları, kino salonları, klublar, mədəniyyət evləri də artırdı. Azərbaycanda ilk milli teatr binasını Hacı Zeynalabdin Tağıyev 1883-cü ildə tikdirmişdi.

Tağıyev millətlər arasında fərq qoymadan maarif və mədəniyyət, bütün xeyriyyə işlərinə çox dəyərli xidmət göstərib, külli miqdarda pul xərclədiyinə görə ona həqiqi dövlət müşaviri ali rütbəsi verilmişdi. Bu rütbə general, kontradmiral, bir də oberprokuror rütbələrinə bərabər idi. Böyük imtiyazlar yaradırdı. Hacı Zeynalabdin Tağıyev isə bu imtiyazlardan öz şəxsi məqsədləri üçün deyil, xalqımızın mənəvi tərəqqisi naminə istifadə edirdi.

Onun "Quran-Kərimi" tərcümə etdirməsinin də maraqlı tarixçəsi var. Tağıyev ilk dəfə belə bir təşəbbüslə çıxış edəndə qaragüruhçu mollalar buna etirazlarını bildirirdilər. Deyirdilər ki, Quranı ancaq ərəbcə oxuyarlar, kəlam ilahidir, onu tərcümə etməyə heç kəsin haqqı yoxdur və heç kəs onun mənasını dərk edib çevirə bilməz. Onda Hacı Zeynalabdin Tağıyev qazi Mirməhəmməd Kərimi Bağdada göndərib rəsmi sənədlər gətirir. Həmin sənəddə islam aləminin mötəbər söz sahibləri təsdiqləyirdilər ki, Quranı tərcümə etmək olar. Bu, etirazların qarşısını alır. Tağıyev Leypsiqdən ərəb şriftləri gətirdib Quranın Azərbaycan dilində tərcüməsini çap etdirir. Tərcüməçi qazi Mirməhəmməd Kərim idi.

## Davam edən ənənələr

Bakıya Şollar suyunun çəkilməsi layihəsinin, milli mətbuat tariximizdə xüsusi yer tutan qəzet və jurnalların maliyyələşdirilməsi də Hacı Zeynalabdin Tağıyevin ömürlüyünün parlaq məqamlarındandır. Onun gördüyü işlər Azərbaycanda xeyriyyəçilik ənənələrinin formalaşmasında çox mühüm rol oynayıb. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyeva xeyir əməlləri ilə bu gün ölkəmizdə və dünyada Azərbaycan xeyriyyəçiliyinin yeni tarixini yaradır. Təsadüfi deyil ki, Hacı Zeynalabdin Tağıyevin heykəlinin ucaldılmasında da Heydər Əliyev Fondunun böyük əməyi olub. Abidənin önündə Heydər Əliyev Fondu tərəfindən Azərbaycan və ingilis dillərində hazırlanan müvafiq məlumat lövhəsi də quraşdırılıb.

Hacı Zeynalabdin Tağıyevin heykəli bir simvoldur. Heykəl bizə ömrün mənasını xatırladır. Bu, xeyirli əməllər üçün yaşamaq, xeyirli əməllərlə xatırlanmaqdır.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***




# Yel çərşənbəsi



Xalqımızın milli bayramları onun ənənəvi mədəniyyətinin elementlərindən hesab olunur. İnsanların inancını əks etdirən bayramlar, el şənlikləri canlı tarix nümunələridir. Novruz da xalqımızın dünyagörüşünü, mifoloji düşüncəsini, adət-ənənələrini özündə ehtiva edən bayramlardandır. Novruz inanclarının əsasında dayanan insana, təbiətə həyat verən dörd ünsürdən biri də yeldir. Yel çərşənbəsi "Külək oyadan çərşənbə", "Küləkli çərşənbə" və "Yelli çərşənbə" kimi də tanınır.

"Yel" istər şifahi xalq ədəbiyyatında, istərsə də yazılı ədəbiyyatımızda müxtəlif simvolik anlamlarda işlənərək mifik dünyagörüşünü özündə əks etdirmişdir. Kainatın yaradılmasında əsas yer tutan dörd ünsürdən biri olan "yel" fərqli mənalarda üzə çıxır, müxtəlif mifik qatları özündə əks etdirir. Müxtəlif xalqların mifoloji təsəvvürlərinə, tarixlərinə nəzər saldıqda görərik ki, "yel" ünsürü bir çox canlının, xüsusilə atın törəyişində özünəməxsus rol oynamışdır. Bu baxımdan şifahi xalq ədəbiyyatının örnəkləri olan nağıllarda, dastanlarda "Yel atları", "Yel qanadlı atlar"ın adının keçməsi təsadüfi hal deyildir.

Folklor nümunələrindən olan mövsüm nəğmələri içərisində yel haqqında bədii nümunələrə rast gəlinir. Bu nümunələrdə əsasən mifoloji qat özünü göstərir. Azərbaycan mifologiyasında bir çox tanrı və bu tanrılara həsr olunmuş ritual nəğmələr mövcuddur. Bunlardan biri də "Yel baba" nəğməsidir:

A Yel baba, Yel baba,
Tez gəl, baba, gəl, baba.
Sovur bizim xırmanı
Dən toplanıb dağ olsun
Yel babamız sağ olsun.

Əkin-biçin zamanı oxunan bu nəğmədə antopomorfikləşdirilmiş Yel baba obrazı və onun tərifənməsi ön planda tutulur.

Təsəvvüf ədəbiyyatında "Səba" adı ilə verilən, ruhani aləmdən əsən külək Allahdan kamil insanların qəlbinə dolan ruhani nəfəsdir ki, bəşərin öz əslinə qovuşmasına vasitəçi olur.

Quranda isə yelin Allah tərəfindən göndərildiyi qeyd edilir. Quranda küləklər müjdəçi adlandırılır. "Nəml" surəsinin 63-cü ayəsində oxuyuruq: "Qurunun və dənizin qaranlıqlarında sizə doğru yol göstərən, küləkləri Öz mərhəməti önündə müjdəçi kimi göndərən kimdir? Məgər Allaha yanaşı başqa bir tanrımı var?! Allah Ona şərik qoşduqlarından ucadır!"

Əski inamlarda Yel Tanrı kimi qəbul edilir, yaxud hər hansı bir missiyanı yerinə yetirmək üçün dünyanı idarə edən qüvvə tərəfindən göndərilən bir güc kimi göstərilir. O, köməkedici, cəzalandırıcı funksiyaya sahibdir. Qədim etiqadlardan qaynaqlanan mənbələrdə "qara nəhr"də yatmış dörd cür külək - ağ yel, qara yel, xəzri, gilavar Yer üzünə çıxır. Hərəsinin də öz donu olur. Bu donların rəngləri də mifik dünyagörüşündən qaynaqlanır. Ağ yel - ağ libasda, qara yel - qara libasda, xəzri - göy libasda, gilavar - qırmızı libasda təsvir edilir.

Azərbaycan mifik təfəkküründə yel yol göstərən, bələdçi funksiyasını yerinə yetirir. Yel baba yolunu azan insanların qarşısına çıxır, onlara yolu tapmaqda köməkçi olur. O, azanlara yumaq ip verərək bu vasitə ilə onları düz yola çıxarır.

İp yumağın səridi,
Təri zəhmət təridi,
Havaya isti gəldi,
Suyun buzu əridi.

Yel bir varlıq kimi götürülür, ilahi qüvvənin iradəsinin ifadəsi kimi çıxış edir. Bu səbəbdən də Yel babanın şərəfinə xüsusi mərasimlər, ayinlər keçirilir. Bu mərasim dörd ilahi başlanğıcdan üçüncüsü olan Yel çərşənbəsində icra olunur. Yellə bağlı nəğmələr, bayatılar söylənilər. Yel baba köməyə çağırılar.

Əcdadlarımız inanmışlar ki, Yel baba xırmana gəlməmişdən qabaq oradan taxıl bitkiləri götürməzlər. Belə inanc var ki, sovurulandan sonra ilk buğda götürənin oğlu olar. Buna əsaslanaraq deyə bilərik ki, əski inanclarda Yel baba rabitə yaradan vasitə hesab edilirdi. Ən maraqlı rituallardan biri isə qızların küləyə "ərə getmə" mərasimidir. Taxıl döyümü vaxtı boğanaq, qalxarsa, qızlar "Boğanaq, gəlmə, sənə gedəcəyəm" deyirlər.

Yel çərşənbəsi günü digər çərşənbələrdə olduğu kimi, tonqallar qalanır, süfrələr bəzənir. Evlərdə plov, əsasən də südlü plov, bulğur aşı bişirilir. Süfrəyə dənli bitkilərdən hazırlanmış çərəzlərdən, quru meyvələrdən və şirniyyatlardan ibarət xonçalar qoyulur. Evlərdə təmizlik işlərinə başlanır, səməni cücərdilir, bəzi evlərdə isə azca boy atmış səməninin belinə qırmızı qurşaq bağlanır. Bu ərəfədən başlayaraq bayram üçün yeni geyimlər alınır. Yel çərşənbəsində xüsusi ayinlər də icra olunur; Yel çərşənbəsində söyüd ağacının altından keçərlər ki, niyyətin qəbul olsun. Yel çərşənbəsində Yel dağına ziyarətə gedərlər.

Xalq arasında yellə bağlı inanclar üstünlük təşkil edir. Bəzi bölgələrdə külək bərk əsərkən evin ilk övladı sonbeşik uşaqla canamazı (namaz qılınan parça) əncir ağacına bağlayaraq söyləyir:

Mən anamın ilkiyəm,
Ağzı qara tülküyəm,
Xəzri yat, gilavar yat...
Külək, sürmə at,
Gəl, ələkdə, yat!

Bu şeir parçası bəzi bölgələrdə son misraları dəyişməklə dolunun dayandırılması üçün də oxunur. Yel çərşənbəsində isə yel əsmədikdə "Külək çağırdı" mərasimini icra edirlər.

Ulularımızın inancına görə, Yel çərşənbəsində vədə küləkləri Xızır Nəbinin əmri ilə məhəbbət qanadına çevrilərək ürəkdən-ürəyə əsərək sevgini aləmə yayır. Məhz bu səbəbdən də oğlanlar bu çərşənbədə qız seçməyə çıxarlarmış. İnama görə, bu gecə Xızır Nəbi sevgililərə "Abikövsər" suyu içirib buta verir. "Ağ yelə tuş olasan səni", "Üstündən ağ yellər əssin" kimi alqışlarımızın da bu inancdan doğduğunu desək, yanılmarıq. Hətta inanca görə, Yel çərşənbəsində ata-ananın xeyir-duası olmadan qaçırılan qıza xeyir-duanı əli butalı Xızır Nəbi verir. Bu çərşənbədə qəfəsdəki quşların satın alınıb "Azat-bezat, məni cənnətdə gözət" deyərək havaya buraxılması da inanclarımızdandır. Bəzi hekayələrimizdə bu motiv öz yerini tutur. Xahiş, arzu yazılan çərpələnglərin göyə buraxılması bu çərşənbənin ayinlərindəndir. Xızır Nəbi ilə təmasda olmaq üçün icra olunan "Yelləncəkdə yellənmə" mərasimi də bu çərşənbənin rituallarındandır.

Yellə bağlı atalar sözləri də çoxluq təşkil edir: Yelə verdiyin düşmənə qismət olar. Yel əsməyincə yarpaq tərpənməz. Yelə qoşulan çox uzağa getməz. Yel aparan yelinki, yerdə qalan mənimki. Yelin işi elnən deyil, külnəndi. Küləklə yatanın cin atı olar. Yelin zarafatı qovmaqla başlanır. Ağac körpə olanda qara yeldən qoruyarlar. Bu cür atalar sözləri adətən inanclarla bağlı yaranır.

***Səhər ORUCOVA,***
***BDU-nun Azərbaycan şifahi xalq ədəbiyyatı kafedrasının müdiri, filologiya elmləri doktoru, professor***

# Azərbaycan dilinin və digər fənlərin ödənişsiz tədrisi ərəb mətbuatının diqqətini cəlb edib

"Vətənpərvər" Azərbaycanın Misirdə Diaspor Təşkilatları Birliyinin Qahirə Universitetinin Ədəbiyyat fakültəsinin Şərq dilləri bölməsində Azərbaycan dilinin tədrisini davam etdirməsi, həmçinin ödənişsiz əsasda digər fənlər üzrə kursların təşkil olunması ərəb mətbuatının diqqətini cəlb edib.



AZƏRTAC xəbər verir ki, Misir, Səudiyyə Ərəbistanı, Əlcəzair, İraqın "Rayetmısr", "Əl Hərir", Əxbar Əl Yom", "Əl Ərəbiyə Yom", "Əl Əmval", "Vəsiq" və digər mətbu orqanlarında Azərbaycan diaspor mərkəzinin sədri tədqiqatçı-alim Seymur Nəsirova istinadla Müqəddəs Quran və xəttatlıq sənəti də daxil olmaqla, müxtəlif fənlərin tədrisi barədə geniş məlumat verilib. Məqalələrdə diqqətə çatdırılıb ki, hazırda diaspor mərkəzində dünyanın 35 ölkəsindən 400-ə yaxın tələbə Azərbaycan dili də daxil olmaqla, müxtəlif fənlər üzrə ödənişsiz təhsil alır.

Misir mətbuatında dərc edilən məqalələrdə qeyd olunub ki, diaspor təşkilatının fəaliyyəti Azərbaycanın zəngin mədəniyyəti və ədəbi irsinin gənclərə tanıdılması ilə yanaşı, həm də iki ölkə arasında əlaqələrin inkişafına da töhfə verir.

# Yaponiyanın çoxtirajlı "The Asahi Shimbun" qəzeti Azərbaycan plovu haqda xüsusi məqalə yayıb

Martın 5-də Yaponiyanın çoxtirajlı "The Asahi Shimbun" qəzeti Azərbaycan plovu haqda xüsusi məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, "İpək yolu boyunca məşhur olan plovun Azərbaycanda hazırlanması" sərlövhəli məqalənin müəllifi Yaponiyanın tanınmış kulinarı xanım Kyoko Oqinodur. Bütün dünyada geniş yayılmış koronavirus pandemiyası səbəbindən insanların əksəriyyətinin evdə qalmağa məcbur olduğunu vurğulayan K.Oqino bu zaman evdə hazırlanmış yeməklərə böyük ehtiyac yarandığını qeyd edir. Bildirir ki, qida məhsulu kimi məşhur olan düyü yalnız yaponların deyil, həm də İpək yolu boyunca bir çox xalqın sevimli yeməyidir. Bunu həm Azərbaycanda, həm İranda, həm də Özbəkistanda çox məşhur olan plov növləri də təsdiq edir. Bir vaxtlar bu yemək növünün 600-dək növü olduğunu qeyd edən müəllif hazırda yalnız 100-dək növün qaldığını bildirir.

K.Oqino ilk dəfə 1987-ci ildə Azərbaycanın paytaxtı Bakıya səfəri zamanı restoranların birində plovu daddığını və aşpazdan onun hazırlanma qaydasını izah etməyi xahiş etdiyini xatırladır. Bildirir ki, azərbaycanlılar yemək hazırlanması zamanı əsasən buğdadan istifadə etsələr də, düyü də onların mətbəxində xüsusi yer tutur.

Qeyd edir ki, plovun növləri onun hazırlanması zamanı düyü ilə yanaşı istifadə edilən inqrediyentlərdən asılıdır. Bu zaman müxtəlif göyərtilərdən, quru meyvələrdən, qoyun və toyuq ətindən, çərəzdən, zəferandan, balqabaqdan, limondan və digər məhsullardan istifadə edilə bilər. Bildirir ki, hətta bir dəfə sardina balığı ilə hazırlanan plovun da dadına baxmaq ona nəsib olub. Vurğulayır ki, plovun hazırlanması zamanı hansı inqrediyentlərdən istifadə edilməsindən asılı olmayaraq ekzotik balans saxlanılarsa, siz mükəmməl bir tamın şahidi olacaqsınız.

Bakının "Karvan saray" restoranında yediyi plovun xüsusi tamı ilə onu heyran etdiyini qeyd edən müəllif buranın İpək yolunda yerləşən ən qədim yeməkxanalardan biri olduğunu bildirir. Bu restoranın menyusunun isə onu zənginliyi ilə təəccübləndirdiyini vurğulayır.

Plovun çox qədim yemək növlərindən biri olduğunu qeyd edən K.Oqino hətta eramızdan əvvəl 330-cu ildə Makedoniyalı İsgəndər Səmərqəndi işğal etdikdən sonra onun şərəfinə verilən ziyafət zamanı süfrədə bişmiş düyüdən hazırlanmış yeməyin olması barədə faktları xatırladır.

Yazıda müəllif İran, Özbəkistan və Rusiyada da müxtəlif plov növləri ilə qarşılaşdığı barədə ətraflı bəhs edir. Qeyd edir ki, harada hazırlanmasından asılı olmayaraq plov yerli xalqların ən sevimli yemək növüdür.

# Operativ Qərargah xüsusi karantin rejimi çərçivəsində növbəti yumşalma tədbirləri barədə qərar qəbul edib

Ölkədə epidemioloji vəziyyətin yaxşılaşması ilə əlaqədar xüsusi karantin rejimi çərçivəsində yumşalma tədbirlərinin növbəti mərhələsinin tətbiqi ilə bağlı Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qərar qəbul edilib.

Bu barədə AZƏRTAC-a Nazirlər Kabineti yanında Operativ Qərargahdan məlumat verilib.

Qərara əsasən, **2022-ci il martın 6-dan etibarən** aşağıdakılara icazə verilir:

- *dövlət orqanlarında (qurumlarında) vətəndaşların yerində qrup və fərdi qaydada qəbuluna;*
- *dini ritual xidmətlərinin, eləcə də mərasim zallarında, çadırlarda və digər qapalı məkanlarda yas mərasimlərinin təşkilinə və keçirilməsinə;*
- *bütün kütləvi tədbirlərin, o cümlədən idman tədbirlərinin keçirilməsinə;*
- *ictimai iaşə obyektlərində qəlyan avadanlıqlarından istifadəyə;*
- *masaj xidmətlərinin göstərilməsinə;*
- *sərnişinləri qarşılayan və yola salan şəxslərin hava limanının terminalına girişinə.*

aşağıdakı məhdudiyyətlər ləğv edilir:

- *mədəniyyət obyektlərinin, eləcə də kinoteatrların, teatrlar və konfrans zallarının, istirahət və əyləncə məkanlarının, həmçinin uşaq əyləncə məkanlarının (bulvar və parkların ərazisində olanlar da daxil olmaqla), habelə iri ticarət mərkəzlərinin nəzdindəki uşaq və digər əyləncə mərkəzlərinin, kinoteatrların fəaliyyəti ilə bağlı vaxt və say məhdudiyyəti;*
- *dini ibadət yerlərinə tətbiq edilən say və eyni vaxtda ibadət üçün nəzərdə tutulan yerlərlə bağlı faiz məhdudiyyəti;*
- *şənlik mərasimlərinin (toy, nişan, ad günləri və s.) keçirilməsi ilə bağlı vaxt və say məhdudiyyəti;*
- *ictimai iaşə obyektlərində, eləcə də restoran, kafe, çay evləri və bu kimi digər məkanların fəaliyyəti ilə bağlı vaxt məhdudiyyəti, həmçinin hər bir masa arxasında 6 nəfərdən artıq toplaşmaqla bağlı məhdudiyyət;*
- *pandemiya dövründə ictimai iaşə müəssisələrinə müştəri qəbulu zamanı tətbiq edilən adambaşı sıxlıq normaları;*
- *10 nəfərdən artıq şəxsin iştirakı ilə tədris və repetitor xidmətlərinin həyata keçirilməsi məhdudiyyəti.*

Fəaliyyətinə icazə verilən xidmətlərdən (işlərdən) yalnız etibarlı olan COVID-19-a qarşı peyvənd olunmanı təsdiqləyən peyvənd sertifikatı və ya COVID-19-dan sağalaraq immunitetə malik olmanı təsdiqləyən sənədi, yaxud COVID-19-a qarşı peyvəndə əks-göstərişi müəyyən edən əks-göstəriş sertifikatı olan şəxslər (yaşı 18-dən aşağı olan şəxslər istisna olmaqla) istifadə edə bilər.

Qeyd etmək lazımdır ki, məhdudiyyətlərin ləğv olunması şamil olunan iş və xidmət sahələrində koronavirus infeksiyasına qarşı Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarları ilə müəyyən edilmiş digər tələblər (girişlərdə COVID-19 pasportlarının təqdim olunması, qapalı yerlərdə maskadan istifadə və s.) qüvvədə saxlanılır.

Tətbiq edilən tələblərə riayət olunmasını təmin etmək məqsədilə müvafiq nəzarət tədbirlərinin icrasına davam ediləcək, epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması aşkar edildiyi hallarda fiziki və hüquqi şəxslər Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq məsuliyyətə cəlb ediləcəklər.

Koronavirus infeksiyasının yayılmasının qarşısını almaq məqsədilə sosial məsafənin qorunması və əl gigiyenası kimi ümumi qaydalara, habelə metodiki göstərişlərdə qeyd olunmuş tövsiyələrə riayət olunması zəruridir.



# Koronavirus enişə doğru gedir

## Lakin ehtiyatlı olmalıyıq, çünki payıza doğru yoluxma sayı arta bilər

COVID-19-un sonuncu variantı olan "Omikron"a yoluxanların xəstəliyi yüngül keçirdiyi, bu variantın simptomlarının əsasən boğaz ağrısı, burun axması, aşağı temperatur olduğu bildirilir. "Omikron"un yoluxduruculuq qabiliyyəti yüksək olsa da, bu varianta yoluxanların 4-5 gün ərzində daha çox yoluxucu olduğu qeyd edilir.

Bəzi ölkələr xəstəliyin gedişatını nəzərə alaraq yoluxanların karantin müddətini 14 gündən 7 günə qədər azaltmaq qərarı verib. Həmçinin Azərbaycanda da koronavirusa yoluxanların karantin müddəti 7 gündür. Mütəxəssislər pandemiya başlayandan COVID-19 xəstəliyini yüngül keçirənlərdə belə qalıcı fəsadların olduğunu qeyd edirlər. Fəsadların əsasən ağciyər, böyrək çatışmazlığı və ürəkdə yaranan problemlərlə bağlı olduğu vurğulanır. Mütəxəssislərin apardığı araşdırmaların nəticələri göstərir ki, "SARS-CoV-2"nin "Omikron" variantına yoluxanlar xəstəliyi 4-5 gün ərzində simptomsuz keçirsələr belə həmin şəxslərdə də uzun müddət davam edən, qalıcı fəsadlar yarana bilər.

### Azərbaycanda epidemioloji vəziyyət sabitdir

Hazırda dünyada COVID-19-un "Omikron" variantı ilə bağlı virusa yoluxma sayı sürətlə artsa da, dövlətlər karantin qaydalarını yumşaldırlar. Bu qərarları xəstəliyin yüngül gedişatı, xəstəxanalara yatışların az olması və vaksinasiya nəticəsində insanlarda xəstəliyə qarşı immun cavabın yaranması ilə əsaslandırırlar.

Səhiyyə qurumları ölkədə pandemiya ilə bağlı epidemioloji vəziyyətin stabil olduğunu qeyd edirlər. Azərbaycanda "Omikron" variantı ilə əlaqədar COVID-19-a yoluxma sayları hələ də çox olsa da, xəstəxanalara yerləşdirilənlərin və xəstəlikdən ölüm sayının artmadığı bildirilir. Həkimlər karantin qaydaları nə qədər yumşaldılsa da vətəndaşları hər bir halda diqqətli olmağa, gigiyena qaydalarına əməl etməyə çağırırlar. Azərbaycan ərazisində xüsusi karantin rejiminin müddəti 2022-ci il mayın 1-i saat 06:00-dək uzadılıb. Bununla belə xəstəliyin gedişatı, hazırkı epidemioloji durum nəzərə alınaraq karantin rejiminin sərtləşdirilməsinə ehtiyac olmadığı bildirilir.

### Uşaqlarda da xəstəliyin ağır formaları inkişaf edə bilər

Səhiyyə Nazirliyinin ekspert-mütəxəssisi Təyyar Eyvazovla söhbətimizdə bildirdi ki, hazırda Azərbaycanda epidemioloji vəziyyət müsbət istiqamətdədir. Mütəxəssisin sözlərinə görə, pandemiyanın hazırkı dalğasının enişindəyik: "COVID-19-a yeni yoluxma sayının gündən-günə azalması, sağalanların sayının yoluxanları üstələməsi, aktiv xəstə sayının azalması, koronavirusla bağlı götürülən test nümunələrində pozitiv nəticələrin payı bunu deməyə imkan verir".

T.Eyvazov deyir ki, COVID-19-un əvvəlki dalğalarından fərqli olaraq indiki dalğada patoloji proses əsasən yuxarı tənəffüs yollarında getdiyindən xəstəliyin daha yüngül formada cərəyan etdiyini və həmin nahiyənin iltihabı əlamətlərini görürük. Əlamətlər əsasən burun axması və ya tutulması, asqıraq, öskürək, boğaz ağrıları, habelə əzginlik, zəiflik, əzələ və baş ağrılarıdır. Ağciyərlərin zədələnməsi halına az rast gəlindiyi üçün nəfəs darlığı, təngnəfəslik və digər əlamətləri daha az görürük: "Hazırda "Omikron"un bir neçə alt variantları yayılıb, lakin bunların içərisində yoluxduruculuq qabiliyyəti daha yüksək olan "Stelsomikron" (B.A.4.2) maraq kəsb edir. COVID-19-a yoluxma sayının azalması yaz fəslinin gəlişi ilə birbaşa əlaqəli deyil. Yoluxma sayının azalmasının əsas səbəbi son vaxtlar əhalidə bu infeksiyaya qarşı kollektiv immunitetin xeyli yüksəlməsidir. Kollektiv immunitetin formalaşması bir tərəfdən kifayət qədər insanın xəstəliyə yoluxması, digər tərəfdən kütləvi vaksinasiya nəticəsində olub. Beləliklə, biz hələ ki koronavirusa yoluxma sayının azalmasının şahidiyik".

Ekspert qeyd edir ki, uşaqlar COVID-19 xəstəliyini böyüklərə nisbətən daha yüngül keçirir və uşaqlarda xəstəliklə bağlı ağırlaşma hallarına daha az rast gəlinir: "Lakin uşaqlarda da xəstəliyin ağır formaları inkişaf edə bilər. Bu, xüsusən risk qrupu - izafi çəkili, yanaşı xroniki xəstəlikləri olan uşaqlara aiddir. Uşaqlarda COVID-19-a yoluxma zamanı daha çox mədə-bağırsaq əlamətləri - ishal, qusma, dəridə səpkilər müşahidə edilir".

### Bizi yaxın vaxtlarda stabil vəziyyət gözləyir

Ekspert-mütəxəssis onu da bildirir ki, "SARS-CoV-2"nin "Omikron" ştamından sonra növbəti dalğanın olmayacağını demək çox çətindir: "Bizi yaxın vaxtlarda stabil vəziyyət gözləyir, ancaq payıza doğru COVID-19-a yoluxma saylarının yenidən artması istisna deyil".

Pandemiya ilə əlaqədar vəziyyətin yaxşıya doğru getməsi, hazırkı dalğanın səngiməsinin əsas səbəbi əhalidə yaranan kollektiv immunitetin olduğu ortadadır. Kollektiv immuniteti yaradan əsas vasitə isə COVID-19 əleyhinə vaksinasiyadır.

*Əsmər QARDAŞXANOVA*

# COVID-19 pasportu olmadığına görə 116 nəfər toy şənliklərinə buraxılmayıb

Martın 4-də Daxili İşlər Nazirliyinin (DİN), Qida Təhlükəsizliyi Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin nümayəndələri Bakı şəhərində və respublika ərazisində 222 toy şənliyinin monitorinqini aparıblar.

DİN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, monitorinqlər 219 şadlıq sarayında və 3 şəxsi həyətyanı sahədə keçirilən şənlikləri əhatə edib. Monitorinqlər nəticəsində toy şənliklərinin keçirilməsi zamanı xüsusi karantin rejimi qaydalarını pozduqlarına görə, 3 nəfər İnzibati Xətalar Məcəlləsinin 211-ci (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və karantin rejimlərinin pozulması) maddəsinə əsasən cərimələnib.

COVID-19 pasportu olmadığına görə 116 nəfər şənliklərə buraxılmayıb.










# Milli kinomuzun ilk mübariz qadınları



Qadının cəmiyyətdə yeri, rolu mövzusu bədii ədəbiyyatda, incəsənətin ayrı-ayrı sahələrində olduğu kimi, kinoda da əksini tapıb. Bunu Azərbaycan kinosu yaranandan müasir dövrədək çəkilmiş bir çox filmlərdə görürük.

### Yeni siyasi quruluşun kinoda yeni qadın obrazlarının təsviri tələbi

XX əsrin ikinci onilliyində, bolşeviklər Azərbaycanda hakimiyyəti ələ keçirdikdən sonra geniş təbliğat işlərinə başlayıblar. Ardıcıl işlər, geniş islahatlar kino sahəsini də əhatə edib. Belə ki, 1920-ci ildə respublikada yaradılan foto-kino təşkilatı 1926-cı ildən Azərbaycan Dövlət Kinosuna çevrilib və kinofilmlərin ekranlaşdırılmasına başlanılıb. 1923-1931-ci illər arasında Bakıda "Qız qalası", "Bismillah", "Gilan qızı", "Hacı Qara", "Sevil", "Lətif", "26 Bakı komissarı" kimi filmlər çəkilib.

Həmin dövrdə qadınların haqq və hüquqlarının qorunması, onların cəmiyyətdə rolunun yüksəldilməsi, savadlanması uğrunda mübarizə əhəmiyyətli məsələlər kimi önə çıxarılıb. Kinoda da qadın məsələsi aparıcı mövzulardan birinə çevrilib. Belə ki, bu sahədə yeni qadın obrazlarının təsviri yeni siyasi quruluşun tələbi olaraq irəli sürülüb.

İlk azərbaycanlı rejissorlardan biri - Abbas Mirzə Şərifzadənin 1925-ci ildə çəkdiyi "Bismillah" filmində qadın problemləri əksini tapıb. Sənədli kadrların yer verildiyi bu ekran əsərində qadın haqlarından, dini fanatizmdən, gerilikdən bəhs olunub. Araşdırıcılar "Bismillah"ı Azərbaycanda qadın azadlığına toxunan ilk film hesab ediblər. Sonrakı illərdə kinorejissorlar sovet rejiminin tələblərinə uyğun qadın rollarına ekran ömrü verməyə səy göstərib, bir-birinin ardınca dörd film çəkiblər. Həmin filmlərdə - "Gilan qızı", "Sevil", "İsmət" və "Almaz"da sosializm quruculuğu illərində qadının mənəvi-siyasi inkişaf yolu əks etdirilib.

1928-ci ildə Leo Murun çəkdiyi "Gilan qızı"nda evdar qadın olan Səkinə haqsızlıqlarla üzləşir, hüquqları pozulur və o, inqilab edən kommunistlərə qoşulur. Ancaq bu film birmənalaı qarşılanmayıb. Görkəmli dramaturq və rejissor Cəfər Cabbarlı "Hara gedir Azərkino" adlı məqaləsində "Gilan qızı"nı tənqid edib. O, filmin rejissorunun rus olduğunu və digər məqamları nəzərə alaraq qeyd edib ki, "Azərkino" yerli qüvvələrdən ssenari hazırlamaq üzərində işləmir və yalnız dəvət olunanlara ümid bağlayır, onlar isə yerli həyatla tanış olmadıqlarından türk kişisi və qadını haqqında hər cür uydurmalar yazır, sonra da ssenarini oxuyan ilk türk elə buna etiraz edir və hər şey alt-üst olur. Daha sonra o yazıb: "Gilan qızı" ilə də eyni hal baş vermişdi. Burada da elə ağlasığmaz cəfəngiyyat yazmışdılar ki, sonra vəziyyətdən çıxa bilmirdilər".

### Çadrasını atan qadınların həyat hekayələri ekran əsərlərində

1929-cu ildə Cəfər Cabbarlı və Aleksandr Beknazarov tərəfindən ekranlaşdırılan "Sevil"in qəhrəmanı da evdar, savadsız qadın idi. Cəfər Cabbarlının eyniadlı əsəri əsasında çəkilən bu filmdə Sevili əri Balaş evdən qovaraq övladına həsrət qoyur. O, çadrasını atıb evdən çıxır. Təcrübəsiz, təhsilsiz qadın çətin də olsa, müstəqil həyata başlayır. İnqilabi hərəkata qoşulur, qadın haqları uğrunda mübarizə aparır. Sonda artıq dəyişmiş, oxumuş, vəzifə sahibi olmuş Sevillə hər şeyini itirmiş, düşkünləşmiş Balaş qarşılaşdırılır.

1934-cü ildə ekranlaşdırdığı "İsmət" filmi barədə rejissor Mikayıl Mikayılov özü geniş məlumat verib. Filminin yaradıcılığında xüsusi yer tutduğunu qeyd edən rejissor diqqətə çatdırıb ki, "İsmət"in çəkildiyi dövr elə bir vaxt idi ki, Azərbaycan qadını çadranı ataraq ictimai həyata qoşulurdu. O vaxtlar İçərişəhərdə yaşayan Mikayıl Mikayılov bir gün qonşuda bir qadının neft töküb özünü yandırdığını öz gözləri ilə görüb. Həmin qadının faciəsini unuda bilməyən rejissor az sonra ən dəhşətli hadisə ilə qarşılaşıb. İndiki Səadət sarayında o vaxt qadınlar üçün kurs təşkil edilmişdi. 1933-cü ildə Səriyyə Xəlilova çadrasını atdığı və kluba getdiyi üçün atası və qardaşı tərəfindən vəhşicəsinə öldürülüb. Bu dəhşətli qətl rejissoru yenidən sarsıdıb: "Həmin matəm mərasimində mən də iştirak etdim. Orada qadınların başlarından çadranı çıxarıb ayaqları altına atdıqlarının şahidi oldum. Təxminən həmin dövrdə qəzetdə Azərbaycanın ilk təyyarəçi qadını Leyla Məmmədbəyova haqqında bir məqalə oxudum. Nəhayət, "İsmət" filminin ssenarisi üzərində işləməyə başladım. Mövzuların hər üçünü birləşdirdim". Rejissor qeyd etdiyi kimi, ekran əsərində ayrı-ayrı qadın obrazlarını İsmətin simasında ümumiləşdirib. Filmin qəhrəmanı - İsmət fabrikdə işləsə və fəal ictimaiyyətçi olsa da, çadrasını atmağa cürət etmir. Onun çadrasını təyyarədə külək aparır. Bu səhnə ilə kinorejissor qadınların tamaşa və filmdə çadrasını atması ənənəsini təkrarlamayaraq maraqlı görüntülər yaradıb.

### Mübariz, açıq fikirli Almaz...

1936-cı ildə ekranlaşdırılan "Almaz" filminin qəhrəmanı isə artıq mübariz, açıq fikirli qadındır. Cəfər Cabbarlının 1931-ci ildə qələmə aldığı eyniadlı pyes əsasında ssenari yazıb, yaradıcı heyəti, aktyorları seçərək sınaq çəkilişləri aparsa da qəflətən dünyasını dəyişib. Filmi Ağarza Quliyev və Qriqori Braginski birgə ərsəyə gətiriblər.

Filmdə gənc Almaz müəllim işləmək üçün ucqar kəndə gedir. O, dərs deməklə yanaşı, hüquqsuz kənd qadınlarının müdafiəçisi olur, onların işlə təmin edilmələri üçün məscidi toxuculuq artelinə çevrilməsi təşəbbüsünü irəli sürür. Kənddəki mühafizəkarlar bütün bunlara görə Almazı gözdən salmağa, şərləməyə çalışırlar.

Cəmiyyətdə qadınların rolu yüksəldikcə kinoda bu mövzuya yeni münasibət ortaya çıxıb. Artıq əzilən, xor görülən, çadradan imtina edən, yeni həyata doğru əlacsız, hürkək, bir az da ümidlə üz tutan qadın rolları tarixiləşməyə başlayıb.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Bahar motivlərini təsvir edən rəsm sərgisi böyük maraqla qarşılanıb

"Huma Art Room" qalereyasında 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş "Yaz Rapsodiyası" adlı rəsm sərgisi açılıb.



AZƏRTAC xəbər verir ki, sərgidə beş azərbaycanlı xanım rəssamın - Ziba Əliyeva, Raida Mustafayeva, Lelya İsayeva, Aydan Nəbizadə və Safranda Məmmədovanın əsərləri nümayiş olunub.

"Bu ay bizim qalereyamızın bir yaşı tamam olur və biz bu hadisəni parlaq və unudulmaz qeyd etmək istəyirdik. Əminəm ki, buna nail olduq. Baharın nəfəsini artıq hamımız hiss edirik. Bahar bir çoxları üçün bayramlarla, hərarətlə və təbii ki, çiçəklərlə bağlıdır. Gəlin gözlərimizi klassiklərə - ölməz rəsm əsərlərinə çevirək. İlin bu qeyri-adi vaxtını gözlərlə görməyə çalışaq. Xanım rəssamlarımız təbiətin oyanışını incə hiss edərək, bu hissləri əsərlər vasitəsilə mükəmməl şəkildə tamaşaçıya çatdırırlar. Bütün bu assosiasiyaları sərgidə təqdim olunan əsərlərdə görmək olar", - deyə "Huma Art Room" qalereyasının nümayəndəsi Teymur Məmmədov bildirib.

Qeyd edək ki, sərginin məqsədi 8 mart ərəfəsində Azərbaycan xanım rəssamlarının müasir və yeni baxışlarını nümayiş etdirməkdir.

Sərgi martın 11-dək davam edəcək.




# Səmaların xanımı



**Aviasiyada öz şücaəti ilə yadda qalan, həmçinin ilk yeganə xanım pilot Elis Reymond de Laroş idi. O, 22 avqust 1882-ci ildə Parisdə anadan olub. Uşaqlıqda incəsənətə daha çox marağı olan Elis böyüyəndə özünü rəqqasə və ya aktrisa kimi görürdü. Eyni zamanda onun idmana, motosiklet və avtomobillərə böyük həvəsi var idi.**

Yetkinlik yaşına çatanda arzularından biri gerçəkləşmişdi. E.Reymond aktrisa olaraq səhnələrdə müxtəlif rollar ifa edirdi. Lakin sonradan bu işinin ona uyğun olmadığını düşünərək fəaliyyət istiqamətini dəyişdi. 1900-cu illərin əvvəllərində dünyanın diqqəti təyyarəni kəşf etmiş Rayt qardaşlarına yönəlmişdi. Onlar bir çox gəncin marağını aviasiya sahəsinə cəlb edə bilmişdilər.

Uçuşlardan birini həyata keçirmək üçün Vilbur Rayt Parisə səfər etmişdi. Bu zaman o, burada izdiham içərisində tarixi hadisəni izləməyə gələn xanımlara bu həyəcanı yaşamaq üçün hava nümayişlərinə qatılmağı təklif etmişdi. Bu eksklüziv təklifi qəbul edənlərdən biri də Reymond olmuşdu. Əslində, bu uçuş onun həyatında aviasiya sevgisinin başlanğıcını qoyan dönüş nöqtəsi idi.

Fransız xanım təyyarə sevgisinə görə bir çox pilotla əlaqələr yaratmışdı. Ona təyyarəni idarə etməyi isə Çarlz Vuazen öyrətmişdi. Vuazen qardaşı ilə birlikdə istehsal etdiyi bir nəfərlik uçuş vasitəsində Reymonda yerdən təlimatlar vermiş, Elis də ilk uçuşunu uğurlu nəticə ilə başa vurmuşdu. O, bir neçə ay davamlı məşqlər etmişdi. Hətta uçuşlarda xəsarət almağına baxmayaraq əzmindən geri dönməyib Misirdə keçirilən hava yarışlarında da iştirak etmiş və 8-ci yeri tutmuşdu.

Elis Reymond ABŞ-da qadınların qanuni olaraq səs verə bilmədiyi bir dövrdə, 8 mart 1910-cu il tarixdə ilk pilot lisenziyasını almışdı. Rəsmi pilot kimi, daha çox aviaşoularda iştirak edir və ard-arda yaxşı nəticələr qazanırdı. Bu qabiliyyəti ilə Sankt-Peterburqda çar II Nikolayı heyran etməyi bacarmışdı. Görüşdə çar pilotu təbrik etmiş, xoş və təəccüblü hisslərini dilə gətirmişdi.

Elis Reymond ən təhlükəli uçuşlarından biri ilə Fransanın Rouen şəhərində üzləşmişdi. Güclü külək pilotu izdihamın olduğu istiqamətə eniş etmək məcburiyyətində qoymuşdu. Lakin peşəkar davranışları ilə o, bu gərgin andan xilas ola bilmişdi. Əks təqdirdə insanların üzərinə düşərək böyük bir qəzaya səbəb olacaqdı. Lakin növbəti aviauçuşda təhlükədən xilas ola bilməmişdi. Qəza nəticəsində müəyyən müddət uçuşdan məhrum olmuşdu.

Reymond 1913-cü ildə sağaldıqdan sonra yenidən bu fəaliyyətinə başlayıb. Həmin ili onun aviasiya karyerasında ən uğurlu il adlandırmaq olar. Elis qadın pilotlar üçün nəzərdə tutulan "Coupe Femina" mükafatını qazanmışdı. Daha sonra ən yüksək - 4500 metr hündürlükdə uçaraq daha bir rekorda imza atmışdı. Ancaq I Dünya müharibəsinin başlanması səbəbindən fəaliyyətinə davam edə bilməmişdi. Təhlükə səbəbinə görə Fransa Hərbi Hava Qüvvələri qadın pilotların müharibədə iştirakını qadağan etmişdi. Lakin o, heç vaxt təhlükədən çəkinməmişdi. Odur ki, hərbi sürücü olaraq ordu zabitlərini arxadan ön səngərlərə aparırdı. Müharibə başa çatdıqdan sonra isə onun növbəti rekordu 4800 metr yükseklikdəki uçuşunda qeydə alınmışdı.

Təəssüf ki, Elisin karyerası çox erkən bitib. O, 18 iyul 1919-cu ildə Raymond "Crotoy" aerodromuna yollanmışdı. Elis həm də istedadlı mühəndis olduğu üçün sınaqlarda pilot kimi iştirak edərək təyyarə istehsalçılarına daha yaxşı versiyalar hazırlamağa kömək edirdi. Elis belə eksperimental təyyarə uçuşlarından birində yerə enmək ərəfəsində sıldırım qayalardan birinə çırpılıb. Qəzada həm pilot, həm də Reymond de Laroş dünyasını dəyişib.

Elis Reymond 36 yaşında gənc pilot olaraq dünyadan köçsə də, tarixdə böyük bir dəyişikliyə səbəb olmuşdu. Elisin xatirəsinə "Paris-Le Bourget" hava limanında heykəli qoyulub. Reymond dünyadakı bir çox qadına mühüm bir məqamı sübut etmişdi: "Əgər uçmaq xəyalınızdırsa, heç kim və heç nə sizi bundan döndərə bilməz. Hər vəchlə siz pilot ola bilərsiniz".

# İlk qadın vəkil

**Qanunların müdafiəçisi olan vəkillik ta keçmişdən bugünümüzə kimi seçilən nüfuzlu peşə olub. Lakin bu sahəyə qadınların gəlişi XIX əsrdən başlayıb. Arabella Mansfild 1869-cu ildə ilk qadın hüquqşünas kimi tarixə düşənlərdəndir. O, həmin ildə vəkillik imtahanında iştirak edərək bu vəzifəyə seçilmişdi. Amerika qanunlarına görə, imtahanda yalnız 21 yaşa qədər ağdərili kişilər iştirak edə bilərdilər. Arabella isə bu imtahanda təsadüf nəticəsində iştirak edə bilmiş və yüksək balla qiymətləndirilmişdi.**



Arabella Mansfild 1846-cı ildə ABŞ-ın Ayova ştatında anadan olub. Əsl adı Belle olan xanım Vesleyan Universitetinə daxil olduqdan sonra Arabella adından istifadə etməyə başlayıb. Həmin vaxtda Vətəndaş müharibəsinə kişilərin yollanması universitetlərdə qadın müəllimlərin də dərs keçməsinə şərait yaradıb. Bununla da ilk qadın professorlardan biri olan Mansfild Simpson Kollecində siyasət, ingilis dili və tarixdən dərs deməyə başlayıb.

Daha sonra o, vəkillik imtahanına hazırlaşmaq üçün qardaşının hüquq bürosunda iki il hüquq təhsili alıb. Böyük səyləri nəticəsində imtahandan keçərək Vəkillər Kollegiyasına qəbul edilib. Beləliklə, bu addım hüquq sahəsində qadınların da olmasına yol açıb. Ayova isə qadınların vəkillik fəaliyyəti ilə məşğul olmasına icazə verən ilk ştat olub.

Arabella Mansfild ABŞ cəmiyyətinin bütün istiqamətlərində qadınlar üçün bərabər imkanların yaradılması uğrunda mübarizə aparıb. 1869-cu ildə Milli Qadın Seçki Hüququ Assosiasiyasının icraiyyə komitəsinə qoşularaq qadınların seçki hüququ hərəkatında fəal iştirak edib. O, burada qadınların bərabər təhsil imkanları, eləcə də səsvermə hüquqları uğrunda kampaniyaya başlayıb.

65 yaşında dünyasını dəyişən vəkil bir çox ilkə imza atıb. Onun yaşadığı zamanda seçki hüququnun bərabərliyi təmin olunmasa da, təbliğ etdiyi ideologiya nəticəsində illər sonra bir çox sahədə qadınlara da kişilərlə bərabər imkanlar yaradılıb.

Arabella Mansfild kimi cəsur qadınların qətiyyətli addımları sayəsində bu gün hər iki cinsin nümayəndələri yaşam meydanında bərabər haqlara sahibdirlər. 2002-ci ildən Ayova Qadın Hüquqşünaslar Təşkilatı vəkilin xatirəsinə "Arabella Mansfild" mükafatını təsis edib.

# Obrazın əsl aktrisası

**Səhnələrin kişilərin hökmranlığı ilə fərqləndiyi vaxtda hansısa aktrisanın heç bir cildə bürünmədən çıxış etməsi qəbuledilməz idi. Teatr mədəniyyətinin zirvələrində - Orta əsrlərdə qadın obrazlarını da kişilər ifa edirdilər. Onlar öz işlərinin öhdəsindən uğurla gəlməyə çalışsalar da, sərgilənən nəticə xanım obrazın ruhunu əks etdirə bilmirdi. Tarixdəki bu qanunauyğunluğu Marqaret Hughes dəyişdirə bildi.**



Qadın aktrisaların qəhrəmanı olan xanım Hughes 1630-cu ildə anadan olub. 30 il sonra, yəni 1660-cı ildə ilk tamaşası ilə tarix yazmışdı. O, dekabrın 8-i günü Tomas Killiqrunun Şekspirin "Otello" əsərində Dezdemonanı oynamaq üçün "Vere" küçə teatrının səhnəsinə çıxmışdı. Hughes ingilis dramaturgiyasının çətin dövründə aktrisa olmuşdu.

Belə ki, İngiltərədə Vətəndaş müharibəsi dövründə dramaturgiyada bir sıra qadağalar tətbiq edilmişdi. Bu qanunlar yalnız kral II Çarlzın əmri ilə 1662-ci ildə ləğv edilmişdi. O, böyük teatr həvəskarı olduğundan atdığı bu addımı olduqca vacib hesab edirdi. Kralın əmrinə görə bütün qadın rollarını aktrisalar ifa etməli idilər. Bununla da rejissorlar tamaşalara daha çox qadın seçməyə başladılar və teatr heyətinə daxil olan aktrisaların sayı artdı. Hətta 1664-cü ildə səhnələşdirilən "The Parson's Wedding" tamaşasının bütün quruluşçu heyəti xanımlardan ibarət idi.

Marqaret Hughes qadınların teatrda tərəqqisində mühüm rol oynayan şəxsə çevrildi. Məhz onun "Otello"dakı görkəmli çıxışı bütün ölkədə aktrisa olmaq istəyən könüllülərin teatra maraq göstərməsinə səbəb olmuşdu.

Azərbaycanın ilk aktrisası isə Gövhər Qazıyeva olub. Onun teatr təxəllüsü Göyərçin xanım idi. XX əsrin əvvəllərində Tiflisdəki zadəgan teatrlarında azərbaycanlı aktrisa və aktyorlar tamaşalar verirdilər. Gövhər xanım da belə truppalardan birində çıxış edirdi. Onun iştirak etdiyi ilk tamaşa Nəcəf bəy Vəzirovun "Müsibəti-Fəxrəddin" faciəsi olmuşdu. Şöhrəti bütün Bakıya yayıldıqdan sonra isə buraya çağırılmışdı.

Azərbaycanda ilk səhnəyə çıxışında cahil kütlə onu şiddətlə qınamış, müxtəlif fitnələr törətməyə başlamışdı. Lakin bütün bunlara baxmayaraq, Gövhər xanım səhnədə özünəməxsus tərzdə canlandırdığı obrazları ilə məşhurlaşmışdı. "Leyli və Məcnun"da Leyli obrazına yeni can vermişdi. O, "Nadir şah" pyesində Gülcahan, "Pəri Cadu" tamaşasında Hafizə, "Bəxtsiz cavan" faciəsində Mehri xanım, "O olmasın, bu olsun"da Gülnaz rollarının ifaçısı olmuşdu.

# Tibdə ilk qadın həkim

**Keçmişdə bütün sahələrdə demək olar ki, əsas işçi qüvvəsi kişilər hesab edilirdi. Tibdə isə ilk qadın əməyinə 1847-ci ildə rast gəlinib. Helom Elizabet Blekvell ABŞ-da tibb sahəsində elmi dərəcə qazanan ilk qadın olub.**



Elizabet Blekvell 3 fevral 1821-ci ildə İngiltərədə anadan olub. O, varlı ailədə böyüdüyündən xüsusi müəllimlər tərəfindən yaxşı təhsil almışdı. Lakin sonradan ailənin iqtisadi gücünün zəifləməsi onları bir çox çətinlik qarşısında qoymuşdu. Ailə 1832-ci ildə Amerika Birləşmiş Ştatlarına mühacirət olunmaq məcburiyyətində qalmışdı. Daha sonra Elizabetin atası Samuel Blekvellin ölümü ailəni yoxsulluqla üz-üzə qoymuşdu.

Sonrakı vaxtlarda Elizabet ABŞ-ın müxtəlif ştatlarındakı məktəblərdə dərs demişdi. Tibbə olan marağı isə həkimlərdən fərdi dərslər almasına səbəb olmuşdu. Tibb təhsili almaq qərarına gələn Elizabet tibb məktəblərinə qəbul olmaq üçün müraciət etsə də, hamısından rədd cavabı almışdı. Lakin sonra təsadüf nəticəsində Nyu Yorkdakı Cenevrə Tibb Kollecinə qəbul edilmişdi.

Burada təhsil aldığı müddətdə bir çox təzyiqlərə məruz qalmış, kişilərdən ibarət qruplar onu özlərindən kənarlaşdırsalar da, sona qədər təhsilini davam etdirmiş, 1849-cu ildə kolleci birinciliklə bitirmişdi. O, məzuniyyətindən sonra Tibb fakültəsini bitirən ilk qadın tibb doktoru olaraq nüfuz qazanmışdı.

Həkim kimi əsas istiqaməti isə cərrah olmaq idi. ABŞ vətəndaşı olduqdan sonra biliklərini təkmilləşdirmək üçün İngiltərə və Fransaya yollanmışdı. Burada müxtəlif kurslar keçən zaman yoluxucu göz xəstəliyinə tutularaq bir gözünü itirmişdi. Cərrah olmaq ümidi də məhz bu hadisə ilə sonlanmışdı. Elizabet Amerikaya qayıtdıqdan sonra xəstəxanalarda işləmək üçün müraciət etmiş, lakin ona şərait yaradılmamışdı.

1853-cü ildə Blekvell kiçik bir dispanser açıb. Bir neçə il ərzində ona kiçik bacısı dr.Emili Blekvell və başqa həkimlər də qoşulmuş, dispanser Nyu Yorkda qadın və uşaqlar üçün böyük klinika kimi fəaliyyətini davam etdirmişdi. Sonrakı vaxtlarda Elizabet daim qadınlara tibb bacısı və həkimliyi öyrətmək üçün çalışıb.

1868-ci ildə isə İngiltərədə Qadın Tibb Kollecinin açılışına öz töhfəsini vermişdi. Bu təşəbbüsün ardınca da İngiltərəyə köçmüş, daimi fəaliyyətini orada həyata keçirmişdi. Ginekologiya üzrə ixtisaslaşan doktor Blekvellin növbəti uğuru qadınlar üçün London Tibb Məktəbinə professor kimi təyin edilməsi olmuşdu.

Onun əsas kitabları siyahısında "Sağlamlığın dini", "Övladlarının əxlaqi tərbiyəsi üzrə valideynlərə məsləhət","Qadınlara həkimlik peşəsinin açılması" və s. kimi nümunələr yer alır.

***Aydan XƏLİLOVA, "Azərbaycan"***




# Yeni "Samsung Galaxy"



"Samsung" yeni smartfonunun təqdimatına hazırlaşır. Bu dəfə də əsas diqqət cihazın ümumi keyfiyyətinin yüksəldilməsinə yönəldilib. Şirkət yeni qatlanan smartfonun dizaynında kiçik dəyişikliklər edib. "Galaxy Z Fold 4"də S Pen stilusu üçün nəzərdə tutulmuş xüsusi yer var. Qeyd etmək lazımdır ki, bir müddət öncə təqdim edilmiş "Galaxy S22 Ultra" modelinin gövdəsində də S Pen stilusu üçün yer ayrılmışdı.

"Galaxy Z Fold 4" iki ekranla təchiz olunub. Əsas ekran 7.56, əlavə ekran isə 6.19 düym ölçüsündədir. Əslində bu, "Galaxy Z Fold 3" üçün ekran ölçülərinə uyğundur.

Yeni modelə "Snapdragon 8 Gen 1" prosessoru və üçlü arxa kamera yerləşdirilib. Smartfonun satışı bu yay nəzərdə tutulur.

# Qadınlar texnologiyada

**Texnologiya sənayesində çalışanlar arasında kişilər üstünlük təşkil etsələr də, nəticəyə güclü təsir edən qadınlar da az deyil. Bu siyahıda yer alanlar arasında şirkət qurucularını, süni zəka və virtual reallıq sahəsindəki yenilikçiləri, qabaqcıl texnologiya yazıçılarını, "YouTube" və "Project Include" kimi şirkətlərin rəhbərliyində təmsil olunan şəxsləri misal göstərmək olar. Bu xanımlar dünyanın ən böyük və müasir texnoloji şirkətlərini, böyük ümidverici rəqəmsal layihələri idarə edirlər.**




**Reşma Saujani** "Girls Who Code"un qurucusu və icraçı direktorudur. Bu, kompüter elmləri sahəsindəki qadınların sayını artırmağı hədəfləyən qeyri-kommersiya təşkilatıdır.

**Susan Uojciki** "Yutub"un baş direktorudur. Uzun illər "Quql"da çalışan bu xanım 2014-cü ildə "Yutub"un alınmasını təklif edərək onun icraçı direktoru olub.

**Ellen Pao** "Project Include"un həmtəsisçisi və direktorudur. Bu, texnoloji sənayedə müxtəlifliyin yaxşılaşdırılmasına yönəlmiş qeyri-kommersiya təşkilatıdır. Ellen Poa bundan öncə də "Reddit"də baş direktor vəzifəsində çalışıb.

**Danah Boyd** "Data & Society"nin qurucusu və prezidentidir. Tanınmış alim olan Boydun yaratdığı bu tədqiqat institutu inkişaf etməkdə olan texnologiyaların etik və hüquqi təsirlərini təhlil və həll edir. O, "Microsoft"da tədqiqatçı kimi də fəaliyyət göstərir. Onun maşın öyrənmə və media manipulyasiyasında hesabatlılıq kimi mövzulara dair çoxlu məqalələri, araşdırmaları var.

**Kimberli Bryant** "Qara Qızlar" kodunun qurucusu və icraçı direktorudur. O, 2040-cı ilədək bir milyon qara dərili qadına kod yazmağı öyrətmək missiyasını qarşısına qoyub. Kollecdə elektrik mühəndisliyi ixtisası üzrə təhsil alarkən Bryant Ağ Ev tərəfindən çempion seçilib və "Sosial Tərəqqidə Zəka" mükafatına layiq görülüb.

**Keyt Krouford** "AI Now" institutunun həmtəsisçisidir. Bu avstraliyalı qadın süni zəkanın sosial təsirləri barədə çoxlu sayda maraqlı məqalələrin müəllifidir. O, "AI Now" institutunda və "Microsoft"da baş tədqiqatçı kimi fəaliyyət göstərir.

**Keti Mussoris** "Luta Security" şirkətinin qurucusu və baş direktorudur. Keti uşaqlıqda yaşıdları oyuncaqlarla oynayarkən vaxtının çox hissəsini anasının ona hədiyyə etdiyi "Commodore 64"də proqram qurmağı öyrənməyə sərf etmiş və nəticədə kiber təhlükəsizliyin öncülü olmuşdur. İndi müəssisələrə və dövlət qurumlarına özlərini rəqəmsal təhdidlərdən qorumağı öyrədir. Gördüyü işlər arasında "Microsoft" üçün olan layihələr də var. Əsas hədəfi interneti hər kəs üçün daha etibarlı hala gətirməyə kömək etməkdir.

# Bizi izləyirlər?!

**ABŞ-ın "Clearview AI" şirkəti Yer kürəsindəki bütün insanları identifikasiya edə biləcək məlumatlar bazasını hazırlayır. Şirkətdən bildirilib ki, bu ilin sonuna kimi "üzlərin indeksi"ni yaradacaqlar. Bu cür məlumat bazasına 100 milyard foto daxil ediləcək.**



Beləliklə, dünyadan 7 milyard əhalinin hər birinin payına 14 ədəd foto düşür. Onlardan bütün dünya üzrə həbsetmə proseslərinin və cinayət araşdırmalarının aparılması yolunda hüquq-mühafizə orqanları tərəfindən istifadə edilən izləmə sistemlərində istifadə olunacaq. Məlumatda bu da qeyd edilib ki, 2020-ci ildən bəzi məlumatlar bazası 3 milyard fotodan 10 milyard fotoyadək artırılıb. Sistemin özü hər ay 1.5 milyard foto emal edir.

"Clearview AI" şirkətinin bu texnologiyası Çində istifadə edilən sistemlərdən daha irimiqyaslı hesab edilir. Həm də fotolar istifadəçilərin xəbəri olmadan sosial şəbəkələrdən və digər internet resurslarından yığılır. Məlumatlar bazası artıq istənilən dövlət və qeyri-dövlət təşkilatının malik olduğu bu cür bazadan 11 dəfə böyükdür.

"Clearview AI" əsasən dövlət büdcəsi tərəfindən və müqavilələr sayəsində maliyyələşdirilir. Məlumatda qeyd edilib ki, təqdimatın əsas məqsədi sərmayəçilərdən əlavə vəsaitin əldə olunmasıdır. Belə ki, əlavə 50 milyon dollar dəyərində investisiya sayəsində məlumatlar bazasını və şirkətin ştat sayını artırmaq mümkündür. Şirkət məlumatları banklara, pərakəndə satış və elektron kommersiya şirkətlərinə də satmaq niyyətindədir. Üstəlik, yalnız üzlərin identifikasiyası üzrə proqramlarla məhdudlaşmaq istəmir və buna görə də bir neçə yeni texnologiya üzərində iş gedir.

ABŞ-ın bəzi ştatlarında və şəhərlərində üz skanı texnologiyasının istifadəsi qadağan edilsə də, ümumilikdə qanunvericilik bu texnologiyaların istifadəsini hələ ki, nizamlamır. "Amazon", "IBM", "Quql" və "Microsoft" kimi böyük şirkətlər bu cür sistemlərin satışını ya məhdudlaşdırıb, ya da tamamilə dayandırıb. Onlar bildiriblər ki, bu cür sistemlər lazımi səviyyədə nizamlanmayınca onları işə salmaq istəmirlər. "Feysbuk", "Quql", "Tviter" və "Yutub" kimi təmsilçilər "Clearview AI"dan tələb ediblər ki, bu saytlardan fotoların yığılması dayandırılmalı və indiyədək əldə etdikləri isə silinməlidir. Şirkət isə ABŞ Konstitusiyasının birinci düzəlişinə (söz və mətbuat azadlığının təmin edilməsi) istinad edərək güzəştə getməkdən imtina edir. ABŞ hökumətindəki bəzi təmsilçilər də "Clearview AI"ya qarşı çıxıblar. Bəzi senatorlar şirkətin dövlət büdcəsi tərəfindən maliyyələşdirilməsini qadağan edəcək qanun layihələri təklif ediblər. Beləliklə, hazırda şirkət təkcə ABŞ-da deyil, başqa ölkələrdə də çox sayda məhkəmə iddiası və məhdudiyyətlərlə qarşı-qarşıya qalıb. Hətta İsveçin polis idarəsi 2021-ci ildə "Clearview AI" şirkətinin məlumatlarından istifadə etdiyi üçün hökumət tərəfindən cəzalandırılmışdı.

# "Tesla Roadster"dən xəbər var



**"Tesla Roadster" artıq 5 ildir ki, kosmosda səyahət edir. "SpaceX" şirkəti onu 6 fevral 2018-ci il tarixdə "Super Heavy" raketi ilə fəzaya göndərmişdi. Raketin enişində bəzi problemlər yaşansa da o, "Tesla Roadster" elektromobilini və onun daxilində olan Starman manikenini uğurla kosmosa göndərməyi bacarmışdı.**

"Where is Roadster" saytının verdiyi məlumata görə, o, artıq 3.208.624.326 kilometr məsafə qət edib. Elektromobil kosmik məkanda saatda 77.787 kilometr sürətlə hərəkət edir. Onun zəmanət verilən yürüş göstəricisi artıq 55.000 dəfə üstələnib. Hazırda Marsdan 310 milyon, Yer kürəsindən 377.77 milyon, Günəşdən isə 233.4 milyon kilometr uzaqlıqdadır. Ötən il "Tesla Roadster" Marsdan 8 milyon kilometr aralıdan keçmişdi. Bu hadisənin təkrarı 2035-ci ildə baş verəcək.

Hazırda elektromobil Mars planetinin orbitini keçib. Beləliklə, "Tesla Roadster" və onun daxilindəki "Starman" manikeni bir qədər də Mars planetinə yaxınlaşdıqdan sonra öz orbiti üzrə Günəş, Merkuri, Venera, Yer və Mars planetləri ətrafında fırlanacaq. Yerə maksimal yaxınlaşma isə 2091-ci ildən tez olmayacaq.

# "Redmi"nin yeni smartfonu

**"Redmi" şirkətinin təqdim etdiyi yeni "K50 Gaming Edition" smartfonu ilk növbədə mobil oyunlarla maraqlananlar üçün nəzərdə tutulub.**



O, güclü prosessor, təkmilləşdirilmiş soyutma sistemi, yüksək təsvir yenilənməsinə malik ekran və yüksək sürətli şarj texnologiyası, 120 Hz-lik təsvir yenilənməsi olan Full HD keyfiyyətli 6.67 düym AMOLED ekran ilə təchiz olunub. "Gorilla Glass Victus" qoruyucu şüşəli ekranın yuxarı mərkəz hissəsində ön kamera üçün nəzərdə tutulmuş kiçik dairəvi çıxıntı yerləşdirilib. Barmaq izi skanı texnologiyası da birbaşa ekrana inteqrasiya edilib.

Əsas texniki göstəricilərə gəldikdə isə "Redmi K50 Gaming Edition" smartfonu "Snapdragon 8 Gen 1" prosessoru, 8/12 GB RAM, 128/256 GB daxili yaddaş tutumu, 120 dərəcə bucaq təsviri, üçlü arxa kamera və 120 vatt gücündə sürətli şarj texnologiyalı batareya ilə təchiz olunub. Smartfondakı xüsusi düymələr oyunun rahat idarəedilməsi üçün nəzərdə tutulub. Cihaza "JBL" brendinin stereo səsgücləndiriciləri quraşdırılıb.

"K50 Gaming Edition" modeli "Android 12" vasitəsilə çalışır.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Sony "Playstation VR2"

**"Sony" şirkəti "Playstation VR2"-ni sərgiləyib. İstifadəçilər onun dairəvi forması sayəsində 360 dərəcəlik təsviri görə biləcəklər. Bundan əlavə, bu cihazın dizaynı "Playstation 5"dən ilhamlanıb.**



Birinci nəsil "Playstation VR"-in özəllikləri yeni modelə inteqrasiya edilib. Məsələn, istifadəçinin gözdən ekrana qədər olan məsafənin nizamlanmasını və qulaqlıqlar üçün nəzərdə tutulmuş girişin rahat yerləşdirilməsini misal göstərmək olar.

Yeni model 2000x2040 pikselli 2 ədəd OLED ekran ilə də təchiz olunub. Bu ekranlar 110 dərəcəlik baxış bucağına, 90-120 Hz-lik təsvir yenilənməsinə, HDR dəstəyinə malikdir. VR cihazına yerləşdirilmiş 4 kamera idarəetmə qurğularının hərəkətini izləyir. Cihazın daxilində həmçinin infraqırmızı kameralar var ki, onlar istifadəçinin gözlərinin hərəkətini izləyirlər.

"Playstation VR2"nin özünəməxsus özəllikləri də var. Belə ki, linzalar üçün nəzərdə tutulan disk istifadəçiyə daha geniş imkanlar yaradır. Cihaza quraşdırılmış vibromühərriklər vasitəsi ilə o, oyunu daha real hiss edir.

# "Azercell" Təqaüd və Təcrübə Proqramının qaliblərini təbrik etdi

## Proqrama seçilən 22 tələbə hər ay "Azercell"dən 200 AZN məbləğində təqaüd ilə təmin ediləcək




"Azercell Telekom" MMC gənc nəslin fərdi və peşəkar inkişafına dəstək məqsədilə həyata keçirdiyi Tələbə Təqaüd və Təcrübə Proqramının qaliblərini açıqlayıb. Mart ayının 3-də qaliblərin təntənəli mükafatlandırma mərasimində tələbələr ilə görüşən şirkətin rəhbər heyəti qalibləri təbrik edib, "Azercell"in istedadlı və xüsusi qabiliyyətli gənclərin yetişdirilməsinə daima töhfə verdiyini vurğulayıb.

180 nəfərin müraciət etdiyi layihənin nəticələri dörd mərhələli seçim əsasında müəyyən edilib və 22 tələbə "Azercell" təqaüdçüsü və təcrübəçisi adına layiq görülüb. Şirkət bu tələbələrə təhsil ilinin sonunadək 200 AZN məbləğində təqaüd ayıracaq.

Bundan əlavə, istedadlı gənclər təcrübə proqramı sayəsində uyğun gəldikləri sahə üzrə bilik və bacarıqlarını artıra biləcəklər. Bu il ərzində proqram iştirakçıları təcrübəçi qismində "Azercell"in peşəkar komandasına qatılacaq, real tapşırıq və layihələrdə iştirak etməklə səriştələrini inkişaf etdirə biləcəklər. Təcrübə proqramı çərçivəsində gənclər "Azercell" Akademiyasının sertifikatlı təlimçiləri tərəfindən keçirilən bir sıra təlimlərdə də iştirak edəcəklər.

Tələbələrlə görüşdə "Azercell"in müxtəlif departamentlərinin əməkdaşları gənclərə öz peşələrinin xüsusiyyətləri haqda danışıb, onları maraqlandıran sualları cavablandırıblar. Tədbirin sonunda "Azercell"in Təqaüd və Təcrübə Proqramının iştirakçılarına mükafatlar təqdim olunub.

2009-cu ildən etibarən "Azercell Telekom" MMC tərəfindən reallaşdırılan Tələbə Təqaüdü Proqramı çərçivəsində Azərbaycanın müxtəlif təhsil ocaqlarında oxuyan tələbələrə təqaüd ayrılır. İndiyədək Azərbaycanın fərqli universitetlərində bakalavr və magistratura pillələrində təhsil alan Tələbə Təqaüdü 2022 Proqramının iştirakçılarının sayı da daxil olmaqla, 257 tələbə "Azercell" şirkətinin təqaüdçüsü seçilib. İkinci Qarabağ müharibəsi zamanı təhsilini yarımçıq qoyaraq, torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmiş tələbələr də ötən il "Azercell"in bu proqramı çərçivəsində dəstəklənib. 2007-ci ildən etibarən həyata keçirilən təcrübə proqramı sayəsində 254 tələbə "Azercell"də təcrübə keçib, onlardan 34-ü "Azercell"də işlə təmin olunub.

Xatırladaq ki, bir çox qabaqcıl ali təhsil məktəbi ilə əməkdaşlıq edən "Azercell" şirkəti tələbələrin peşəkar inkişafı, innovasiya və sahibkarlıq sahələrinə cəlb olunması, eləcə də universitetlərin elmi-texniki və tədris bazasının inkişaf etdirilməsinə yönəlmiş müxtəlif layihələr də həyata keçirir.

"Azercell" şirkəti Azərbaycanın təhsil sistemindəki yenilikləri izləyərək ali məktəblərlə əməkdaşlığı daha da gücləndirmək, istedadlı gənclərin inkişafına yardımçı olmaq yolunu davam etdirmək niyyətindədir.

# Heydər Əliyev Mərkəzində Alvize Kazellatinin dirijorluğu ilə Azərbaycan musiqiçiləri dünya klassiklərinin əsərlərini ifa edib

Heydər Əliyev Mərkəzində tanınmış italiyalı dirijor Alvize Kazellatinin rəhbərliyi ilə konsert proqramı təqdim olunub.





AZƏRTAC xəbər verir ki, konsertdən əvvəl jurnalistlərə müsahibə verən Alvize Kazellati konsertin möhtəşəm keçəcəyini deyib: "Heydər Əliyev Mərkəzində Azərbaycan musiqiçiləri ilə çıxış etməkdən zövq alıram. Mən bu gün çıxış etdiyim orkestrlə 3 il bundan öncə də çalışmışam. Budəfəki proqram çox zəngindir. Bakının tanınmış klarnet ifaçıları digər musiqiçilərlə birgə Lüdviq van Bethoven, Volfqanq Amadey Motsart, Pyotr Çaykovskinin əsərlərini ifa edəcək. Ümid edirəm musiqisevərlər bizim onlara ötürəcəyimiz enerjidən razı qalacaqlar".

Heydər Əliyev Mərkəzinin Auditorium zalında keçirilən gecədə Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri və solist Emil Bağırov (klarnet) dünya musiqi klassikasından əsər ifa edib.

Alvize Kazellati dirijor kimi ilk dəfə 2011-ci ildə Venesiyada "Teatro La Fenice" səhnəsində çıxış edib. Musiqiçi son bir neçə ildə bir çox festivalda iştirak üçün dəvət alıb, İtaliyanın bir sıra məşhur opera teatrları ilə əməkdaşlıq edir.

Alvize Kazellati həmçinin 2017-ci ildə təsis edilən "Opera İtaliana is in the Air" layihəsinin yaradıcısı və musiqi rəhbəridir. Layihənin əsas məqsədi gənc dinləyiciləri İtaliyanın opera irsinə cəlb etmək, italyan operasının hamı üçün əlçatanlığını təmin etməkdir.

Konsertdə solist kimi çıxış edən klarnet ifaçısı Emil Bağırov 2014-cü ildə Azərbaycan Respublikası Prezidentinin təqaüdünə, 2017-ci ildə isə Azərbaycan Respublikası Prezidentinin mükafatına layiq görülüb. 2012-ci ilin dekabr ayında Təl-Əviv şəhərində keçirilən beynəlxalq musiqi yarışmasında "Ən yaxşı ifaçı" seçilib. 2013-cü ildən Azərbaycan Dövlət Simfonik Orkestrinin artistidir. 2016-cı ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə musiqi sahəsində xüsusi istedadına görə adı gənc istedadların "Qızıl kitabı"na yazılıb və gənc istedadların xüsusi təqaüdünə layiq görülüb.


# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Cəlilabadda Bədən Tərbiyəsi və İdman Günü qeyd edilmişdir




Cəlilabaddakı Heydər Əliyev Mərkəzində rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə 5 Mart - Bədən Tərbiyəsi və İdman Gününə həsr olunmuş tədbir keçirilmişdir.

İdmançıların, tanınmış idman mütəxəssislərinin qatıldığı tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, abidənin önünə çiçək dəstəsi qoymuşlar. Vətən müharibəsində şəhid olmuş idmançıların xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə açan Cəlilabad Rayon Gənclər və İdman İdarəsinin rəisi Elçin Hüseynov iştirakçıları salamlayaraq diqqətə çatdırmışdır ki, bu gün Prezident İlham Əliyevin 4 mart 2005-ci il tarixli sərəncamı ilə təsis edilmişdir: "Hələ 1995-ci il martın 5-də Ulu Öndər Heydər Əliyev Bakı İdman Sarayında dünya və Avropa çempionatlarının qalibləri və mükafatçıları ilə görüşmüş, İdman Fondunu təsis etmişdir. Bununla da Azərbaycanda bədən tərbiyəsi və idmanın inkişafında yeni stradegiyanın əsası qoyulmuşdur".

Natiq onu da bildirmişdir ki, 1997-ci ildən Milli Olimpiya Komitəsinə başçılıq edən İlham Əliyevin ardıcıl səyi, uğurlu idman siyasəti nəticəsində Azərbaycan dünyanın qabaqcıl idman ölkələrindən birinə çevrilib: "Ölkəmizdə bədən tərbiyəsi və idmana qayğıkeşlik ildən-ilə artır. Dövlət başçısının idmançılara diqqəti, onlara həssaslıqla yanaşması, rayonlarda idman olimpiya komplekslərinin, idman zallarının tikilməsi buna əyani sübutdur".

Tədbirdə çıxış edənlər də qazanılan uğurların əsasının Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulduğunu, bu siyasətin hazırda idmana, gənclərimizin sağlamlığına yüksək diqqət və qayğıkeşlik göstərən Prezident İlham Əliyev tərəfindən davam və inkişaf etdirildiyini qeyd etmiş, ölkəmizdə idman və bədən tərbiyəsinin səviyyəsinin qarşıdakı illərdə daha da artacağını vurğulamışlar.

Tədbirin sonunda idmanda qazandıqları uğurlara görə bir qrup idman mütəxəssisinə və idmançıya fəxri fərman və hədiyyələr təqdim olunmuşdur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## ◆ Dünya gündəmi

# 94-cü "Oskar" Builki mükafatın təqdimatında dəyişikliklər edilib



"Oskar" mükafatının bəzi heykəlciklərinin təqdim edilməsi canlı efirdə göstərilməyəcək. Bir neçə nominasiyada qaliblər kino mükafatının təqdimat mərasiminin canlı yayımına başlamazdan əvvəl elan ediləcək. Bu barədə "The Hollywood Reporter" jurnalı yazır.

2022-ci ildə mükafatın təşkilatçıları qarşıdan gələn təqdimat mərasiminin əsas hissəsini ixtisar etmək qərarına gəliblər. Onlar tədbirə tamaşaçıların marağının azalması səbəbindən bu addımı atıblar.

### Ən aşağı reytinq

2021-ci ildə "Oskar" mükafatının 93-cü təqdimat mərasiminin yayımlanması bütün tarix ərzində tamaşaçı marağının ən aşağı reytinqini alıb. Bu, mərasimi yayım etmək hüququna malik olan ABC televiziya şəbəkəsində narahatlıq yaradıb.

94-cü "Oskar" mükafatının təqdimat mərasimi keçirilənədək təşkilatçılar ən yaxşı qısametrajlı filmlər, montaj, səs, qrim, musiqi və quruluşçu rəssamların işi üzrə mükafatlar da daxil olmaqla bir neçə ikinci dərəcəli nominasiyada qalibləri elan edəcəklər. Daha sonra bu nominasiyalarda qaliblər yalnız birbaşa efir zamanı qeyd olunacaq.

"Oskar" mükafatını təqdim edən Amerika Kinematoqrafiya İncəsənəti və Elmləri Akademiyasında ümid edirlər ki, bu qərar tamaşaçıların mərasimə marağını artıracaq. Geniş publikanı ilk növbədə "Ən yaxşı film", "Ən yaxşı rejissor", "Ən yaxşı aktyor" və "Ən yaxşı aktrisa" nominasiyalarında qaliblər maraqlandırır.

### İki filmin yüksək nominasiyası

Cənubi koreyalı aktrisa Yun Yo Çjon "Oskar" mükafatının təqdimetmə mərasimində iştirak edəcək. Bu barədə "Hook Entertainment" agentliyinin nümayəndələrinə istinadən "Yonhap News" xəbər verir.

Artıq məlumdur ki, Cənubi Koreya aktrisası ilə yanaşı, mərasimdə müğənni Ledi Qaqa, aktyor Kevin Kostner, aktrisalar Zoi Kravitz və Rozi Peres, aktyor Kris Rok kimi daha altı məşhur iştirak edəcək.

"Yun Yo Çjon mükafatın təqdim olunması mərasimində iştirak etmək üçün ABŞ-a getməyi planlaşdırır", - deyə agentlikdən bildiriblər. "Biz onun hansı mükafatı alacağını bilmirik, amma güman edirik ki, bu, ikinci planın ən yaxşı qadın roluna görə mükafat olacaq".

Xatırladaq ki, 2021-ci ildə Yun Yo Çjon Li İsaak Çanın "Minari" filmində oynadığı ikinci plan roluna görə "Oskar" mükafatına layiq görülüb.

Amerika Kinoakademiyası "Oskar" mükafatına nominantları elan edib. Ceyn Kempionun "Köpəyin hakimiyyəti" vesterni 12 nominasiya, Deni Vilnyovun "Düna" filmi isə 10 nominasiya qazanıb. Digər filmlər bunlardır: "Qorxulu xiyaban", "Belfast", "Vestsayd hekayəsi", "Kral Riçard", "Biyan pizzası", "Göyə baxmayın", "Maşınımın sükanı arxasında otur","CODA: Kar valideynlərin övladı".

"Xarici dildə ən yaxşı film" nominasiyası: "Lunana: Yak sinif otağında" - Butan, "Qaçış" - Danimarka, "Tanrının əli" - İtaliya, "Maşınımın sükanı arxasında otur" - Yaponiya, "Dünyanın ən pis adamı" - Norveç.

"Ən yaxşı aktyor" nominasiyası: Xavyer Bardem - "Rikardo rolunda", Denzel Vaşinqton - "Makbetin faciəsi", Endrü Qarfild - "Tik-tak ... BUM!", Benedikt Kamberbetç - "Köpəyin hakimiyyəti", Uill Smit - "Kral Riçard".

"Ən yaxşı aktrisa" nominasiyası: Cessika Çesteyn - "Temmi Feyin gözləri", Olivia Kolman - "Naməlum övlad", Penelopa Kruz - "Paralel analar", Nikol Kidman - "Rikardo rolunda", Kristen Stüart - "Spenser".

94-cü "Oskar" mükafatının təqdimetmə mərasimi bu il martın 27-də Los-Ancelesdəki Dolbi Teatrında keçiriləcək. Mərasimin aparıcıları stendap - komik Emi Şumer, aktrisalar Vanda Sayks və Regina Holl olacaq.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# Goranboy rayonu istiqamətində mövqelərimiz atəşə tutulub

Martın 5-i saat 00:40-dan 00:50-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvləri Goranboy rayonunun Gülüstan yaşayış məntəqəsi istiqamətində yerləşən Azərbaycan Ordusunun mövqelərini atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən adekvat cavab tədbirləri görülüb. Ordumuzun sıralarında şəxsi heyət və texnika baxımından itki yoxdur.

Hazırda bu istiqamətdə vəziyyət sabitdir, əməliyyat şəraiti bölmələrimizin tam nəzarəti altındadır.

# Laçın rayonu istiqamətində itkin düşmüş hərbi qulluqçularımızın axtarışı davam edir

Laçın rayonu ərazisində yerləşən bir döyüş mövqeyindən digərinə hərəkət edən Azərbaycan Ordusunun müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları - əsgər Məmmədov Fərid Əjdər oğlu və əsgər Abdullayev Firdovsi Mais oğlu hava şəraitinin qəfil dəyişməsi və çovğun səbəbindən istiqaməti itirərək azıblar.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, hərbi qulluqçularımızın tapılması məqsədilə yüksək dağlıq və çətin relyefli ərazidə hava şəraitinin əlverişsiz olmasına baxmayaraq, dərhal axtarış tədbirlərinə başlanılıb.

Axtarış-xilasetmə tədbirlərinin nəticələri barədə əlavə məlumat veriləcək.

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Baş Prokurorluğunun rəhbərliyi Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyevə atası

**ZƏHMƏT MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Memarlar İttifaqının İdarə Heyəti üzvləri Azərbaycanın Əməkdar rəssamı, AzMİU-nun Memarlıq fakültəsinin Təsviri incəsənət kafedrasının professoru

**ALBERT MUSTAFAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyevə atası, AMEA-nın müxbir üzvü

**ZƏHMƏT ŞAHVERDİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dətrin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin rəhbərliyi və Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi

**MİNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Mühəndislik Universitetinin (BMU) rektoru, professor Havar Məmmədov və BMU Həmkarlar İttifaqı Komitəsi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyevə əzizi

**MİNA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5695
Sifariş 618
Qiyməti 40 qəpik